

Qarabağ şəhidlərinin əziz xatirəsinə ithaf olunur...

# QARABAĞ ZƏFƏRİ

## 44 GÜNÜN PƏRDƏARXASI

AYGÜN ATTAR

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -27153-
PREZİDENT KİTABXANASI

TÜRKİYƏ-AZƏRBAYCAN
DOSTLUQ, ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK FONDU

AZƏRBAYCAN DÖVLƏT TƏRCÜMƏ MƏRKƏZİ

AZƏRBAYCAN DÖVLƏT TƏRCÜMƏ MƏRKƏZİ
ISBN: 978-9952-531-38-1
Bakı – 2021

© Kitabın elmi, üslubi və hüquqi məsuliyyətini müəllif daşıyır. Müəllif hüquqları qorunur. Nəşri Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun icazəsi olmadan elektron, mexaniki, surətini çıxararaq və digər vasitələrlə çoxaltmaq, yaymaq olmaz.

# QARABAĞ ZƏFƏRİ

## 44 GÜNÜN PƏRDƏARXASI

Bu kitab
Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu tərəfindən Türkiyə Respublikası Prezident Aparatı, Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Anadolu Agentliyi (AA) və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) dəstəyi ilə hazırlanıb.

**Müəllif**
Aygün Attar
*professor*

**Nəşrin məsləhətçisi**
İbrahim Kalın

**Tərcüməçilər**
Kəmalə Ələkbərova
Sənan Nağı

**Redaktor**
Etimad Başkeçid

**Nəşriyyat redaktoru**
Aqşin Məsimov

**Korrektorlar**
Ceyran Abbasova
Şəhla Mustafayeva
Selcan Abbasova

**Səhifələnmə**
Aqil Əmrahov

**Azərbaycan Dövlət Tərcümə Mərkəzinin mətbəəsində çap olunmuşdur.**

# TƏQDİMAT

**1991**-ci ildə Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı Azərbaycan türkləri kimi bizim də qəlbimizi yaraladı. 1992-ci il 26 fevral tarixində əsasən qadın və uşaqlardan ibarət 613 nəfər doğmamızın vəhşicəsinə şəhid edilməsi kədər və qəzəbimizi daha da artırdı. İşğal nəticəsində 1 milyondan çox qardaş və bacımız doğulduğu torpaqları tərk etmək məcburiyyətində qaldı. Ermənilərin təkcə hərbçilərə deyil, mülki əhaliyə də hücum etməsi nəticəsində 20 min Azərbaycan türkü şəhid oldu.



Bu qətllərdən başqa, ermənilər Şuşa və Xankəndi başda olmaqla tarixi türk şəhərlərində mədəniyyəti də soyqırıma məruz qoydu. Onlar Dağlıq Qarabağda əsrlərlə inancımıza və mədəniyyətimizə aid ilmə-ilmə toxunmuş türk və islam izlərini silmək üçün hər cür alçaqlığa əl atdılar. Tarixi və mədəni varlığımızın bir parçası olan 950 kitabxananı, 44 məbədi və 9 məscidi yerlə yeksan etdilər.

Təxminən otuz il çəkən bu işğal və cinayət siyasəti qarşısında beynəlxalq ictimaiyyət heç bir tədbir görmədi. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının ABŞ, Fransa və Rusiya tərəfindən yaradılan Minsk qrupu problemi həll etmək əvəzinə daha da dərinləşdirdi. Qardaş Azərbaycan xalqı on illər boyunca həm işğalın, həm də itkilərin kədərini təkbaşına yaşadı.

Əvvəllər olduğu kimi yenə də cinayətlərinin cavabsız qalacağından arxayın olan Ermənistan 2020-ci il sentyabrın 27-də Azərbaycana hücum etdi, lakin bu dəfə gözləmədiyi reaksiya ilə qarşılaşdı. Rəşadətli Azərbaycan ordusu Ermənistanın hücum aktına cavab vermək və bütün işğal altındakı əraziləri azad etmək üçün sürətlə hərəkətə keçdi. 44 günlük dastan kimi mübarizə nəticəsində Qarabağın bir çox şəhəri azadlığa qovuşdu, təxminən otuz il davam edən işğala son qoyuldu. Mülki şəxsləri və mülki əhalinin yaşadığı məkanları hədəf alan erməni hücumlarına baxmayaraq Azərbaycan beynəlxalq hüquq müstəvisində də mübarizəsini davam etdirdi.

Türkiyə olaraq ilk gündən öz torpaqlarını azad etmək üçün apardığı vətən müharibəsində Azərbaycanı bütün vasitələrlə dəstəklədik. Heç bir imkanımızı azərbaycanlı qardaşlarımızdan əsirgəmədik. Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmaq üçün əməkdaşlıq etdiyimiz və üzv olduğumuz beynəlxalq platformalarda gərgin iş apardıq. Rusiya Federasiyası ilə birgə göstərdiyimiz səylər nəticəsində regionda əmin-amanlığın, sabitliyin və təhlükəsizliyin təminatı olacaq anlaşma imzalandı.

Türkiyə və türk xalqı Azərbaycan xalqının bu tarixi qələbəsində payı olduğu üçün böyük məmnuniyyət hissi keçirir. Şübhəsiz ki, bu qələbənin əldə olunmasında ən böyük amil əziz qardaşım Prezident İlham Əliyevin dəyanətli liderliyi ilə Azərbaycan ordusunun göstərdiyi qəhrəmanlıqdır. Qarabağın yenidən Ana Vətənlə qovuşmasında Məhəmməd Əmin Rəsulzadədən Heydər Əliyevə qədər bütün milli qəhrəmanlarımızın və Dağlıq Qarabağın azadlığı uğrunda canından keçən şəhidlərmizin ruhları bir daha şad oldu.

Bu münasibətlə Qarabağı otuzillik həsrətdən sonra Ana Vətənə qovuşduran Azərbaycan ordusunun igid əsgərlərini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm. Bu şanlı zəfəri bizlərə yaşadan qəhrəman şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram.

Qardaşım İlham Əliyevin liderliyi ilə Azərbaycanın müdafiə məsələlərindən tutmuş energetikaya, diplomatiyadan iqtisadiyyata qədər bütün sahələrdə dastan yazmağa davam edəcəyinə inanıram. Mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı ilə əməkdaşlığımızı daha da inkişaf etdirəcəyik. Qarabağda işğal izlərinin silinməsi və azad edilən ərazilərin yenidən bərpası üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Dünya hərb tarixini dəyişdirən Qarabağ zəfərinin strateji əhəmiyyətindən başqa, 44 günlük dastan kimi mübarizədən bəhs edən bu kitab qiymətli bir tədqiqat əsəridir. Bu əsərin ərsəyə gətirilməsində və xalqımızla bərabər bütün dünya ictimaiyyətinə təqdim olunmasında zəhmət çəkən hər kəsi təbrik edirəm.

**Rəcəb Tayyib ƏRDOĞAN,**
Türkiyə Respublikasının Prezidenti

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın bir müddətdə həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20%-i işğal edilmiş, regionda etnik təmizləmə siyasəti aparılmış, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək qadınlar və uşaqlar da daxil olmaqla 613 günahsız mülki şəxsi vəhşicəsinə qətlə yetirmişdir.



Ermənistan işğal etdiyi bütün kənd və şəhərlərimizi tamamilə xarabalığa çevirmiş, tarixi, mədəni və dini abidələrimizi məhv edərək vandalizm aktları törətmişdir. Məscidlərimiz, müqəddəs ziyarətgahlarımız təhqir edilmiş, donuz və inəklərin saxlandığı yerlərə çevrilmişdir. Ermənistanın yeganə məqsədi Azərbaycan xalqının bu torpaqlardakı izini silmək olmuşdur.

Məsələnin həlli ilə əlaqədar 1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu 28 il ərzində fəaliyyət göstərsə də, heç bir nəticə əldə etməmişdir. Ermənistana işğalla əlaqədar heç bir təzyiq göstərilməmiş, qətnamələrə əməl edilməmişdir. Elə bu səbəbdən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından tam, dərhal və qeyrd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə 27 il yalnız kağız üzərində qalmışdır.

Azərbaycan münaqişənin müzakirələr yolu ilə həllinə sadiq qalmışdır. Ancaq Ermənistan problemi dondurmaq üçün addımlar atır və gözdən pərdə asmaq naminə müzakirələr aparırdı. Son iki ildə isə Ermənistanın hərbi-siyasi rəhbərliyinin məsuliyyətsiz və təxribatçı bəyanat və addımları bu ölkənin Azərbaycan torpaqlarını geri qaytarmaq niyyətində olmadığını və yeni müharibəyə hazırlaşdığını göstərmişdir.

Ermənistan 2020-ci il 27 sentyabr tarixində mülki vətəndaşlarımızı və hərbi mövqelərimizi ağır artilleriya zərbələrinə məruz qoyaraq Azərbaycana qarşı yeni hərbi təxribata əl atmışdır. Azərbaycan öz vətəndaşlarını qorumaq və işğal altındakı torpaqlarını azad etmək üçün əks-hücum əməliyyatına başlamışdır. 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatmış və 300-dən çox yaşayış məntəqəsi işğaldan azad edilmişdir. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları tamamilə, Xocavənd rayonunun böyük hissəsi, Xocalı, Laçın və Kəlbəcər rayonlarının bir hissəsi, Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir. 8 noyabrda tarixi şəhərimiz Şuşanın azad edilməsi ilə Ermənistan 10 noyabr tarixində kapitulyasiya bəyanatını imzalamağa məcbur oldu. Beləliklə, Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal altında qalan əraziləri də azad edildi.

44 günlük Vətən müharibəsinin sonunda Azərbaycan həm savaş meydanında, həm də masa üzərində tarixi zəfər qazandı. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüquq normalarını və prinsiplərini əsas tutaraq tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" adlandırdığı Azərbaycan–Türkiyə qardaşlığı və dostluğu bu gün regionda sülhü və təhlükəsizliyi təmin edən, sabitlik və əməkdaşlığa töhfə verən əsas elementdir.

Qardaş Türkiyə Respublikası Azərbaycanı öz torpaqlarını işğaldan azad etmək üçün təxminən 30 il davam edən haqq mübarizəsində bütün sahələrdə açıq şəkildə və tərəddüdsüz müdafiə etmişdir. 27 sentyabrda Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi hərbi təxribatın ilk saatlarından etibarən Türkiyə Respublikasının Prezidenti, dəyərli qardaşım Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə Respublikası bu xain hücumu qətiyyətlə pislədi. 44 günlük Vətən müharibəsi zamanı Türkiyə dövləti Azərbaycanın haqq mübarizəsinə siyasi və mənəvi dəstək verdi, türk xalqı Azərbaycanın tarixi qələbəsinə öz qələbəsi kimi sevindi.

Şübhəsiz, Azərbaycan–Türkiyə sarsılmaz birliyi və həmrəyliyi hər zaman inkişaf edəcək və güclənəcəkdir.

Yaşasın Azərbaycan–Türkiyə qardaşlığı!

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti



# MÜNDƏRİCAT


TƏQDİMAT ..... 6

ÖN SÖZ ..... 8

GİRİŞ ..... 18

İŞĞALIN QISA TARİXİ ..... 22

İşğalın ilk mərhələsi: demoqrafik siyasət ..... 22

İşğal planının həyata keçirilməsi ..... 25

Dağlıq Qarabağın işğalı və işgəncə faktları ..... 28

Diplomatik həll yollarının axtarışı ..... 31

44 GÜNÜN XRONOLOGİYASI ..... 38

Ümumi mənzərə ..... 40

Xronologiya ..... 44

ERMƏNİSTAN HƏRBİ BİRLƏŞMƏLƏRİNİN DİNC ƏHALİYƏ HÜCUMLARI ..... 90

Ermənistan hərbi birləşmələrinin dinc əhaliyə hücumları ..... 92

Dağlıq Qarabağ müharibəsinin dinc əhaliyə təsiri ..... 96

QARABAĞ ZƏFƏRİ VƏ BEYNƏLXALQ İŞTİRAKÇILAR ..... 102

Ümumi dəyərləndirmə ..... 104

Beynəlxalq ictimaiyyətin mövqeyi ..... 118

10 NOYABR BƏYANNAMƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ ..... 132

AZƏRBAYCAN–TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞI VƏ HƏMRƏYLİYİN ZƏFƏRİ ..... 144

QARABAĞ ZƏFƏRİNİN BEYNƏLXALQ İCTİMAİYYƏTDƏ ƏKS-SƏDASI ..... 154



# ÖN SÖZ

Beynəlxalq münasibətlər üzrə dünya şöhrətli mütəxəssis, professor Terrens Hopmann 2015-ci ildə qələmə aldığı məqaləsində Qarabağ probleminin həllində maraqlı olmayan dövlətlərdən söz açaraq qeyd edir ki, ATƏT-in Minsk qrupu münaqişənin nizamlanmasında səmərəsiz fəaliyyət göstərir.

Professor Terrens Hopmann həmin məqalədə etiraf edir ki, 1994-cü il tarixli Bişkek protokolunun qəbul edilməsi ilə dondurulan münaqişənin yenidən aktuallaşmamasına və Qarabağda otuz ilə yaxın davam edən de-fakto vəziyyətinin saxlanılmasına Qərb susmaqla razılıq verib və bu durum Rusiyanı da qane edir.

Azərbaycan beynəlxalq hüquq prinsiplərinə və Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə əsaslanaraq Ermənistan tərəfindən işğal edilmiş torpaqların sülh yolu ilə qaytarılmasına nail olmaq üçün əzm və səbir nümayiş etdirsə də, heç bir nəticə əldə etməmişdir.

İkinci Qarabağ müharibəsindən əvvəl, 2016-cı ilin aprel ayında Ermənistanın Azərbaycana qarşı yeni hücum aktı onu göstərdi ki, Ermənistan sülh danışıqlarından bir vasitə kimi istifadə edir və məqsədi yalnız prosesi uzatmaqdır. Erməni silahlı birləşmələrinin hücumuna Azərbaycanın sərt cavabı onsuz da məhrumiyyətlər içində yaşayan erməni xalqını bu məsələdə Ermənistan rəhbərliyini ittiham etməyə vadar etdi. Azərbaycan silahlı qüvvələri aprelin 1-dən 2-nə keçən gecə yüksək rəşadət göstərərək Lələtəpəni və bir neçə kəndi azad etdi. Dörd gün davam edən həmin müharibə Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı. Ermənistanda daim beyinlərə yeridilən "məğlubedilməz ordu" mifi isə iki gün ərzində darmadağın edildi.

90-cı illərdə əlli qana bulaşmış və "Qarabağ klanı" kimi ad çıxarmış erməni siyasətçiləri Lələtəpədəki məğlubiyyətdən sonra "Müharibə siyasəti" ilə artıq İrəvanda tərəfdar tapa bilməyəcəklərini anladılar. 2018-ci ilin 2 mart seçkilərində 27 ildən sonra ilk dəfə Ermənistanda anadan olmuş biri – Armen Sarkisyan prezident seçilsə də, müstəqilliyini qazandığı dövrdən müharibə vəziyyətində olan və bütün qonşuları ilə problem yaşayan Ermənistanda vəziyyət stabilləşmədi.

Qərbin dəstəyi ilə 2018-ci ildə iqtidara gələn, Ermənistana demokratiya və sülh vəd edən Paşinyan 2019-cu ilin mayında Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya gedərək festival təşkil etdi və "Qarabağ Respublikası"nın paytaxtının Xankəndidən Şuşaya köçürüləcəyini bildirdi. Hətta Şuşada parlament binasının inşasına hazırlıqlara da başlanıldı.

Amerika və Fransa kimi ölkələrdən dəstək alacağını düşünən baş nazir Paşinyan ölkəsindəki korrupsiya və yoxsullıqla mübarizə aparmaq əvəzinə, sələfləri olan erməni siyasətçiləri kimi müharibə siyasətini davam etdirdi. Azərbaycanın dövlət başçısı İlham Əliyev populist siyasəti ilə erməni xalqını boş vədlərlə aldatma yolunu seçən Paşinyana 2020-ci ilin 15 fevral tarixində 56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ictimaiyyət qarşısında dərs verdi. Televiziya kanallarında canlı olaraq yayınlanan və bütün dünyada böyük maraq oyadan həmin görüşdə Əliyev xüsusən erməni tərəfinin əsas tezislərindən birini – bölgənin guya Stalin tərəfindən Azərbaycana verilməsi iddiasını təkzib edən rus arxivlərindəki 4-5 iyul 1921-ci il tarixli sənədləri, eləcə də Ermənistandan Azərbaycan ərazilərinin işğalına son qoymağı tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini xatırlatdı.

Tarixdə ilk dəfə Azərbaycan və Ermənistan liderlərinin ictimaiyyət qarşısında Qarabağ məsələsini müzakirə etdikləri Münhen görüşündə də Azərbaycanın dövlət başçısı problemin sülh yolu ilə həll edilməsi istəyini bir daha dilə gətirdi.

Azərbaycan torpaqlarının işğal altında olmasına baxmayaraq münaqişənin sülh yolu ilə həll olunması təklifinə Ermənistan hər dəfə təcavüzkar addımlar atmaqla cavab vermişdir. Belə ki, 2020-ci il 12 iyul tarixində Ermənistan ordusunun Tovuz rayonunu hədəfə alması nəticəsində biri mülki şəxs olmaqla 12 Azərbaycan vətəndaşı həlak olmuşdur.

Qarabağ müharibəsinin ayaq səsləri kimi səciyyələndirilən bu hücum gərgin Azərbaycan–Ermənistan münasibətlərində ciddi bir dönüş nöqtəsi oldu. Tovuz rayonu Azərbaycan və Türkiyənin ortaq həyata keçirdiyi nəqliyyat və enerji xətləri üzərində yerləşdiyi üçün böyük strateji və geosiyasi əhəmiyyətə malikdir. Bu rayon eyni zamanda Azərbaycanı Gürcüstandan keçməklə Türkiyə və Avropa ilə birləşdirən yolun üzərindədir.

Ermənistan ordusunun bu hücumu Türkiyədə sərt qarşılanmış, ölkə başçısı Ərdoğan Azərbaycana tam dəstəyini ifadə edən bəyanat vermiş, TBMM-də dörd siyasi partiyanın qəbul etdiyi birgə qərarla Ermənistanın regionda müharibəni alovlandıran davranışı kəskin şəkildə qınanmışdır.

Azərbaycanın dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dünyadakı siyasi konyunkturanı da nəzərə alaraq təxminən otuz il gözləməsinə baxmayaraq münaqişənin sülh yolu ilə həll edilə bilməyəcəyinə əmin olduqdan sonra Azərbaycan üçün həyati əhəmiyyətə malik Qarabağ probleminə son nöqtəni qoymaq qərarını verdi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və haqqa, ədalətə sadiqliyi ilə tanınan türk millətinin tam dəstəklədiyi Ali Baş Komandan İlham Əliyev 27 sentyabr 2020-ci ildə başladığı tarixi hərəkatla Azərbaycan dövlətçiliyi tarixində böyük bir zəfər salnaməsi yazdı.

44 gün davam edən müharibə zamanı prosesi Prezident İlham Əliyev və gərgin diplomatik fəaliyyəti ilə Prezident Ərdoğan yönləndirirdi. İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı beynəlxalq mətbuat orqanlarına mütəmadi olaraq verdiyi bəyanat və müsahibələri ilə Azərbaycan xalqının haqq mübarizəsini əks etdirən həqiqətləri bütün dünyaya çatdırdı.

Azərbaycanın öz ərazilərini işğaldan azad etmək üçün özünümüdafiə hüququndan istifadə edərək apardığı müharibə Türkiyə üçün də tarixi bir dönüş nöqtəsi idi və sanki tarix təkrarlanırdı.

Azərbaycan və Anadolu türklüyü məhz 1918-ci ildə Qafqaz İslam Ordusunun Azərbaycanın paytaxtı Bakını işğaldan azad etmək üçün Qafqaz torpaqlarına ayaq basdığı illərdəki ruhun hakim olduğu günləri yaşayırdı.

Bütün dünya Azərbaycan ordusunun ildırım sürətli əməliyyatlarını maraqla izlədiyi bir vaxtda Türkiyə regiondakı hadisələrlə əlaqədar məlumatları bir-bir ictimaiyyətə çatdırırdı. Yaradılmış Türkiyə–Azərbaycan ortaq media platformasının fəaliyyəti sayəsində Avropa və Amerika mətbuatının hadisələrlə əlaqədar yaydığı dezinformasiyalar dərhal ifşa olunurdu. Hətta baş nazir Paşinyanın Ermənistanın rəşadətli Azərbaycan ordusuna məğlubiyyətində Türkiyəni günahlandırması və Avropada "Türk qorxusu" yaratmağa çalışan hədyan dolu bəyanatları Ermənistanda da sərt reaksiyaya səbəb oldu.

Qərb mediası Qarabağ problemindən bəhs edərkən həmişə "Xristian Ermənistan, müsəlman Azərbaycan" ifadələrindən istifadə etməyə üstünlük verirdi. Müharibənin ikinci günündən sonra ingilis qəzeti "The Guardian" Qarabağ müharibəsi zamanı erməni təyyarələrinin vurulmasında Türkiyənin rolu olduğunu iddia etdi. Fransız "Le Monde" qəzeti daha da irəli gedərək öz səhifələrində Qarabağda Azərbaycan tərəfdən suriyalı döyüşçülərin vuruşduğunu yazmaqdan çəkinmədi. Bütün bunlar Azərbaycan ordusunun gücünü və uğurunu kiçiltməyə, Ermənistan xalqına isə "Məğlubiyyətin səbəbi Türkiyənin müdaxiləsidir" deyərək öz hərbi, siyasi və diplomatik məğlubiyyətini gizləməyə hədəflənmiş qarayaxma təbliğatından başqa bir şey deyildi.

İkinci Qarabağ müharibəsi ərzində soyuqqanlılığını qoruyan dövlət başçısı İlham Əliyev Bakıya gələn avropalı və amerikalı jurnalistləri öz arqumentləri ilə susdurur, Azərbaycanın həqiqətlərini səsləndirir, onların öz deyimi ilə "feyk nyus"ları bir-bir ifşa edirdi.

Ermənistanın apardığı hiyləgər siyasətə və dünyanın susqun qalmasına baxmayaraq rəşadətli Azərbaycan ordusu və müzəffər Ali Baş Komandanın əzmkarlığı sayəsində qazanılan Qarabağ zəfəri Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın möhkəmlənərək bir bütövlük kəsb etdiyini göstərən və haqqında elmi tədqiqatlar, dissertasiyalar yazılacaq mövzudur. Burada xüsusən də Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev faktoru əvəzsiz rol oynamışdır.

Bu əsərdə Qarabağ probleminin yaranma tarixindən Zəfər Gününə qədər baş verən hadisələr tədqiq olunmuş, xalqın son otuz ildə çəkdiyi məşəqqətlər, zülm və iztirablar, xüsusən də Qarabağ mövzusu ətrafında oynanılan məkrli beynəlxalq oyunlar işıqlandırılmışdır. Beynəlxalq təşkilatların münaqişəni

illərlə taleyin hökmünə buraxması və nəticəsiz qalan görüşlərin gündən-günə düyünə düşməsi məsələsi də bu əsərdə əsaslı şəkildə tədqiq olunmuşdur.

Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi qurumların Qarabağ məsələsinə münasibətinə tədqiqatda geniş yer verilmiş, bununla yanaşı, hadisələrə xalq diplomatiyası nöqteyi-nəzərindən yanaşılmışdır.

1991-ci ildən İkinci Qarabağ müharibəsinə qədər olan dövr ərzində, Rusiya Federasiyası başda olmaqla, region ölkələrinin sərgilədiyi münasibət, siyasi dəyişiklik və yanaşmalar, eləcə də ABŞ-ın, Fransanın, İranın müharibədən əvvəl və müharibə vaxtı apardığı diplomatik fəaliyyət də kitabın tədqiqat mövzusuna daxil edilmişdir.

Həmçinin ictimaiyyətdə böyük rezonans doğurmuş "10 noyabr bəyanatı", onun nəticələri, eləcə də icrası zamanı qarşıya çıxan çətinliklər əsərdə obyektiv şəkildə şərh edilmiş, yaranacaq yeni imkanlara xüsusi diqqət yetirilmişdir.

Kitaba Türkiyə–Azərbaycan strateji əməkdaşlığı haqqında xüsusi fəsil də əlavə olunmuş, iki qardaş ölkənin birlikdə gələcəkdə hansı yeniliklərə imza ata biləcəyi ilə bağlı proqnozlar verilmişdir.

Əsərin son fəslində Qarabağ zəfərinin yaratdığı qlobal əks-sədaya geniş yer ayrılmışdır. Diplomatiya və media aləmində Qarabağ münaqişəsinə münasibət, müharibə vaxtı təbliğat xarakterli yayınlar, xüsusən Ermənistan tərəfindən aparılan dezinformasiya axını və saxta xəbərlər təsnifləndirilmişdir.

Qafqazın ən önəmli ölkəsi olan Azərbaycanın çox qısa müddət ərzində həm siyasi, həm də ictimai cəhətdən güclü bir dövlətə çevrilməsi, təbii ki, dünyanın nəzərindən yayınmamışdır.

Yaxın keçmişdə baş verən müharibəyə, Qarabağdan didərgin düşmüş 1 milyon məcburi köçkünə, eləcə də əsrlər boyu yaşadıqları hazırki Ermənistan ərazisindən – ana vətənlərindən qovularaq qaçqın düşmüş 250 mindən çox azərbaycanlının problemlərinə və bütün təzyiqlərə baxmayaraq iqtisadiyyatını dirçəldən, qısa müddətdə parlaq və güclü bir ordu yaradan Azərbaycan Respublikası Türkiyə ilə möhkəm əlaqələri davam etdirməklə gələcəkdə də regionun əsas söz sahibi olmağa davam edəcəkdir.

Azərbaycan regiondakı beynəlxalq enerji layihələrinin əsas tərəfi qismində, həmçinin Cənubi Qafqazda yeni yaradılan geosiyasi balansın əsasını təşkil edən strateji və dominant ölkə kimi Türkiyə ilə bərabər, region ölkələrinin də iqtisadi rifahının təminatçısı olacaq 3+3 formatında Avrasiya marşrutunun canlandırılmasında da liderliyi üzərinə götürüb.

Azərbaycanın qısa müddətdə qazandığı böyük zəfər, xalqın sevinci və Türkiyə ilə gün-gündən daha da artan qardaşlıq duyğusu Qarabağın gələcəyini də əvvəlcədən müəyyənləşdirmişdir. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi çevik investisiyalar, erməni vandalizminə məruz qalmış şəhər və kəndlərin yenidən canlanması Qafqazdakı digər xalqların da ümidlərini artıracaq və onlar da yollarını Azərbaycandan salacaqlar.

Zəngəzur dəhlizi sadəcə Türkiyə və Azərbaycan üçün deyil, həm də region və Avropa üçün böyük əhəmiyyət daşıyacaqdır. Enerji və nəqliyyat yollarının qədim, tarixi marşrutdan keçməsi, Türkiyənin Azərbaycanla torpaq yolu ilə əlaqəsi ticarəti də canlandıracaq və regionda yaşayan xalqlar üçün daha səmərəli iqtisadi zona yaradacaqdır.

Şübhəsiz ki, dünya və regional coğrafiyada mühüm geosiyasi mövqeyə malik olan, yeraltı və yerüstü sərvətləri ilə geostrateji əhəmiyyət daşıyan Azərbaycan və Türkiyənin uzun müddət əmin-amanlıq, təhlükəsizlik, sabitlik içində mehriban yaşaması, müstəqilliyini və gələcəyini qoruması həm daxildə, həm də xaricdə güclü olması ilə əlaqədardır.

Hər iki ölkənin nümayiş etdirdiyi qardaşlıq və həmrəylik ruhu ötəri olmayıb, əsrlərdən bəri davam edən qardaşlığın və bir-biri üçün "gözün ağı və qarası" olmuş iki qardaş xalqın – "bir millət, iki dövlət" iradəsinin təntənəsidir. Bu səmimi birlik, söylədiyimiz kimi, region və qonşu dövlətlərlə sülhü təmin edəcək, düşmənlərin mənfur niyyətini puç edəcəkdir.

Türkiyə və Azərbaycan XXI əsrdə regionda və dünyada güclü dövlət olmaq hədəfinə doğru birlikdə qətiyyətli addımlar atır.

İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə "bir millət, iki dövlət" ədalətə və qanunlara əsaslanaraq, real və sülh içində regional təhlükəsizlik siyasəti ilə bu hədəfə doğru əmin addımlarla irəliləməkdədir.

Bu tədqiqatda da pərdəarxası məsələlərdən başqa, hər iki dövlətin qərarlı siyasəti, həlledilməz hesab olunan Qarabağ problеminin qısa müddət ərzində həll edilməsi, hətta müharibənin başlamasına baxmayaraq sülh üçün zəmin hazırlanması məsələlərinə toxunulmuşdur.

Qarabağ zəfəri alınmaz hesab edilən Şuşanın Azərbaycanın xüsusi təyinatlı qüvvələri tərəfindən geri alınması ilə təmin edilmişdir.

8 noyabr 2020-ci ilə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuş Şuşa şəhəri azad edildikdən sonra Ali Baş Komandan İlham Əliyevin xalqa xitabındakı "Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. "8 noyabr 2020-ci il" Azərbaycan tarixində əbədi olaraq qalacaq. Bu bizim şanlı Zəfər Günümüzdür" sözləri Azərbaycanın zəfərinin bütün dünyaya elanı oldu.

Müharibə əsgərlərimiz kimi evində yatan bir çox günahsız insanların da, küçədə oynayan məsum uşaqların da, beşikdə yatan, mələyə çevrilən körpələrin də həyatına son qoydu. Vətən torpaqlarını işğaldan azad edən zaman həyatını itirən bütün şəhidlərimizi rəhmətlə, qazilərimizi isə minnətdarlıqla yad edirik.

44 gün davam edən Qarabağ müharibəsindən sonra Azərbaycan və Türkiyə dövlət başçıları tərəfindən Ermənistana çağırışlar edildi, onlara erməni diasporunun zəhərindən təmizlənmək şərti ilə regionun iqtisadi inkişaf layihələrində yer almaq təklif olundu.

Cənubi Qafqazda yeni perspektivlərin yaranması ilə Türkiyə və Azərbaycanın liderliyi altında regional inkişaf haqqında danışmaq müharibə mövzusundan daha maraqlı deyilmi?

Bu kitabın məqsədi Azərbaycan ordusunun qəhrəmanlığı sayəsində otuzillik problemin 44 günə həll olunduğu İkinci Qarabağ müharibəsinin pərdəarxasındakı hadisələrini anlatmaqdır.

Sülh hər zaman müharibədən yaxşıdır. 44 günlük Qarabağ müharibəsi zamanı istər Azərbaycanın, istərsə də Türkiyənin heç kimin torpağında gözü olmadığı dəfələrlə ifadə edildi. Bu müddət ərzində ərazi bütövlüyümüzə heç kimin müdaxilə etməsinə yol verməyəcəyimiz də çox aydın şəkildə bəyan olundu.

Bu kitab torpağı uğrunda ədalətli mübarizəsini otuz il ərzində sülh yolu ilə hüquq müstəvisində həll etməyə çalışan, fəqət hər dəfə laqeydliklə qarşılaşan və yalnız müharibə yolunu tutmağa məcbur edilən can qardaşımız Azərbaycanın zəfər hekayəsinin akademik ifadəsidir.

Bu kitab 44 günlük müharibədə "bir millət, iki dövlət" fəlsəfəsi ilə Azərbaycanla birgə hərəkət edən Türkiyə dövlətinin apardığı düzgün siyasət sayəsində bölgədə yaranan yeni bir tarazlığın elmi ifadəsidir. Tarixi nöqteyi-nəzərdən və gələcək elmi işlər üçün material baxımından hazırkı tədqiqat çox əhəmiyyətlidir.

Türkiyə Prezident Administrasiyasının sözçüsü, səlahiyyətli səfir cənab İbrahim Kalının "Qarabağ zəfərinin hekayəsi mütləq yazılmalıdır" sözləri məni hazırkı işə təşviq etdi. Bununla yanaşı, cənab Kalının heyətindən Tuba Nur Sönməz, Nədim Emin, Əli Yasin Sərdar, Asiyə Bilgin və Orxan Karaoğluna əsərin hazırlanmasına köməklik göstərdikləri üçün təşəkkür edirəm.

TADİV rəsmi sənədində yer alan "fondun məqsədi Türkiyə başda olmaqla türkdilli ölkələrdə, bölgələrdə və bütün dünyada sülhün bərqərar olmasına, insan haqları və demokratiyanın inkişafı üçün lazımi işlərin görülməsinə, Türkiyə və Azərbaycan arasında mədəni, sosial və iqtisadi əlaqələrin güclənməsinə çalışmaq" ifadəsini əldə şüar tutaraq biz də Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin liderliyi altında qəhrəman Azərbaycan ordusunun, işğal altındakı ata torpaqlarını bir an belə unutmadan azad etmək üçün hər cür fədakarlığa can atan Azərbaycan xalqının və "bir millət, iki dövlət" konsepsiyasına sadiq qalan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə iştirak etdikləri zəfər hekayəsini və qardaşlığın təsdiqi olan "44 günün pərdəarxası" kitabını hazırlayıb təqdim etməklə özümüzü xoşbəxt sayırıq.

**Professor Aygün Attar,**
Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və
Həmrəylik Fondunun (TADİV) prezidenti


Şuşa

# GİRİŞ

Azərbaycanın əzəli Qarabağ torpağına Ermənistanın göz dikməsi və ölkəyə qarşı ərazi iddiası irəli sürməsi iki ölkə arasında yüz ildir davam edən münaqişəni daha da dərinləşdirdi. Ermənistanın 1991-ci ildə başladığı yeni işğalçılıq siyasəti nəticəsində 20 minədək Azərbaycan əsgəri şəhid olmuş, bir milyondan çox insan yaşadıqları torpaqları tərk edərək köçkün həyatı sürməyə məcbur edilmişdir. Erməni quldurları tərəfindən başlanan Qarabağ münaqişəsi 26 fevral 1992-ci ildə törədilən Xocalı soyqırımı ilə yeni müstəviyə keçdi. Memorial İnsan Haqları Müdafiə Mərkəzi, Human Rights Watch, "The New York Times" qəzeti və "Time" jurnalının yazdığına görə, həmin cinayəti Sovet İttifaqının 366-cı motoatıcı diviziyası və Ermənistanın dəstəklədiyi erməni hərbi birləşmələri həyata keçirmişdir. Azərbaycan tərəfinin rəsmi məlumatlarına görə, Ermənistan tərəfindən törədilən soyqırım nəticəsində 106-sı qadın və 63-ü uşaq olmaqla ümumilikdə 613 Azərbaycan türkü həyatını itirmiş, min nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş və 150 nəfər itkin düşmüşdür[1].

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasında Azərbaycan Respublikasının suverenlik hüquqlarını təsbit edən 1993-cü il tarixli dörd qətnamə qəbul edildikdən sonra 1994-cü ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Fransa, Rusiya və ABŞ-ın həmsədrliyi ilə Minsk qrupunu yaradaraq hər iki ölkə arasında münaqişənin həlli üzrə fəaliyyətə başladı. 1992-94-cü illərdə Azərbaycan ilə Ermənistan arasında davam edən müharibə 1994-cü ilin 12 may tarixində imzalanan Bişkek protokolu ilə dayandırılsa da, münaqişə dondurulmuş vəziyyətdə saxlanılmışdı.

Uzun illər aparılan və heç bir nəticə verməyən danışıqların ardınca 29 noyabr 2007-ci ildə Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən Minsk qrupu həmsədrlərinə təqdim olunan sülh planı "Madrid prinsipləri" kimi Azərbaycan və Ermənistan arasındakı ixtilafın həlli üçün yol xəritəsinə çevrildi. Ancaq Minsk qrupunun fəaliyyəti əvvəlki illərdə olduğu kimi kifayət qədər təsirli olmadığından Qarabağ münaqişəsində heç bir uğur əldə olunmadı[2]. Beləliklə, Qarabağ məsələsi səmimiyyətdən uzaq diplomatik cəhdlərin kölgəsində yenə də problem olaraq qalmaqda davam etdi.

BMT-nin də "işğal" kimi göstərdiyi Dağlıq Qarabağ məsələsində Bakı işğala məruz qalan tərəf olmasına baxmayaraq ərazilərinin işğaldan azad edilməsi üçün daim danışıqlar yolunu tutmuş və bu məsələdə konstruktiv davranmışdır. İşğalçı tərəf Ermənistan isə bu müddət ərzində gərginliyi daim artırmış, münaqişənin həllinin qarşısını almış və bu məsələdə beynəlxalq hüququn prinsiplərinə saymazyana münasibət sərgiləmişdir. Otuz ilə yaxın müddət ərzində beynəlxalq güclər işğalın davam etməsinə göz yummuş, əhəmiyyətsiz diplomatik cəhdlərlə Azərbaycan xalqının iradəsinə etinasız yanaşmışdır.

ATƏT-in Minsk qrupunun Ermənistanın faktiki işğalçılıq əməlini görməməsi və prosesi bacardıqca uzatması nəticəsində 2020-ci ildə Ermənistan gərginliyi artıraraq Azərbaycana qarşı yeni hücumlar təşkil etmiş, Bakını qabaqlayıcı tədbirlər görməyə məcbur etmişdir. Bu prosesdə Azərbaycan bir tərəfdən münaqişənin diplomatik həlli yollarına üstünlük verməklə, digər tərəfdən müdafiə tədbirləri qismində Türkiyə Respublikası ilə sıx əməkdaşlığı davam etdirmişdir. İki ölkə arasında "bir millət, iki dövlət" prinsipi ilə formalaşan qardaşlıq telləri işğala qarşı güclü bir həmrəylik nümunəsi yaratdı.

Türkiyə Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində diplomatik yollarla həllinin zəruri olduğunu müxtəlif beynəlxalq platformalarda səsləndirmiş, Azərbaycan Respublikasına tam dəstəyini ifadə etmişdir. Sonuncu dəfə 2019-cu ilin sentyabr ayında Nyu-Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyasında çıxış edən Türkiyə Respub-

1 Murad N. Najafbayli, "Letter dated 24 February 2014 from the Permanent Representative of the Republic of Azerbaijan to the United Nations Office at Geneva addressed to the President of the Human Rights Council", A/HRC/25/G/14, 11 mart 2014.

2 Pınar Sayan, "Dağlık Karabağ'da Yeni Durum: Kapsayıcı Bir Barış İnşa Ermek", *İstanbul Politika Araştırmaları Enstitüsü*, noyabr 2020.



likasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dünyanın ədalətli və təhlükəsiz gələcəyi üçün Cənubi Qafqazda münaqişələrin həllinin vacibliyini qeyd etmiş, "Qəbul edilmiş qərarlara baxmayaraq Azərbaycan torpağı olan Dağlıq Qarabağın və ətraf rayonların hələ də işğal altında olması qəbuledilməz haldır" deyərək dünyanı Qarabağ məsələsində ədalətli həllə və əməkdaşlığa dəvət etmişdi[1]. Ancaq Ermənistan bütün sülh cəhdlərinə təcavüz və təxribatlarla cavab vermişdir. 2020-ci ilin 11 iyul gecəsi Ermənistan tərəfindən Tovuz rayonuna edilən hücum gərginliyi yenidən artırdı. Bu gərginlik 2020-ci ilin 27 sentyabrında Azərbaycan ilə Ermənistan arasında silahlı münaqişəyə çevrildi. Azərbaycanın silahlı qüvvələrinin güclü müqaviməti ilə qarşılaşan Ermənistan məğlubiyyətə uğradıqdan sonra, 10 noyabrda atəşkəs bəyanatını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan işğal altında olan torpaqlarını geri alaraq böyük bir zəfər əldə etdi.

Ermənistanın təcavüzkar əməlləri qarşısında Azərbaycanın haqlı mübarizəsini dəstəkləyən Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı dəfələrlə açıq mesajlar vermişdi. "Azərbaycana qarşı yeni hücumlar təşkil edən Ermənistan regionda sülhə və əmin-amanlığa qarşı ən böyük təhdid olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır" ifadəsi ilə Prezident Ərdoğan zəfərlə nəticələnən 44 günlük müharibədə Türkiyə Respublikasının üzərinə götürdüyü siyasi və diplomatik rolu nümayiş etdirdi[2]. Türkiyədən gələn dəstək mesajlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nüfuzlu xarici media nümayəndələrinə müsahibələri zamanı səsləndirmişdir. İlham Əliyev 44 günlük müharibənin qələbə ilə nəticələnməsinin, əsasən, Türkiyənin siyasi və mənəvi dəstəyi ilə mümkün olduğunu vurğulayaraq iki ölkə arasındakı strateji və tarixi münasibətlərin dərinliyinə diqqəti cəlb etmişdir. İlham Əliyev açıqlamasında "Bu bayram, bizdə olduğu kimi, qardaş Türkiyədə də qeyd edilir. Bu, təbiidir. Çünki biz bir millət, iki dövlətik. Bu günlərdə dəyərli qardaşım Rəcəb Tayyib Ərdoğana dəfələrlə təşəkkürümü bildirdim" deyərək Qarabağın Azərbaycan və Türkiyənin "ortaq qələbəsi" olduğunu vurğuladı.

Beynəlxalq aləmdə çox nadir nümunə olan "bir millət, iki dövlət" prinsipi ilə Türkiyə və Azərbaycan xalqı bir-biri ilə xüsusi münasibətlər modeli yaratdı. Tarixi və mədəni cəhətdən güclü kökləri olan iki ölkə xüsusən son iyirmi ildə siyasi, ictimai, iqtisadi və hərbi sahələrdə çoxşaxəli əlaqələri inkişaf etdirdi. Bu model hər iki ölkənin geosiyasi mövqeyi baxımından strateji güc birliyini təmsil etməklə regionda sülh və sabitlik üçün həyati əhəmiyyət daşıyır.

Hazırkı kitab iki qardaş ölkə və xalqın ortaq sevincini təmsil edən Qarabağ zəfərinin strateji miqyasını vurğulamağı qarşısına məqsəd qoyub. Bununla yanaşı, əsərin əsas məqsədi Qarabağın azad edildiyi 44 günlük zəfər müddətində yaşanan ciddi hadisələrin qeyd edilməsi və bu uğur hekayəsinin tarixin yaddaşına köçürməkdir.

Səkkiz əsas fəsildən ibarət kitabda, əsasən, Azərbaycan və Ermənistan arasında uzun illərdir davam edən münaqişənin tarixi və onun görünməyən tərəfləri işıqlandırılmışdır. Müəllif həmçinin 44 günün xronologiyasını verərək yaşanan əsas dəyişiklikləri günbəgün təsvir etmiş, mülki əhalini hədəf alan hücumların miqyası və Ermənistanın işğalçılıq siyasəti və təcavüzkarlığı qarşısında beynəlxalq ictimaiyyətin münasibətini əks etdirməyə çalışmışdır. Əsərin sonuncu fəslində 10 noyabr bəyanatının nəticələri və zəfərlə müjdələnmiş Türkiyə–Azərbaycan strateji əməkdaşlığı hərtərəfli tədqiq edilmiş, Qarabağ zəfərinin beynəlxalq ictimaiyyətdə doğurduğu rezonansa yer verilmişdir.

1 Adalet, ahlak ve vicdan temelinde yeniden yapılandırılacak bir Birleşmiş Milletler, insanlığa yeniden umut verecektir", Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Resmî Web Sitesi, 24 sentyabr 2019.

2 "Türkiye'nin manevi ve siyasi desteği zaferimizde büyük rol oynadı", *İhlas Haber Ajansı*, 11 noyabr 2020.



# İŞĞALIN QISA TARİXİ

İŞĞALIN İLK MƏRHƏLƏSİ: DEMOQRAFİK SİYASƏT

İŞĞAL PLANININ HƏYATA KEÇİRİLMƏSİ

DAĞLIQ QARABAĞIN İŞĞALI VƏ İŞGƏNCƏ FAKTLARI

DİPLOMATİK HƏLL YOLLARININ AXTARIŞI

# İŞĞALIN İLK MƏRHƏLƏSİ: DEMOQRAFİK SİYASƏT

Dağlıq Qarabağa görə Azərbaycan ilə Ermənistan arasında yaşanan gərginliyin pik nöqtəsi 1987–1994-cü illər, yəni Qarabağ münaqişəsinin başladığı dövr hesab olunsa da, məsələnin tarixi kökləri daha dərindədir. Azərbaycan ərazisinin 20%-ni təşkil edən Dağlıq Qarabağ və ətraf rayonların ermənilər tərəfindən işğalı prosesinə hələ XIX əsrdən başlandığı məlumdur. Ermənilər tərəfindən Dağlıq Qarabağ bölgəsinin demoqrafik istilası gələcəkdə ərazilərin işğalı istiqamətində ilk mərhələni təşkil edirdi.

Çar Rusiyası XIX əsrin başlanğıcında bölgədəki demoqrafik balansı pozan köç siyasətini tətbiq etməyə başladı. Müxtəlif bölgələrdən minlərlə ermənin köçürülməsinə baxmayaraq 1823-cü ildə Qarabağda əhalinin 22%-ni ermənilər, 78%-ni isə Azərbaycan türkləri təşkil edirdi. Hətta İrəvan Eçmiədzin, Yeni Bəyazit, Aleksandropol, Zəngəzur, Qazax-Dilican və Lori-Ləmbək qəzalarını əhatə edən və İrəvan quberniyasında yerləşən 2310 yaşayış məntəqəsindən 2000-nin türklərə mənsub olduğunu erməni alimi Z.R.Korkodyan[1] 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi" adlı kitabının 162-ci səhifəsində qeyd etmişdir. Daha sonra 1828-ci ildə İran ilə Rusiya arasında imzalanan Türkmənçay müqaviləsi və 1829-cu ildə Osmanlı dövləti ilə Rusiya arasında imzalanan Ədirnə müqaviləsindən sonra İrandan (40 min) və Anadoludan (90 min) köçürülən erməni əhali ilə regionun demoqrafik xəritəsi dəyişməyə başladı. Beləliklə, Rusiya regionda idarə olunması daha rahat olan yeni bir demoqrafik sistem yaratmağı qarşısına məqsəd qoymuşdu.

1 K.Korkodyan. *Sovet Ermənistanının* əhalisi, İrəvan, 1932, s. 162; С. Глинка. *Описание переселения армян азербайджанских в пределы России*, Москва, 1831, s. 115.





Osmanlı dövlətindən və İrandan gələn köçlərlə Qarabağ və Cənubi Qafqazın müxtəlif yerlərində erməni əhalisinin sayı artırıldı. Cənubi Qafqazda 1822–1826-cı illərdə ermənilər ümumi əhalinin 9,3%-ni təşkil edirdisə, 1916-cı ildə bu rəqəm 32,8%-ə çatmışdır. General İvan Fyodoroviç Paskeviçin 1827-ci ildə əlahiddə Qafqaz korpusunun baş komandanı təyin edilməsi Rusiyanın Qafqazda güclənməsini şərtləndirdi. Paskeviçin 1828-ci ilin 29 fevralında verdiyi qərarla ermənilər Azərbaycanın, xüsusən də İrəvan, Naxçıvan və qismən də Qarabağ xanlıqlarının ərazilərinə yerləşdirilmiş, yerli müsəlman əhali isə zorla yaşadıqları torpaqlardan sıxışdırılıb çıxarılmışdır[1]. Beləliklə, rusların demoqrafik siyasəti ilə Azərbaycan türkləri və ermənilər arasında XX əsrin əvvəllərindən başlayaraq bu günə qədər davam edən Qarabağ münaqişəsinin təməli qoyulmuşdur.

XX əsrdə Qafqazda yaşanan siyasi, ictimai və mədəni inkişaf, regionun demoqrafik quruluşunun Rusiyanın əli ilə dəyişdirilməsi əslində bütöv bir regionun tarixi ilə yaxından bağlı idi. Bu gün keçmişdən "miras qalmış" regional münaqişələrin kökünü öyrənmədən gələcəyi haqqında möhkəm zəmin hazırlamaq mümkün deyil.

1 Hayri Çapraz, "19. Yüzyılda Rusya'nın Karabağ Politikası", *Belgi*, sayı 3, Kış 2012/I, s. 238.

2 Aygün Attar Haşimzade, *Karabağ Sorunu Kapsamında Ermeniler ve Ermeni Siyaseti*, Atatürk Araştırma Merkezi, Ankara, 2012, s. 48.



XOCALI SOYQIRIMI VƏ QAÇQIN HƏYATI

XX əsrin əvvəllərində Qafqazın ən önəmli ölkəsi olan və əsasən türklərin yaşadığı Azərbaycan 1918-ci ildə Şərqin ilk respublikasını yaratdı. Ancaq bu tarixdən 23 ay sonra 1920-ci ildə Azərbaycanın məruz qaldığı işğal ciddi fəsadlara səbəb oldu. Öz adət-ənənəsi olan Azərbaycan xalqı o ərəfədə mənimsəməyə məcbur qaldığı yeni dəyərlərə münasibət göstərməyə fürsət tapa bilmədi. Belə ki, ölkə işğal edilmişdi. Buna görə Qafqazdakı tarixi hadisələrlə bağlı SSRİ-nin paytaxtında verilirdi. 30 dekabr 1922-ci ildə yaradılan Sovet İttifaqı regionun tarixinə ciddi təsir edirdi.

1920-ci ilin 30 aprelində Azərbaycan Sovet Sosialist Respublikası, "Qarabağ və Zəngəzur torpaqlarından ordularınızı çıxarın. Öz sərhədləriniz daxilinə qayıdın. Millətlər arasındakı düşmənçiliyə son qoyun. Əks halda Azərbaycan Sovet Sosialist Respublikasının İnqilab Komitəsi Ermənistan Respublikası ilə müharibə etmək məcburiyyətindədir[1] "ifadələrinin yer aldığı bir notanı Ermənistan daşnak hökumətinə göndərərək işğal cəhdinə reaksiyasını aydın şəkildə göstərmişdi. Ermənistan "yenidənqurma"dan sonrakı dövrdə xaosdan istifadə edərək Qarabağ və ətraf yeddi rayonu işğal etdi. Uzun illər bütün dünyanın gözü qarşısında beynəlxalq hüquqa məhəl qoymayan Ermənistan Azərbaycan torpaqlarının 20%-ni təşkil edən Qarabağın işğalına davam etdi.

1989-cu ildə Rusiyanın demoqrafik manipulyasiyaları türklərin yurdu Qarabağda Azərbaycan türklərinin azlıqda qalmasına hesablanmışdı. Erməni millətçiləri 200 ildir "Böyük Ermənistan" xəyalı ilə təzyiq, işgəncə və etnik təmizləmə kimi davranışlarla Azərbaycan xalqına zülm edərək onları qədim ata-baba torpaqlarından didərgin düşməyə məcbur etdi.

SSRİ-nin süqutundan və Azərbaycan ərazilərinin rusların dəstəklədiyi Ermənistan tərəfindən işğal edilməsindən sonra Dağlıq Qarabağ və ətraf yeddi rayondan azərbaycanlı türk əhali didərgin salındı. Nəticədə işğalçı Ermənistan tərəfindən zorla yurd-yuvasından edilən bir milyondan çox Azərbaycan türkü doğulduqları torpaqları tərk etmək məcburiyyətində qaldı.

1 *"Kommunist" qəzeti*, 1 may 1920, Bakı.





# İŞĞAL PLANININ HƏYATA KEÇİRİLMƏSİ

Rusiyanın İrandakı səfiri A.S.Qriboyedov Rusiyanın regionla əlaqədar yürütdüyü siyasəti öz gündəliyində belə təsvir edir: "Bizim ədalətsiz şəkildə davam etdirdiyimiz müharibələr (Rusiya–İran, Rusiya–Osmanlı) bitdikdən sonra öz sərhədlərimizi düşmənlərinkindən ayıraraq düşmən hesab etdiklərimizi sərhədlərimiz xaricinə çıxardıq[1]".

Sovet İttifaqı yaradıldıqdan sonra 1923-cü ildə Qarabağ Azərbaycana bağlı muxtar qurum şəklində qalmışdı. 7 iyul 1923-cü il tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi qərarla Azərbaycan Sovet Sosialist Respublikası (Az.SSR) daxilindəki Dağlıq Qarabağ regionuna "muxtariyyət" statusu verildi. Mixail Qorbaçov dönəmində, yəni ittifaqın son illərində regionun statusu problem kimi yenidən aktuallaşdı və ermənilər Dağlıq Qarabağın statusu məsələsini ortaya ataraq ərazi iddiası irəli sürdülər. İttifaqın Ermənistan lehinə siyasət yürütməsi, üstəlik regiondakı ermənilərin zorakı davranışı sonrakı illərdə Dağlıq Qarabağda yaşanacaq münaqişəni alovlandırdı[2].

Ötən əsrin 60-cı illərində Sovet İttifaqı xaricdəki ermənilərin Ermənistana səfər etməsinə, hətta gənclərin universitetlərdə təhsil almasına icazə verdi. Erməni diasporu ilə SSRİ-də yaşayan ermənilərin birləşməsi 24 aprel 1965-ci ildən sonra aqressiv erməni millətçiliyinin vüsət almasına səbəb oldu. İrəvan küçələrində təşkil edilən böyük nümayişlərdə açıq şəkildə türk düşmənliyi və torpaq tələbləri, Qarabağ və Naxçıvanın ermənilərə aid olduğu şüarları səslənməyə başladı.

1 Aggün Attar, Karabağ Sorunu Kapsamında Ermeniler ve Ermeni Siyaseti, *Atatürk Araştırmalar Merkezi*, Ankara, 2012 s. 49; И. Ениколопов. *Грибоедов и Восток*. Ереван, 1955, s. 80.

2 Mehmet Çağatay Güler, "Tovuz Sınırında Azerbaycan ile Ermenistan Arasında Yaşanan Çatışma ve Arka Planı", *SETA-Perspektif*, sayı 292, s. 1-2.

Dağlıq Qarabağ məsələsi 1980-ci illərdə elə bir səviyyəyə gəlmişdi ki, artıq müharibənin qaçılmaz olduğu hiss olunurdu. 1981-ci il 16 iyun tarixində Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qanunla "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin hüquqi sərhədləri müəyyənləşdirildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxtlarda ermənilərin Azərbaycana qarşı torpaq iddialarının gerçəkləşməsinə imkan verilmədi. Heydər Əliyev 1987-ci ildə vəzifəsindən istefa verdikdən sonra ermənilər Dağlıq Qarabağla bağlı tələblərini açıq şəkildə dilə gətirməyə başladılar. 20 fevral 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan ayrılaraq Ermənistana birləşmək istəyi barədə müraciət Azərbaycan, Ermənistan və SSRİ Ali Sovetinə təqdim edildi və bununla işğalın ilk siqnalları verilmiş oldu. Azərbaycanın bu qərarı rədd etməsi və ölkədə bu qərara etiraz mitinqlərinin və nümayişlərinin artması fonunda ermənilərin Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyində israr etməsi rəsmi Bakını qəzəbləndirdi. Belə bir gərgin dövrdə Sovet İttifaqının dəstəyinə arxayın olan Ermənistan 1988-ci il iyunun 15-də Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar verərək münaqişəni daha da dərinləşdirdi. 1989-cu il dekabr ayının 1-də Ermənistan Ali Sovetinin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqda qərar verməsi ilə münaqişə yeni mərhələyə keçdi.

Dağlıq Qarabağ bölgəsində başlayan münaqişə 1990-cı ilə qədər davam etdi. Azərbaycanın Dağlıq Qarabağ məsələsindəki ciddi mövqe tutduğunu görən SSRİ regiona nəzarəti itirməmək üçün 1990-cı il yanvar 20-də öz silahlı birləşmələrini Bakıya yeritdi. Ermənistanın Azərbaycana qarşı təcavüzkar münasibətinə laqeyd qalan SSRİ-nin bu müdaxiləsi azərbaycanlıların hadisələrə qarşı si-



AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV







XOCALI SOYQIRIMI

lahsız etirazlarını yatırtmaq məqsədi daşıyırdı[1]. Bu məsələdə ikili standartlara əsaslanan SSRİ-nin açıq müdaxiləsindən sonra Qarabağ məsələsi böyük bir münaqişəyə çevrildi. 10 dekabr 1991-ci il tarixində qondarma "Dağlıq Qarabağ hökuməti" referendum keçirərək Azərbaycandan ayrıldığını elan etdi. Azərbaycan bu referendumu boykot etdi. İttifaqın dağılması ilə 1991-ci ilin 30 avqustunda müstəqilliyini "yenidən qazandığını" elan edən Azərbaycan, 1991-ci ilin 18 oktyabr tarixində "Dövlət müstəqilliyi haqqında" konstitusiya aktını qəbul etdi. Sentyabrın 21-də isə Ermənistan müstəqilliyini elan etdi.

Sovet İttifaqının süqut etdiyi 1991-ci ildən etibarən Qarabağın Ermənistan tərəfindən işğalı ilə Azərbaycan və Ermənistan arasında müharibə başladı. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl rayonları 1992-94-cü illərdə Ermənistan tərəfindən işğal edildi.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1991–1992-ci illərdə başlayan müharibə ilə əlaqədar 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etdi. Beləliklə, bütün işğalçı qüvvələrin işğal edilmiş Azərbaycan torpaqlarından dərhal geri çəkilməsi tələb olundu. Ancaq Ermənistan BMT TŞ qətnamələrinə əməl etmədi.

1994-cü ilin 12 may tarixində Rusiya Federasiyasının vasitəçiliyi ilə tərəflər arasında qeyri-rəsmi atəşkəs müqaviləsi bağlandı[2].

1 Alec Rasizade, "Azerbaijan's Prospects in Nagorno-Karabakh", *The Journal of International Issues*, Vol. 15, No. 2 (aprel-iyun), 2011 s. 146-147.

2 Alec Rasizade, "Azerbaijan's Prospects in Nagorno-Karabakh", s. 151.

# DAĞLIQ QARABAĞIN İŞĞALI VƏ İŞGƏNCƏ FAKTLARI

Yenidənqurma və Qorbaçovun ikili standartından istifadə edən ermənilər 1991-ci ilin dekabr ayında Qarabağın Xankəndi şəhərini işğal etdilər [1]. Ermənistan bölgədəki yeganə hava limanının yerləşdiyi və strateji əhəmiyyət daşıyan Xocalı şəhərini ələ keçirmək üçün heç nədən çəkinmədi. Erməni silahlı dəstələrinin mühasirəyə aldığı Xocalı 936 kv. km əraziyə malik, 2605 ailənin yaşadığı 7 min əhalisi olan qəsəbə idi. Xocalı ətrafındakı bütün kənd və yolları bir-bir ələ keçirən erməni quldurları qəsəbənin başqa rayonlarla quru əlaqələrini kəsdilər. Xocalının yeganə əlaqəsi hava yolu idi. Bu əlaqə 1992-ci ilin 28 yanvarında Şuşa–Ağdam marşrutu üzrə hərəkət edən helikopterin ermənilər tərəfindən vurulması ilə kəsildi.

Qanlı hadisədə qadın və uşaqlardan ibarət olan 44 mülki şəxs həlak oldu. 1992-ci ilin fevralın 25-dən başlayaraq Xocalıya hücum edən erməni silahlıları sovet ordusunun 366-cı motoatıcı diviziyasının bütün texnikasından istifadə edərək, şəhəri iki saat ərzində top və tank atəşinə tutaraq böyük bir soyqırımına zəmin hazırladı. Hücumun ertəsi günü ermənilər bəşəriyyət tarixinə qara bir ləkə olan "Xocalı soyqırımı"nı həyata keçirdilər. Bu qırğından xilas olanlar isə Əsgəran rayonunda ermənilər tərəfindən güllələnərək[2] öldürüldü.

Rəsmi statistikaya görə, Xocalı soyqırımında 106-sı qadın və 63-ü uşaq olmaqla 613 silahsız mülki Azərbaycan türkü qətlə yetirildi. 487 nəfər ağır yaralandı, 1275 nəfər əsir götürüldü. Bu əsirlərin 150-si ilə bağlı bu günə qədər də heç bir xəbər yoxdur. Soyqırımda 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi [3].

1 Aygün Attar, "Milli Kimliğin Siyasallaşan Yüzü: Difâî", *Belleten*, aprel 2008, sayı 263, s. 175-192.

2 Elşad Eyvazlı, "Hocalı Katliamı'na Giden Süreç ve Türk Basınında Hocalı Katliamı", *Avrasya İncelemeleri Dergisi*, VIII/2, 2019, s. 159-160.

3 Ruslan Rehimov, "Hocalı Katliamı'nın tanığı Ermenilerin vahşetini ve yaşadığı işkenceleri unutamıyor", *Anadolu Ajansı*, 25 yanvar 2020.







XOCALI SOYQIRIMINDA QƏTLƏ YETİRİLMİŞ UŞAQLAR

Bəzi müşahidəçilər Xocalıda öldürülənlərin sayının rəsmi rəqəmlərdən daha çox olduğunu bildirir. Dolayısı ilə bəzi mənbələrdə Xocalı soyqırımında öldürülən mülki şəxslərin sayının 500-1000 nəfər olduğu yazılır [1]. Soyqırımdan sonra Xocalı rayonu ermənilərin nəzarətinə keçdiyi üçün bu sayı dəqiqləşdirmək mümkün deyildi[2]. Qətlə yetirilən mülki şəxslərin sayının gizlədildiyi şübhə doğurmur.

1993–1994-cü illərdə baş verən qarşıdurmalarda təxminən 25 min insan həlak oldu, bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin düşdü. Döyüşlər zamanı təkcə Qarabağ və ətraf rayonlardan 750 min Azərbaycan türkü öz yurdunu tərk etməyə məcbur oldu. Bundan başqa, 1988–1992-ci illərdə Ermənistanda yaşayan 250 mindən çox Azərbaycan türkü təzyiq və işgəncələrə məruz qalmış, torpaqları əllərindən alınmış və yurd-yuvalarından qaçqın düşərək Azərbaycan ərazisində məskunlaşmağa məcbur edilmişdi.

1 Yücel Acer, "Ermenistan'ın Savaş Suçları-Uluslararası Hukuk ve Ermenistan'ın Karabağ'a Dair Askerî Faaliyetleri", *SETA-Analiz*, oktyabr 2020, sayı 337, s. 8; *Seven Years of Conflict in Nagorno-Karabakh*, The Human Rights Watch Report, Azerbaijan, 1994, s. 6.

2 *Seven Years of Conflict in Nagorno-Karabakh*, s. 7






# DİPLOMATİK HƏLL YOLLARININ AXTARIŞI

Azərbaycanla Ermənistan arasında 1980-ci illərin ikinci yarısından başlayan və Qarabağın Ermənistan tərəfindən işğalı ilə alovlanan münaqişəni Rusiya həll edə bilmədi. Buna görə də yeni diplomatik həll yollarının axtarılmasına başlanıldı.

Dağlıq Qarabağ böhranının həlli üçün 24 mart 1992-ci ildə ATƏT çərçivəsində Azərbaycan və Ermənistanın, o cümlədən Türkiyə, ABŞ, Rusiya Federasiyası, Fransa, Belarus, Almaniya, İtaliya, İsveç və Finlandiyanın iştirakı ilə Minsk qrupu yaradıldı. Yekun bəyannamənin 3-cü və 11-ci maddələrinə əsasən Belarusun paytaxtı Minskdə problemin həlli üçün konfrans keçirilməsi qərara alındı. ATƏT üçlüyü də Minsk qrupunun üzvü sayılırdı. 1994-cü il dekabrın 6-da Budapeşt sammitində ATƏT-in Minsk qrupu üçün həmsədrlik institutlarının yaradılması, ABŞ, Fransa və Rusiyanın həmsədr ölkələr qismində fəaliyyət göstərməsi qərara alındı. Minsk üçlüyü adlanan bu qrupun həmsədrlərinin vəzifə öhdəliklərinə Dağlıq Qarabağ böhranının tərəfləri olan Azərbaycan və Ermənistan da daxil olmaqla bütün əlaqədar ölkə və qurumlarla görüşlər keçirmək və Minsk qrupunu məlumatlandırmaq daxil idi.

Azərbaycanla Ermənistan arasında silahlı münaqişəyə son qoymaq üçün 1994-cü il mayın 12-də qüvvəyə minmiş Bişkek protokolunun imzalanmasından 26 il keçməsinə baxmayaraq problemin həllində irəliləyiş olmadı və bölgədə silah səsləri hələ də davam etməkdə idi[1].

Minsk qrupu çərçivəsində tərəflərə ötən əsrin 90-cı illərindən bu günə qədər müxtəlif həll yolları təklif edilsə də, nəticə əldə olunmamışdır. Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə 2004-cü il aprelin 16-da Praqada Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri Elmar Məmmədyarov və Vardan Oskanyan arasında görüş keçirilərək Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə yeni danışıqlar prosesinə başlanıldı. Praqa görüşü münaqişənin həlli üzrə mühüm bir addım idi və Minsk qrupu həmsədrləri 2007-ci ilin noyabrında Madriddə tərəflərə təməl prinsiplər sənədini təklif etdilər. 2009-cu

1 Aygün Attar, *A Problem of Modernity ARMENIANISM*, SZGR Jovan Antic, Belgrad, 2019, s. 256.

ildə yenilənmiş və Madrid prinsipləri adlanan bu sənədə aşağıdakı maddələr daxil idi:

– Dağlıq Qarabağı əhatə edən ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması;

– Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarəetmə üçün zəmanət verən müvəqqəti statusun verilməsi;

– Ermənistanı Dağlıq Qarabağa bağlayan dəhlizin (Laçın dəhlizi) ayrılması;

– gələcəkdə Dağlıq Qarabağın yekun hüquqi statusunun qanuni məcburi iradə ifadəsi ilə müəyyənləşdirilməsi;

– məcburi köçkünlərin və qaçqınların əvvəlki yaşayış yerlərinə qaytarılması;

– sülhün qorunması da daxil olmaqla beynəlxalq təhlükəsizlik zəmanətləri.

1997-ci ilin iyununda Bill Klinton administrasiyasında dövlət katibinin müavini işləmiş Stroub Talbott Bakıya səfəri zamanı Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını tələb etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Ermənistan Respublikasının Prezidenti Robert Köçəryanın 1999-cu ildən birbaşa danışıqları başlamışdır. 1999-cu il oktyabrın 27-də bir qrup silahlı şəxsin Ermənistan parlamentinə hücumu nəticəsində Baş nazirlə parlamentin sədri də daxil olmaqla 8 yüksək rütbəli şəxs qətlə yetirildi. Bu hadisə İrəvanda böyük sarsıntı yaradaraq Dağlıq Qarabağ probleminin həllinə həvəsli görünən Köçəryanı da geri çəkilməyə məcbur etdi. İlham Əliyev və Köçəryan 4-5 mart 2001-ci ildə Fransa Prezidenti Jak Şirakın vasitəçiliyi ilə Parisdə görüşdülər. Müsbət məcrada keçən Paris sammiti həm Ermənistanda, həm də Azərbaycan və Türkiyə mətbuatında böyük rezonans doğurdu. Bundan dərhal sonra ABŞ-ın dövlət katibi Kolin Pauel danışıqları yekunlaşdırmaq üçün hər iki lideri ölkəsinə dəvət etdi. İlham Əliyev və Köçəryanın, o cümlədən Minsk qrupu həmsədrlərinin, eləcə də Qarabağ məsələsi ilə əlaqədar digər şəxslərin iştirak etdiyi danışıqlar 3-7 aprel 2001-ci ildə ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində baş tutdu. Liderlərin rəsmi olaraq görüşmədiyi Ki-Uest danışıqlarında razılığa böyük ümid var idi. Ancaq bu danışıqlarda da gözlənilən nəticə əldə olunmadı. Digər tərəfdən, Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyevlə Sarkisyanın 2009-cu ilin mayında Minsk qrupunun vasitəçiliyi ilə Praqada, həmin ilin iyulunda isə[1] Moskvada görüşməsinə baxmayaraq danışıqlar heç bir konkret nəticə vermədi.


HEYDƏR ƏLİYEV VƏ ROBERT KÖÇƏRYANIN PARİSDƏKİ GÖRÜŞÜ

2016-cı ilin aprelində Ermənistanın atəşkəs rejimini dəfələrlə pozması nəticəsində Azərbaycan–Ermənistan təmas xəttində "4 günlük müharibə" adlanan irimiqyaslı münaqişə baş verdi və bu münaqişə nəticəsində Azərbaycan ilk dəfə işğal altındakı ərazilərinin kiçik bir qismini azad etdi[2].

27-28 sentyabr 2018-ci ildə Düşənbədə Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş oldu. Bu görüşdə atəşkəsin qorunması üçün iki ölkə arasında birbaşa əlaqələrin qurulması üzrə razılığın əldə edildiyi açıqlansa da, növbəti dialoq imkanları istisna olmaqla, əslində, heç bir irəliləyiş əldə edilmədi. Elə həmin il Sankt-Peterburqda keçirilən Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iki ölkə lideri arasında girovların dəyişdirilməsi məsələsi müzakirə olunsa da, hər hansı razılaşma əldə olunmadı. Hər iki liderin 22 yanvar 2019-cu ildə Davos İqtisadi Forumu çərçivəsində görüşü də nəticəsiz qaldı.

İki ölkə liderinin 2019-cu il martın 29-da Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Vyanada – altı ayda dördüncü dəfə təkbətək görüşü Qarabağ münaqişəsinin həllinə ümidləri artırdı. Lakin həmin ilin mart ayında danışıqlar aparılarkən Ermənistanın müdafiə naziri David Tonoyanın "yeni torpaqlar uğrunda yeni müharibə" strategiyasını elan etməsi ilə dialoq cəhdləri yenidən dayandırıldı. Bu bəyanatlarla öz ekspansionist siyasətindən əl çəkmədiyini göstərən Ermənistan rəhbərliyi Dağlıq Qarabağın işğalı ilə əlaqədar 30 ildir davam edən böhranın sülh yolu ilə həlli gözləntilərini puç etdi.

5 avqust 2019-cu ildə Ermənistanın baş naziri Paşinyan Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində sülh prosesinə kölgə salacaq "Ümumermənі oyunları"nın açılışı zamanı təxribat xarakterli çıxış etdi. Paşinyanın çıxış zamanı "Qarabağ Ermənistandır. Nöqtə. Heç bir qeyd-şərtsiz" ifadələri Azərbaycanda böyük əks-səda doğurdu[3]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə 3 oktyabr 2019-cu il tarixində Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı iclasında çıxışı zamanı: "Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!" – deyə cavab vermişdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 24 sentyabr 2019-cu il tarixində BMT Baş Assambleyasının 74-cü sessiyasındakı çıxışı zamanı: "Dünyamızın ədalətli və dinc gələcəyi üçün başqa bir mövzu Cənubi Qafqazı dünyanın problemli regionu olmaqdan azad etməkdir. Qəbul edilən qətnamələrə baxmayaraq Azərbaycan ərazisi olan Dağlıq Qarabağ və onun ətraf rayonlarının hələ də işğal altında qalması qəbuledilməzdir!" – deyərək Dağlıq Qarabağın işğal faktını xüsusi şəkildə vurğulamışdır. Prezident Ərdoğan Dağlıq Qarabağ məsələsini BMT tribunasından səsləndir-

1 Mehmet Fatih Öztarsu, "Dağlık Karabağ Sorunu: Çözüm Arayışlarında Minsk Grubu ve Bölgesel Aktörlerin Rolü", *Barışı Konuşmak: Teori ve Pratikte Çatışma Yönetimi* içinde, ed. Nezir Akyeşilmen, ODTÜ Yayıncılık, 2012, s. 251.

2 "4 Gün Savaşı ve Bölgesel Dengeler", *DW*, 6 aprel 2016.

3 Alin Ozinian, "Hamahaygagan Karabağ'da başladı", *AGOS*, 9 avqust 2019.



PREZİDENT ƏRDOĞAN, BMT BAŞ ASSAMBLEYASI, 2019-cu il

məklə Türkiyənin məsələyə olan həssaslığını ən yüksək səviyyədə beynəlxalq ictimaiyyətə çatdırmışdır. 29-30 yanvar 2020-ci il tarixlərində ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi altında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Bratislavada görüşdülər. Minsk qrupunun nümayəndə heyəti 2 mart 2020-ci ildə Türkiyəyə də səfər etmişdir. "COVID-19" epidemiyası ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupunun həmsədrləri ilə görüşləri telekörpü vasitəsilə davam etdirilmişdir.

14-16 fevral 2020-ci il tarixlərində Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə tarixdə ilk dəfə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ictimaiyyət qarşısında panel müzakirələr keçirilmişdir. Soyuq küləklərin əsdiyi gərgin panel müzakirələri zamanı İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Ermənistana beynəlxalq təzyiqin daha da artırılmasının vacibliyini vurğulamışdır. Paneldə Xocalı soyqırımı da geniş müzakirə olunmuşdur[1]. Bundan başqa, İlham Əliyev Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında olduğunu və 1 milyondan çox azərbaycanlının öz torpaqlarını tərk etmək məcburiyyətində qaldığını xatırladaraq Azərbaycan xalqına qarşı etnik təmizləmənin aparıldığını diqqətə çatdırmışdır.

1 Araz Aslanlı, "Hocalı Soykırımı ve Münih'teki Aliyev-Paşinyan Tartışması", *Anadolu Ajansı-Analiz, 26 fevral 2020.*





İLHAM ƏLİYEV VƏ NİKOL PAŞİNYAN 2020-ci il MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ APARILAN PANEL MÜZAKİRƏLƏRDƏ

31 mart və 14 aprel tarixlərində Qarabağdakı qondarma erməni hökuməti dünyada koronavirus infeksiyasının yayıldığı çətin bir zamanda pandemiyanı bəhanə gətirməklə prezident seçkiləri keçirərək beynəlxalq qalmaqala səbəb oldu. Heç bir ölkə və təşkilatın tanımadığı bu seçkiləri Aİ və ATƏT-in Minsk qrupu da tanımadığını bəyan etdi. Buna baxmayaraq İrəvan və qondarma Dağlıq Qarabağ Respublikasının Azərbaycanın mədəniyyət beşiyi olan tarixi türk torpağı Şuşada qondarma prezident seçkilərinin keçiriləcəyi ilə bağlı bəyanatları problemin sülh yolu ilə həlli üçün regionda fəaliyyət göstərən bütün beynəlxalq təşkilatların da sərt reaksiyasına səbəb oldu. Mayın 28-də Arutunyan və Paşinyan arasında rəsmi görüş zamanı Arutunyan Qarabağın "Ana vətən" Ermənistanla birləşməsinin fərqli bir mərhələyə qədəm qoyacağını bildirərək yeni bir təxribata imza atdı.

10 iyul 2020-ci il tarixində Ermənistanın Baş naziri Paşinyan yeni milli təhlükəsizlik strategiyası haqqında sənədi ictimaiyyətə açıqladı. Paşinyan bu sənədi ictimaiyyətə açıqlayarkən Qarabağın heç bir məhdudiyyət olmadan öz müqəddəratını təyinetmə hüququnun beynəlxalq müstəvidə tanınmasının vacibliyini vurğulamışdır.

Bu bəyanatlardan da anlaşıldığı kimi, Ermənistan administrasiyası gərginliyi daim artıran davranışlarını davam etdirib. Əslində, Ermənistan 12-16 iyul tarixlərində Azərbaycanın şimal-qərb sərhəd bölgəsində yerləşən Tovuz rayonuna ağır artilleriyalar vasitəsilə zərbələr endirib, 23 avqustda təxribat qrupları ilə Azərbaycan mövqelərinə daxil olmağa cəhd etməklə münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olmadığını bir daha nümayiş etdirmişdir. 2020-ci ilin sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasındakı çıxışı zamanı "Ermənistan açıq-aşkar müharibəyə hazırlaşır" deyərək beynəlxalq ictimaiyyəti Ermənistanı dayandırmağa çağırdı.



TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN VƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV, BEŞTƏPƏ, PREZİDENT SARAYI, 2018-ci il



# 44 GÜNÜN XRONOLOGİYASI

ÜMUMİ MƏNZƏRƏ

21 SENTYABR 2020 – 09 NOYABR 2020

# ÜMUMİ MƏNZƏRƏ

- II Qarabağ müharibəsi 27 sentyabr 2020-ci il saat 06:00-da Ermənistan ordusunun Azərbaycanın mövqelərinə hücumu ilə başladı və 10 noyabra qədər davam etdi.
- 44 günlük müharibə nəticəsində Azərbaycan silahlı qüvvələri yüksək döyüş qabiliyyəti nümayiş etdirərək işğal altındakı torpaqları düşmənlərdən azad etdi. Şuşa şəhəri də daxil olmaqla strateji əhəmiyyət daşıyan Cəbrayıl, Zəngilan, Füzuli və Qubadlı rayonu və rayon mərkəzləri işğalçılardan təmizləndi. Cəbrayıl rayonu və 90 kəndi, Füzuli rayonu və 53 kəndi, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı rayonu və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, Ağdərə və Murovdağ istiqamətindəki strateji yüksəkliklər, Zəngilanın Bartaz, Sığırt, Şüküratаz və daha 5 adsız yüksəklik işğalçılardan azad olundu.
- Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən və hərbi yolla alınması coğrafi baxımdan çox çətin olan Kəlbəcər, Laçın və Ağdam bir güllə də atılmadan İlham Əliyevin diplomatik məharəti nəticəsində geri alındı.
- Mülki əhalini Ermənistanın hücumlarından qorumaq və torpaqları işğalçılardan azad etmək üçün 27 sentyabrda əməliyyata başlayan Azərbaycan ordusu 44 gün davam edən müharibə nəticəsində işğal altında olan torpaqlarının böyük bir hissəsini azad etdi. Bu müddət ərzində Ermənistan silahlı birləşmələri istər canlı qüvvə, istərsə də hərbi texnika baxımından xeyli itki verdi. Ermənistanın sabiq baş naziri Qrant Baqratyanın verdiyi məlumata görə, Ermənistan ordusunun 80 faizi məhv edildi. "Yerlə yeksan edildik. Müharibə meydanında nə qədər silah-sursatımız, hərbi texnikamız var, hamısını azərbaycanlılar bilir və sirr deyil. Əslinə qalsa, bu, müharibəni uduzmaq deyil, darmadağın edilməkdir", – deyə Baqratyan bildirmişdir.
- Azərbaycan ordusu tərəfindən 44 günlük müharibədə Ermənistana məxsus 53 tank əleyhinə qurğu, 4 smerç, 97 qrad, 2 "Uraqan" və 1 ədəd TOS çoxlüləli raket sistemi məhv edildi.
- Ermənistana aid 7 ədəd S-300 hava hücumundan müdafiə sistemi, 1 ədəd S-300 radar sistemi və 2 ədəd S-300 axtarış stansiyası yararsız hala gətirildi. 1 ədəd "Oborona" radar stansiyası, 4 ədəd TOR, 40 ədəd OSA, 4 ədəd KUB, 1 ədəd KRUQ, 14 ədəd "Zastava", 2 ədəd S-125 zenit-raket sistemi yararsız hala gətirildi. 22 ədəd pilotsuz uçan aparat, 2 ədəd "Elbrus" ballistik raket sistemi, 1 ədəd "Toçka-U" ballistik raket sistemi, 5 ədəd radioelektron müdafiə sistemi, 2 ədəd R-142 komanda qərargah maşını, 2 ədəd "Nebo-M" radar stansiyası, 7 ədəd fərqli radar stansiyası, 4 ədəd elektron müdafiə sistemi məhv edildi.
- Azərbaycan Dövlət İqtisad Universitetinin (UNİEC) İqtisadi Araşdırmalar İnstitutunun hesabatına görə, Ermənistan müharibədə 4,8 milyard dollar hərbi avadanlıq itirmişdir.





İŞĞALDAN AZAD EDİLƏN AĞDAMIN CÜMƏ MƏSCİDİ

- 27 sentyabr–10 noyabr tarixləri arasında davam edən İkinci Qarabağ müharibəsində 3000-ə yaxın Azərbaycan əsgəri şəhid olmuş, 22 əsgər itkin düşmüş, təqribən 9 minə yaxın əsgər yaralanmışdır.
- Türkiyə Respublikası Azərbaycanın haqlı mübarizəsini ən yüksək diplomatik səviyyədə dəstəklədi. Prezident Rəcəb Tayyib Ərdoğan işğal həqiqətini, Azərbaycanın haqlı mövqeyini və Ermənistanın beynəlxalq hüququn prinsiplərinə məhəl qoymadığını ikitərəfli danışıqlarda və beynəlxalq müstəvidə hər kəsə çatdırdı.
- Döyüşlərin başladığı 27 sentyabr 2020-ci il tarixindən bəyanatın imzalandığı 10 noyabr 2020-ci il tarixinə qədər Prezident Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevlə yaxın təmas quraraq müharibənin gedişi barədə şəxsən məlumatlar almışdır.
- Prezident Rəcəb Tayyib Ərdoğan diplomatik vasitələrlə, telefon danışıqları ilə bütün dünyaya təsirli mesajlar çatdırmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başda olmaqla Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Avropa Şurasının Prezidenti Çarlz Mişel, Almaniya Federativ Respublikasının kansleri Anjela Merkel, Birləşmiş Krallığın Baş naziri Boris Conson və Kanadanın Baş naziri Castin Trüdo ilə bir neçə dəfə telefon və videokonfrans vasitəsilə əlaqə saxlamışdır. Cənab Ərdoğan Türkiyənin bu məsələdə Azərbaycanın yanında olduğunu bildirərək haqlı mövqeyini qeyd etmişdir.
- Xarici İşlər naziri Mövlud Çavuşoğlu, müdafiə naziri Hülusi Akar, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və müxtəlif rütbəli diplomatlar Bakıya səfər edərək danışıqlar aparmışdır.
- TBMM-in dörd siyasi partiyası tərəfindən (AKP, MHP, CHP, İYİ Partiyası) birgə açıqlama verilərək Türkiyənin Azərbaycana Milli Məclis səviyyəsində dəstəyi ifadə olunmuşdur.



# XRONOLOGİYA

## 27 SENTYABR 2020

- Ermənistan ordusu 27 sentyabrda təmas xətti boyunca Azərbaycanın hərbi mövqelərinə və yaşayış məntəqələrinə hücuma keçdi. Bundan sonra Ermənistanın hücumunu dəf etmək və xalqını müdafiə etmək məqsədilə Azərbaycan bütün cəbhə boyu əks-hücum əməliyyatına başlamışdır. Əməliyyat zamanı Füzuli və Cəbrayıl rayonlarının bəzi kəndləri, eləcə də Ağdərə və Murovdağ istiqamətlərindəki yüksəkliklər azad edilmişdir.
- Ermənistanın təcavüzünə qarşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Biz öz torpaqlarımızı müdafiə edirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", – dedi və əməliyyatlar daha da intensivləşdi.
- Türkiyə Azərbaycana tam dəstəyini nümayiş etdirərək Ermənistanın Azərbaycana qarşı başladığı təcavüzü qınadı. Prezident Ərdoğan Ermənistanın Azərbaycana qarşı hücumu barədə "Türk milləti hər zaman olduğu kimi, bu gün də azərbaycanlı qardaşlarının tərəfindədir", – deyə bildirmişdir.
- Müharibə ilə əlaqədar Ermənistan hökuməti ölkədə "komendant saatı" və "ümumi səfərbərlik" elan edərkən Azərbaycan Milli Məclisi ölkənin bəzi şəhər və bölgələrində "komendant saatı" və "ümumi səfərbərlik" qərarı vermişdir. İlham Əliyev isə ölkədə qismən səfərbərlik elan etdi.
- Birləşmiş Millətlər Təşkilatının baş katibi Antonio Quterreş nümayəndəsi Stefan Düjarrik vasitəsilə Ermənistan və Azərbaycan arasında başlayan münaqişədə mülki insanların ölümünü qınamış və buna dərhal son qoyulmasını tələb etmişdir. Münaqişədə mülki insanların həlak olmasını pisləyən Quterreş tərəfləri münaqişəyə son qoymağa, gərginliyi azaltmağa və dərhal danışıqlar masasına əyləşməyə çağırdı.



**Ermənistan ordusu saat 06:00-da təmas xətti boyunca irimiqyaslı təxribatlara başlayaraq Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini ağır silahlarla atəşə tutdu.**

- Ermənistanın hücumu zamanı **bir ailənin 5 üzvü həyatını itirdi.**
- Azərbaycan ordusu mülki əhalinin müdafiəsi məqsədilə **bütün təmas xətti boyunca əks-hücuma keçdi.**
- Ermənistanda komendant saatı elan edildi.
- Azərbaycan Milli Məclisi ölkənin bəzi şəhər və rayonlarında **komendant saatının** tətbiq edilməsi ilə bağlı qərar verdi.
- Azərbaycan ordusu **6 kəndi** işğaldan azad etdi.




**REAKSİYALAR**



Azərbaycan Prezidenti
**İLHAM ƏLIYEV**

"Həyatını ilk itirənlər Azərbaycan vətəndaşları olmuşdur.

Düşmən geri oturduldu və ərazi bütövlüyümüz bərpa olundu.

Bunun cəzasını aldılar və alacaqlar".

"Ermənistan durdurulmalıdır və durdurulacaqdır. Ermənistan işğal etdiyi torpaqlarımızda qanunsuz olaraq yerləşməyə çalışır".

"Öz torpaqlarımızı qoruyuruq. Qarabağ bizimdir. Qarabağ Azərbaycandır. Ermənistan ordusunun bizim torpaqlarda nə işi var?

Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və qoyulacaqdır".



Türkiyə Prezidenti
**RƏCƏB TAYYİB ƏRDOĞAN**

"Azərbaycana qarşı yenidən hücuma keçən Ermənistan, bölgədə sülhü və əmin-amanlığı təhdid edən ən təhlükəli amil olduğunu bir daha göstərdi. Türkiyə hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır".

- **Türkiyə Xarici İşlər Nazirliyi:**
  "Türkiyənin Azərbaycana dəstəyi yekdildir. Azərbaycan necə istəsə o cür də ona kömək edəcəyik".
- **Rusiya Xarici İşlər Nazirliyi:**
  "Vəziyyəti düzəltmək üçün tərəfləri dərhal atəşkəsə və danışıqlar masasına dəvət edirik".
- **AB Xarici Əlaqələr və Təhlükəsizlik Siyasətinin baş təmsilçisi Cosef Borrell:**
  "ABŞ müharibəni qısa zamanda dayandırmağa, gərginliyi aradan qaldırmağa və atəşkəsə ciddi riayət etməyə çağırır".
- **Gürcüstan:**
  "Biz tərəfləri sülhə dəvət edirik".
- **İran:**
  "Azərbaycan və Ermənistanı hadisələrə sağlam düşüncə ilə yanaşmağa çağırırıq".

27.09.2020







ERMƏNİSTAN ORDUSUNUN MÜLKİ YAŞAYIŞ YERLƏRİNİ ATƏŞƏ TUTMASI NƏTİCƏSİNDƏ ÇOX SAYDA KÖRPƏ UŞAQ HƏYATINI İTİRDİ



## 28 SENTYABR 2020

- PKK/YPG terror təşkilatı mənsublarının, Fransanın ultrasağ təşkilat və erməni diaspor üzvlərinin könüllü və ya muzdlu şəkildə Ermənistan tərəfdən döyüşlərdə iştirak etdikləri ifşa olundu.
- Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi Anna Naqdalyan Azərbaycan tərəfdən Türkiyə Silahlı Qüvvələrinə mənsub əsgərlərin vuruşduğunu, Suriyadan döyüşçülər göndərildiyini və Türkiyəyə aid PUA və hərbi təyyarələrdən istifadə edildiyini iddia etdi. Azərbaycan tərəfi bu iddiaları rədd etdi. Prezident İlham Əliyev Suriyadan Azərbaycana döyüşçülərin gətirildiyinə dair iddiaların sübutsuz və mənasız olduğunu ifadə edərək: "Bu yenə də saxta bir xəbərdir. Bizə Suriyadan döyüşçü gəlməyib. Buna dair hər hansı bir sübut yoxdur. Bu, internet vasitəsilə yayılan erməni təxribatıdır", – deyə bildirmişdir.
- Müdafiə naziri Hulusi Akar: "Azərbaycanlı qardaşlarımız öz torpaqlarını müdafiə edir və biz onların tərəfindəyik. Ermənistan hücumlarını dərhal dayandırmalıdır. Xaricdən gətirdikləri muzdluları, terrorçuları geri göndərməli və işğal olunmuş Azərbaycan torpaqlarını boşaltmalıdırlar. Beləcə, atəşkəsin, sülhün, əmin-amanlığın önü açılmalıdır", – deyə bəyan etmişdir.
- Prezident Ərdoğan: "Dünən Azərbaycan torpaqlarına hücum edən Ermənistanı bir daha qınayıram. Türkiyə bütün imkanları və qəlbi ilə dost və qardaş Azərbaycanın yanında olmağa davam edəcəkdir. Dağlıq Qarabağın işğalı ilə başlayan münaqişəyə son verməyin vaxtı gəlib. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını dərhal tərk etməlidir ki, bölgədə sülh və əmin-amanlıq bərqərar olsun. Yaşanan son hadisələr bölgədəki bütün nüfuzlu ölkələrə haqq və ədalətin bərqərar olmasını dəstəkləmək üçün fürsət yaradıb. Bu fürsətin ən doğru şəkildə istifadə ediləcəyinə ümid edirik. Minsk qrupu olaraq bildiyimiz ABŞ–Rusiya–Fransa 30 ildir bu münaqişəni həll edə bilməyib. Sanki bu məsələnin həll olunmaması üçün əllərindən gələni ediblər. Azərbaycan da öz məsələsini özü həll etmək məcburiyyətində qalıb", – deyə bəyan etmişdir.





## 29 SENTYABR 2020

- Ermənistan SU-25 tipli hərbi təyyarəsinin Azərbaycanın Gəncə şəhərindən qalxan Türkiyəyə məxsus F-16 hərbi təyyarəsi tərəfindən vurulduğunu və pilotun öldürüldüyünü iddia etdi. Türkiyə və Azərbaycan bu iddianı rədd etdi.
- Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin münaqişədə tərəf olmadığını və bölgədəki əmin-amanlığın təmin olunmasına çalışdığını ifadə etdi.
- BMT Təhlükəsizlik Şurası "Dağlıq Qarabağ məsələsi" adı altında dərhal toplandı.
- İslam Əməkdaşlıq Təşkilatı (İƏT) baş katibliyi bəyanat verdi. Atəşkəsi pozan Ermənistan ordusunun Azərbaycana qarşı təxribat və hücumlarını, mülki əhalini hədəf almasını şiddətlə qınayaraq İƏT-in Azərbaycan xalqının yanında olduğunu bildirdi. Ermənistanı işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmağa dəvət edən bəyanatda iki ölkə arasındakı münaqişənin Azərbaycanın beynəlxalq hüquqla tanınan sərhədlərinə, ərazi bütövlüyünə və suverenliyinə hörmət etməklə, siyasi yollarla həll olunmasının vacibliyi ifadə olunmuşdur.
- ABŞ Xarici İşlər naziri Maykl Pompeo tərəfləri zorakılığı dayandırmağa dəvət edərək: "İki tərəf də zorakılıqdan əl çəkməli və ən qısa zamanda danışıqları bərpa etmək üçün Minsk qrupu ilə birgə çalışmalıdır", – deyə qeyd etmişdir.




ERMƏNİSTAN ORDUSU AZƏRBAYCANIN MÜLKİ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİ RAKET ATƏŞİNƏ TUTDU

## 30 SENTYABR 2020

- Azərbaycan torpaqlarındakı yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən hədəf alındı. Mülki şəxslərin hədəf alınmasına sərt reaksiya verən Türkiyə Respublikasının Müdafiə Nazirliyinin sosial şəbəkə hesabında Ermənistanın 30 il əvvəl mülki əhaliyə qarşı törətdiyi qətliamı xatırlanaraq "Uşaq, qadın, qoca demədən Xocalıdakı soyqırımı həyata keçirən, Azərbaycan torpaqlarını işğal edən Ermənistan bu gün də bütün dünyanın gözü qarşısında mülki əhalini hədəf alıb. Ermənistan otuz il əvvəlki kimi bu gün də eyni şəkildə sülh və əmin-amanlığa düşməndir", – deyə qeyd olunmuşdur.
- Amnesty İnternational təşkilatı Qarabağ bölgəsində cərəyan edən münaqişə tərəflərinə beynəlxalq insan hüquqlarına riayət etməyə, mülki əhalini münaqişənin təsirindən qorumağa çağırdı.
- Azərbaycan ordusunun 2300 erməni döyüşçünü tərk-silah etdiyi xəbəri verildi.
- Əməliyyatlarda Türkiyə təyyarələrinin və PUA-ların iştirak etməsi barədə məlumatları Müdafiə Nazirliyi "Ermənistan rəsmi sosial-şəbəkə hesablarından onlara qarşı Türkiyəyə məxsus təyyarələrdən və PUA-lardan istifadə olunmasına dair heç bir sübutu olmayan saxta xəbərlər yayırlar. Bu, Ermənistanın qarşısında Türkiyənin olması görüntüsünü yaratmaqla arxasındakı güclərin sayını artırmaq məqsədi güdməkdən başqa bir şey deyildir. Bu iddiaları öz havadarlarından başqa kimsə ciddiyə almır. Azərbaycan Silahlı Qüvvələri qələbəni öz gücünə həll edəcək imkana və qabiliyyətə, işğal altında olan torpaqlarını azad edə biləcək əzm və qüdrətə malik olduğunu ötən günlərdə bütün dünyaya göstərdi" deyərək iddiaları rədd etdi.
- Azərbaycan Müdafiə Nazirliyi ilk günlərdən ciddi itkilər verən Ermənistan ordusunun xarici ölkələrdən erməni əsilli muzdlu əsgərlərdən istifadə etdiyini bəyan etdi.
- Rusiya Xarici İşlər naziri Sergey Lavrov Moskvanın Ermənistanla Azərbaycan Xarici İşlər nazirləri arasında danışıqlarda vasitəçiliyə razılıq verdiyini bəyan etdi.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibənin bitməsi üçün "Ermənistanın işğal etdiyi torpaqlardan geri çəkilməsi" şərtini təkrar etdi. Türkiyə başda olmaqla Pakistan və Əfqanıstana dəstəklərinə görə təşəkkür edən İlham Əliyev Azərbaycan ordusunun kənar dəstəyə ehtiyacı olmadığını bildirdi.
- Azərbaycanın Müdafiə Nazirliyi 30 sentyabra qədər 2300 separatçı silahlı dəstənin zərərsizləşdirildiyini, 30 ədəd tank, 200 ədəd top, 25 ədəd zenit qurğusu, 5 silah anbarı, 50 ədəd tank əleyhinə qurğu, 55 ədəd hərbi maşın və S-300 uzaqmənzilli zenit-raket kompleksinin məhv edildiyini bəyan etdi.
- Ermənistanın Müdafiə Nazirliyi Azərbaycan tərəfinin 790 canlı qüvvə itirdiyini, 1900-dən çox yaralının olduğunu, eləcə də 3 tank, 2 PUA, 7 helikopter və AN-2 təyyarəsinin məhv edildiyini iddia etdi.



## 1 OKTYABR 2020

- Azərbaycan Respublikasının Baş Prokurorluğunun verdiyi xəbərə görə, Ermənistan ordusunun Tərtər rayonuna atdığı top mərmiləri nəticəsində bir mülki şəxs həyatını itirdi.
- Ermənistan ərazisindən Azərbaycana endirilən raket zərbələri nəticəsində 19 mülki şəxs həyatını itirdi. Tərtər qatar stansiyası ciddi ziyan gördü.
- Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakayan "Bakının İrəvandan birtərəfli güzəştlər əldə etmək istədiyini, ancaq buna nail ola bilməyəcəyini", – dedi. Ermənilərin yaydığı xəbərlərdə Dağlıq Qarabağda gedən döyüşlərin yeni bir mərhələyə daxil olduğunu, Azərbaycanın əsasən toplardan atəş açdığını, çərşənbə axşamından bu ana qədər 400 Azərbaycan əsgərinin həyatını itirdiyini və üç helikopterin vurulduğunu iddia etdi.
- Ermənistan Müdafiə Nazirliyi cəbhə xəttində döyüşlərin davam etdiyini və müharibə başlayandan indiyədək cəmi 103 erməni əsgərinin öldüyünü bəyan etdi.
- İsrailin Azərbaycana silah verməsini səbəb gətirərək Ermənistan Təl-Əvivdəki səlahiyyətli səfirini geri çağırdı.






# Azərbaycan Ermənistana məxsus 200 tank və zirehli texnikanı məhv etdi

**Azərbaycan ordusunun torpaqları işğaldan azad etmək üçün başladığı əks-hücumda Ermənistan ordusu itki verməyə davam edir.**




27-30 SENTYABR ARASINDA
**ERMƏNİSTANIN İTKİLƏRİ**

**200** TANK VƏ ZİREHLİ TEXNİKA

**228** TOP VƏ RAKET SİSTEMİ

**30** HAVA HÜCUMUNDAN MÜDAFİƏ SİSTEMİ

**6** QƏRARGAH VƏ MÜŞAHİDƏ MƏNTƏQƏSİ

**5** SİLAH ANBARI

**1** S-300 SİSTEMİ

**110** AVTOMOBİL

**ERMƏNİSTAN ORDUSU MÜLKİ ŞƏXSLƏRƏ ATƏŞ AÇMAĞA DAVAM EDİR**

Ermənistan silahlı birləşmələrinin Azərbaycandakı yaşayış məntəqələrinə hücumu nəticəsində **həyatını itirən mülki şəxslərin sayı 16-ya, yaralı sayı isə 55-ə çatdı.**

01.10.2020

ANADOLU AJANSI

## 2 OKTYABR 2020

- Fransa prezidenti Makron Minsk qrupu həmsədri kimi Dağlıq Qarabağda vəziyyəti düzəltməyə çalışır. Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Paşinyanla telefon əlaqəsi saxladı.
- Döyüş meydanında çətin vəziyyətə düşən Ermənistan Qarabağda atəşkəsin bərpası üçün Rusiya, ABŞ və Fransa ilə birgə işləməyə hazır olduğunu bildirdi.
- Ermənistan baş naziri Paşinyan hava hücumundan müdafiə sistemlərinin paytaxt İrəvanın yaxınlığında dörd pilotsuz uçuş aparatını vurduğunu bəyan etdi.
- Fransız qəzeti "Le Fiqaro"ya müsahibə verən Paşinyan Türkiyənin aktiv olaraq döyüşlərdə iştirak etdiyinə dair əlində dəlillər olduğunu iddia etdi. Paşinyan PUA-lar və F-16-ların istifadə edildiyini, Dağlıq Qarabağda yaşayış məntəqələrinin bombalandığını iddia etdi. Bu iddialar Türkiyə və Azərbaycan tərəfindən rədd edildi.
- Ermənistan silahlı birləşmələri Ağdam bölgəsində dörd kəndi top atəşinə məruz qoydu.

## 3 OKTYABR 2020

- Əməliyyatlar nəticəsində Tərtər, eləcə də Cəbrayıl və Füzuli rayonlarının işğal altında olan bir sıra kəndləri Azərbaycanın əlinə keçdi.
- Ermənistan silahlı birləşmələri tərəfindən Xankəndi şəhərinə yerləşdirilən hərbi texnika və silah-sursatı məhv etmək üçün Azərbaycan silahlı qüvvələri havadan zərbələr endirdi.
- Prezident Ərdoğan: "Ermənistan çirkin qətliam siyasətini davam etdirərək işğal etdiyi Qarabağda problem həll olunmamış yenidən Azərbaycan torpaqlarına hücum etdi. Ancaq bu dəfə gözləmədiyi bir vəziyyətlə qarşılaşdı. Qardaş Azərbaycan dövləti həm öz torpaqlarını qorumaq, həm də işğal altında olan torpaqlarını xilas etmək üçün böyük bir əzmlə hərəkətə keçdi. Bu ana qədər əzmlə irəliləyən Azərbaycan ordusu bir çox ərazini işğaldan azad etdi. Türkiyə olaraq bütün imkanlarımızla ürəkdən dost və qardaş Azərbaycanın yanındayıq, yanında olmağa da davam edəcəyik. İnşallah, Qarabağ işğaldan azad olanadək bu mübarizə davam edəcəkdir", – dedi.







## 4 OKTYABR 2020

- Erməni hərbi birləşmələri Azərbaycanın ən böyük ikinci şəhəri Gəncəni, Füzulini, Ağdam və Tərtəri bombaladı. Gəncənin bombalanması nəticəsində bir mülki şəxs həyatını itirdi, 4 nəfər yaralandı.
- İnsanların ən sıx toplaşdığı saatlarda mülki əhalinin bombalanması anı təhlükəsizlik kameraları tərəfindən çəkilib.
- Ermənistan ordusu Azərbaycanın Xızı və Abşeron rayonlarına 300 kilometr mənzilli raket atmaqla eyni vaxtda sənaye şəhəri Mingəçeviri də hədəf almışdı.
- Azərbaycan Silahlı Qüvvələri həmin gün Cəbrayıl rayonunun bir neçə kəndini azad etdi.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev atəşkəs üçün "Ermənistan ordusu torpaqlarımızdan çıxsın. Azərbaycanın ərazi bütövlüyünü tanıdığını (Ermənistanın baş naziri Nikol Paşinyan) bəyan etsin. Azərbaycan xalqından üzr istəsin və Qarabağın Ermənistan torpaqları olmadığını etiraf etsin. Bizə Ermənistan ordusunun işğal etdiyi torpaqlardan çıxacağı tarixin təqvimini təqdim etsin" ifadələri ilə şərtlərini diktə etdi.





## 5 OKTYABR 2020

- Ermənistan Beyləqan, Bərdə və Tərtəri bombaladı.
- Azərbaycan ordusu əməliyyatlar nəticəsində Cəbrayılın bir sıra kəndlərini azad etdi.
- Ermənistan ordusu Bakı–Tbilisi–Ceyhan əsas boru xəttinin Yevlax rayonundan keçən hissəsinə raket zərbələri endirdi. Zərbələr Azərbaycan ordusu tərəfindən dəf edildi.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "TRT-xəbər"ə "Biz bu müharibənin səbəbkarı deyilik, biz torpaqlarımızı qoruyuruq... 30 ildir verilən vədlər yerinə yetirilmədi... İşğal altında olan torpaqlarımız bizə geri qaytarılsa sülh olar" şəklində bəyanat verdi.
- Müdafiə naziri Hulusi Akar "Sona qədər azərbaycanlı qardaşlarımızın yanındayıq, yanında olmağa da davam edəcəyik. Terror təşkilatları ilə də əlbir olan və cəbhədə qəhrəman Azərbaycan ordusu qarşısında diz çökən Ermənistan yalan və qarayaxmalara əl atdı. Bu xəbərlərin yalan olduğu qısa bir zamanda ortaya çıxdı. İndi də vəhşicəsinə, terrorçu xisləti ilə mülki əhalini hədəf alır, yaşayış məntəqələrinə zərbə vurmaqla sakinlərin ölümünə səbəb olur. Ermənistan mülki əhalini hədəf almaqla hərbi qanunları pozur" deyərək Azərbaycana dəstəyini bəyan etdi.
- Əfqanıstan Milli Məclisi qəbul etdiyi bəyanatda Ermənistandan Dağlıq Qarabağın işğalına dərhal son qoymağı tələb etdi. Bəyanatda bu sözlər yazılıb: "Əfqanıstan Milli Məclisi Ermənistanın Azərbaycan Respublikasına qarşı hücumunu qınayır. Azərbaycan Respublikasının milli dövlətçiliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinə hörmət edilməlidir. Əfqanıstan Milli Məclisi BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli dörd qətnaməsinin (822, 853, 874, və 884) dərhal yerinə yetirilməsini və işğalçıların Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edir. Əfqanıstan Milli Məclisi dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq məsələsində Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu ifadə edir".



ERMƏNİSTAN ORDUSUNUN HÜCUM EDƏ BİLƏCƏYİ EHTİMALI NƏZƏRƏ ALINARAQ DƏFN MƏRASİMİ AXŞAM KEÇİRİLDİ

# Ermənistan Azərbaycan şəhərlərinə hücum edir

**Ermənistan ordusunun Azərbaycanın mülki yaşayış məntəqələrinə hava hücumu davam edir.**




Ermənistan ordusunun Azərbaycanın **Beyləqan, Bərdə** və **Tərtər** şəhərlərini bombaladığı bildirildi.

Ermənistan Azərbaycanın Füzuli rayonundakı **Horadiz şəhərini, Ağcabədi** rayonunun kəndlərini, **Goranboy** və **Göygöl** rayonlarını da raket atəşinə tutdu.

Ermənistan ordusu dünən **Gəncə, Mingəçevir, Xızı** və **Abşerona** raket zərbələri endirdi.

Ermənistanın **Berd** rayonundan Azərbaycanın ikinci böyük şəhəri olan **Gəncəyə** yenə raket atıldı.









05.10.2020





ERMƏNİSTAN ORDUSUNUN HÜCUMUNA MƏRUZ QALAN AZƏRBAYCANLI MÜLKİ ƏHALİ SIĞINACAQLARA VƏ İCTİMAİ BİNALARA SIĞINDI

## 6 OKTYABR 2020

- Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti Qarabağ döyüşlərində Ermənistan tərəfində vuruşan, terror təşkilatı PKK-ya bağlı olan terrorçuların telefon danışıqlarını paylaşdı.
- BMT beynəlxalq ictimaiyyətin çağırışlarına baxmayaraq, Dağlıq Qarabağda münaqişələrin davam etdirilməsinin qəbuledilməz olduğunu vurğuladı və tərəfləri münaqişəyə dərhal son qoymağa çağırdı. BMT Baş katibi Quterreşin sözçüsü Düjarrik döyüşlərin daha da intensivləşməsi və Qarabağda mülki əhalinin hədəf alınması ilə bağlı narahatlığını ifadə etdi. BMT-nin bəyanatında münaqişənin sona çatması üçün region dövlətlərinin və ATƏT-in Minsk Qrupunun səy göstərmələrinin vacibliyi vurğulandı.
- İranın ali dini lideri Xamneyinin xarici siyasət müşaviri və keçmiş Xarici İşlər naziri Əli Əkbər Vilayəti Ermənistanın işğal etdiyi ərazilərdən çıxmalı olduğunu bildirdi və bu vəziyyəti "İsrailin Fələstin ərazilərini işğalı" ilə müqayisə etdi.
- Kanada Azərbaycan və Ermənistan arasındakı münaqişənin davam etdiyi Dağlıq Qarabağ bölgəsində öz hərbi texnologiyasından istifadə edilib-edilmədiyi aydınlaşana qədər Türkiyəyə dron texnologiyaları ixracının bir qisminin təxirə salındığını bildirdi.

## Azərbaycan ordusu işğal altındakı torpaqları azad etmək üçün başladığı əks-hücum əməliyyatlarının 9-cu günündə irəliləməyə davam etdi








## 7 OKTYABR 2020

- İran İslam Respublikasının Prezidenti Ruhani Azərbaycan və Ermənistan arasında gedən döyüşlərin daha geniş bölgələrə yayıla biləcəyini xəbərdar edərək "Bunun qarşısını almaq lazımdır" dedi.
- Rusiyanın TASS agentliyinin xəbərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağda döyüşlər bitdikdən sonra Ermənistanla danışıqlara başlaya biləcəyini dedi.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Dağlıq Qarabağda cərəyan edən döyüşləri "faciə" adlandırdı və müharibəni dayandırmağa çağırdı. Putin Rusiyanın Ermənistanla müttəfiq olduğunu və müdaxilə etməyə hazır olduğunu, lakin əməliyyatların Ermənistan ərazisində getmədiyini bildirdi.
- Azərbaycanın tərəfindən yayılan açıqlamada Ermənistanın döyüş bölgəsindən kənarda qalan yaşayış məntəqələrini hədəf aldığı bildirildi. Hədəfə alınan ərazilərin Avropaya qaz və neft nəql edən boru xətlərinə yaxın bölgələr olduğu ifadə edildi.
- Azərbaycanın xəbər portallarının verdiyi məlumatlara görə, bu günə qədər Ermənistanın hücumu nəticəsində 27 mülki şəxs həyatını itirmişdir.
- Fransız "Le Fiqaro" qəzetinin müxbiri Georqiyes Malbrunot sosial şəbəkə hesabından Fransada yaşayan ermənilərin Qarabağda vuruşmaq üçün könüllü olaraq orduya qatıldığını, "Qarabağda döyüş: Fransada yaşayan ermənilər Dağlıq Qarabağ cəbhəsində Azərbaycan ordusu ilə vuruşmaq üçün Ermənistana getməyə başladılar", – deyə qeyd edir. Agence France Presse (AFP) agentliyinin İrəvanda çıxan bir xəbərində döyüşçülərdən biri haqqında "Stasburqdan başlayan yol"dan bəhs edilir.
- Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev Suriya və Livan ermənilərinin cəbhə xəttinə gətirilərək erməni ordu sıralarına qatıldıqlarını xəbər verdi.



ERMƏNİSTAN ORDUSU AZƏRBAYCANDA MÜLKİ ƏHALİNİN MƏSKUNLAŞDIĞI QƏSƏBƏLƏRƏ RAKET ZƏRBƏSİ ENDİRİB

## 8 OKTYABR 2020

- Azərbaycan yaşayış məntəqələrini hədəf alan Ermənistan ordusuna aid Qrad raket sistemi məhv edildi.
- Azərbaycan Ermənistanı Gəncə şəhəri və Goranboy rayonu ərazisini top atəşinə məruz qoymaqda ittiham edərək zərbələr zamanı ən azı bir mülki şəxsin həlak olduğunu xəbər verdi.
- Azərbaycanın Xarici İşlər Nazirliyi Yunanıstandan öz səfirini geri çağırdığını və Yunanıstan da daxil olmaqla xarici ölkələrdə yaşayan erməni əsilli vətəndaşların hərbi əməliyyatlarda iştirak etmək üçün işğal altında olan torpaqlara getdiklərinə dair etibarlı mənbələrdən əldə olunan məlumatı Yunanıstanın Xarici İşlər Nazirliyinə təqdim etdiyini söylədi. Ermənistan iddiaları təkzib etdi. Rəsmi Afina isə bu iddiaların "əsassız və təhqiramiz" olduğunu bildirdi.
- Atəşkəsin əldə olunması üçün ilk görüş Cenevrədə baş tutdu.
- Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Minsk qrupunun üzv dövlətləri – Fransa, Rusiya və ABŞ-ın nümayəndələri ilə görüşəcəyini bildirdi.
- Döyüşlər davam etdiyi müddət ərzində görüşdə iştirak etməyəcəyini bildirərək Cenevrədəki danışıqlara gəlməyən Ermənistanın Xarici İşlər naziri Mnatsakanyan Moskvada Rusiyanın Xarici İşlər naziri Lavrovla görüşəcəyini bəyan etdi.
- Ermənistanın milli təhlükəsizlik naziri Arqişti Kryamyan vəzifəsindən kənarlaşdırıldı.





## Ermənistanın hücumları nəticəsində həlak olan mülki vətəndaşların sayı 31 nəfərə çatdı

**Azərbaycanın baş prokurorluğu Ermənistanın sentyabr ayının 27-si saat 13:00-a qədər davam edən hava hücumları zamanı həlak olanların sayını və maddi ziyanın miqdarını açıqladı.**




27 SENTYABRDAN SONRA
**ERMƏNİSTANIN MÜLKİ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNƏ HÜCUMU NƏTİCƏSİNDƏ**

**31** MÜLKİ ŞƏXS HƏLAK OLDU

**154** MÜLKİ ŞƏXS YARALANDI

**928** EV

**45** BİNA

**133** İCTİMAİ BİNA YARARSIZ HALA DÜŞDÜ

Azərbaycan Prezidentinin müşaviri Hikmət Hacıyev Azərbaycanın mülki obyektlərinə atəş açan Ermənistan ordusuna aid "Qrad" raket sisteminin məhv edildiyini bildirdi.





08.10.2020

ANADOLU AJANSI



ERMƏNİSTAN ORDUSUNUN HÜCUM EDƏ BİLƏCƏYİ EHTİMALI NƏZƏRƏ ALINARAQ DƏFN MƏRASİMİ AXŞAM KEÇİRİLDİ

## 9 OKTYABR 2020

- Azərbaycan ordusu hərbi əməliyyatlar nəticəsində Cəbrayıl və Füzuli rayonlarının bəzi kəndlərini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və Sur kəndini, eləcə də Tərtər rayonunun Çaylı kəndini işğaldan azad etdi.
- Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan müvəqqəti atəşkəs əldə olunması məqsədilə Moskvada görüşdülər. On saatdan artıq davam edən danışıqlardan sonra Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşmaya görə, 10 oktyabr 2020-ci il saat 12:00-dan etibarən Beynəlxalq Qırmızı Xaç Komitəsinin iştirakı ilə əsirlərin və meyitlərin dəyişdirilməsi üçün humanitar atəşkəs elan edildi.
- Lavrov atəşkəs rejiminin parametrləri üzərində ayrıca çalışacaqlarını qeyd etdi və ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycanla Ermənistanın ən qısa zamanda sülhə nail olmaq üçün əsaslı müzakirələrə başlayacaqlarını bildirdi.

## 10 OKTYABR 2020

- Ermənistan ordusu atəşkəs sazişinə əməl etməyərək cəbhənin Ağdərə–Tərtər və Füzuli–Cəbrayıl istiqamətlərində hücuma cəhd göstərdi.
- Erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərini toplardan atəşə tutması nəticəsində bir nəfər dinc sakin həyatını itirdi.


















ERMƏNİSTAN ORDUSUNUN HÜCUMUNA MƏRUZ QALAN AZƏRBAYCANLI MÜLKİ ƏHALİ SIĞINACAQLARA VƏ İCTİMAİ BİNALARA SIĞINDI

## 11 OKTYABR 2020

- Atəşkəsin elan olunmasından 24 saat keçməmiş Ermənistan ordusu Gəncə şəhərinə ortamənzilli ballastik "Elbrus" raketləri atdı, nəticədə 10 nəfər öldü və 40 nəfərdən çox insan yaralandı.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncədə baş verən faciənin məsuliyyətinin Ermənistanın üzərinə düşdüyünü bildirərək "Azərbaycan bunlara lazımi cavabı verəcək" ifadəsini işlətdi.
- Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyi Ermənistanın atəşkəsi pozaraq Gəncəyə raket zərbələri endirməsinə aşağıdakı münasibəti bildirdi:
- "Ermənistanın atəşkəsi pozaraq bu gün səhər saatlarında Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə raket zərbələri endirməsini şiddətlə qınayırıq. Döyüş bölgəsindən 100 km aralıda yerləşən Gəncə şəhərində 10 dinc sakinin ölümünə, 40-dan çox adamın yaralanmasına səbəb olan bu mənfur hücum Ermənistan rəhbərliyinin münaqişəni işğal altındakı Azərbaycan torpaqlarından kənarda da yaymaq məqsədilə əl atdığı təxribatların yeni bir nümunəsidir".

## 12 OKTYABR 2020

- Ermənistanın Goranboyu, Tərtəri və Ağdamı hədəfə alan hərbi mövqeləri zərərsizləşdirildi.
- Moskvada Ermənistanın Xarici İşlər naziri Mnatsakanyanla birgə mətbuat konfransı keçirən Lavrov məsələnin həlli yolunda Rusiya, ABŞ və Fransanın birgə səy göstərməsinin vacibliyini vurğuladı.
- Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanla nəzərdə tutulacaq görüşlərdə Türkiyənin də iştirakını tələb etdi.
- ABŞ və Rusiya tərəfləri atəşkəs şərtlərinə əməl etməyə səslədi.
- Azərbaycan Prezidenti İlham Əliyev erməni silahlı birləşmələrinin Gəncəyə raket hücumlarının hərbi cinayət olduğunu bildirdi.



## 13 OKTYABR 2020

- Ermənistan ordusunun atəşkəs barədə razılaşmanı pozaraq bütün gecə ərzində etdiyi hücumların qarşısı Azərbaycan ordusu tərəfindən alındı.
- Ermənistana məxsus tanklar, top batareyaları və bir çox silah-sursat ələ keçirildi.
- Ermənistanın dinc sakinlərə açdığı atəş nəticəsində oktyabrın 13-dən etibarən 41 nəfərin həlak olduğu qeyd edildi.

## 14 OKTYABR 2020

- Ermənistan ordusunun Azərbaycanın mülki obyektlərinə və dinc sakinlərə qarşı misket bombasından və fosfor qazından istifadə etdiyi məlum oldu.
- Füzuliyə hücum edən erməni silahlı birləşmələri zərərsizləşdirildi. Erməni komandir Ruben Sanamyanın öldürüldüyü xəbəri yayıldı.
- Azərbaycan ordusu Füzuli və Xocavəndin 8 kəndini işğaldan azad etdi.
- Prezident İlham Əliyev türk telekanallarından birinə verdiyi müsahibədə Ermənistanın işğal etdiyi torpaqlardan çəkilməli olduğunu bildirdi və əlavə etdi ki, bu məsələ Türkiyənin iştirakı olmadan həll edilməyəcək. Enerji xətlərinə ediləcək hər hansı hücumun Ermənistana çox baha başa gələcəyini bildirən İlham Əliyev Ermənistanın Baş naziri Paşinyanın ölkəsini fəlakətə sürüklədiyini də dilə gətirdi. Azərbaycan Prezidenti: "Qarabağda yaşayan ermənilərlə bizim bir problemimiz yoxdur, – dedi. – Azərbaycan çoxmillətli bir dövlətdir, Azərbaycanın kəndlərində və Bakıda minlərlə erməni yaşayır və onlar bizim vətəndaşlarımızdır. Bizim ölkəmizdə bir çox millətlərin nümayəndələri yaşayır və bu, gücümüzə güc qatır. O baxımdan Qarabağda yaşayan ermənilər qorxmasınlar..."
- Rusiya Xarici İşlər naziri Lavrov rus mediasına verdiyi açıqlamada Moskvanın Türkiyənin Dağlıq Qarabağla bağlı mövqeyini bölüşmədiyini və hərbi yolun qəbuledilməz olduğunu bildirdi.
- Fransa Parlamentində erməni lobbisinin təsirində olan bir qrup deputatın Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına dair çağırışının cavabında Fransa Xarici İşlər naziri Jan-İv Lö Drian bu məsələdə ölkəsinin bitərəf qaldığını bildirdi.
- Türkiyə prezidenti Ərdoğan qrup toplantısında bəyan etdi: "Azərbaycanın işğal altındakı torpaqlarını qurtarmaq üçün verdiyi mücadiləni alqışlayıram. Minsk üçlüyü hələ baş qatmaq taktikası ilə bu işi yola verir, 30 ildir bu vəzifəni boynunuza götürmüsünüz, görəcəyiniz iş torpaqları qaytarmaqdır".







## 15 OKTYABR 2020

- Ermənistan ordusu Azərbaycanın Tərtər rayonunda dəfn mərasimi üçün qəbiristanlığa gedən dinc sakinlərə atəş açdı. 3 nəfər həlak oldu, 5 nəfər yaralandı.
- Türkiyə Prezidenti Ərdoğan Rusiya Prezidenti Putinlə telefonla danışdı. Söhbətdə Azərbaycan–Ermənistan məsələsi ilə yanaşı, Suriya və Liviyadakı vəziyyət də dəyərləndirildi.
- Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Füzuli və Xocavəndin 8 kəndinin geri alındığı barədə məlumat verdi.
- Ermənistan Müdafiə Nazirliyinin sözçüsü Artsrun Hovanesyan Azərbaycanın iki erməni əsgərini əsir aldığını açıqladı. Hovanesyan eyni zamanda Azərbaycanın çox sayda itki verdiyini, cəbhə xəttinin bəzi yerlərində itkilərin müharibənin ilk günlərindəkindən daha çox olduğunu iddia etdi.
- Rəsmi Bakı döyüşlərin başladığı gündən 43 azərbaycanlı dinc sakinin həlak olduğunu və 218 nəfərin yaralandığını bildirdi.
- Azərbaycan Müdafiə Nazirliyi oktyabrın 15-də, gecə verdiyi açıqlamada cəbhənin Ağdərə–Ağdam və Füzuli–Hadrut–Cəbrayıl ərazilərində vəziyyətin sabit-ağır olduğunu, döyüşlərdə çoxlu erməni əsgərinin öldürüldüyünü və kifayət qədər döyüş sursatının məhv edildiyini açıqladı.

## 16 OKTYABR 2020

- Azərbaycan ordusu Xocavənd, Füzuli və Cəbrayılın bəzi kəndlərini işğaldan azad etdi.
- Ermənistan ordusu Naxçıvanın Ordubad rayonuna raket zərbəsi endirdi.
- Prezident İlham Əliyev Ermənistan ordusuna məxsus 200 tankın məhv edildiyini, 33 tankın ələ keçirildiyini, OSA, S-300 və TOR sistemləri ilə birgə 170 yük maşınının məhv edildiyini açıqladı. İlham Əliyev: "2 milyard dollarlıq zərərə uğrayıblar, bu qədər pulu hardan əldə ediblər..." – deyərək ermənilərin pul və təchizat mənbələri barədə suallar ünvanladı.

- Ermənistan ordusu Gəncə və eyni anda Mingəçevir şəhərinə yenidən raket zərbələri endirdi. Azərbaycanın Hava Hücumundan Müdafiə Qüvvələri Mingəçevirə atılan raketləri zərərsizləşdirdi. Gəncədəki dinc sakinlərin "Skad" tipli "Elbrus" ballastik raketlərlə vurulduğu xəbəri verildi.
- Azərbaycan Müdafiə Nazirliyinin məlumatında işğal altındakı Dağlıq Qarabağda yerləşdirilmiş Ermənistana məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksinin məhv edildiyi vurğulandı. Verilən açıqlamada deyilirdi: "Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə son iki gün ərzində Ermənistan Silahlı Qüvvələrinə məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksi məhv edildi".
- Gəncə şəhərindəki yaşayış yerlərinə atılan raketlərdən birinin mülki binaya düşməsi nəticəsində ikisi uşaq olmaqla 15 dinc sakin həlak oldu, 55 nəfər yaralandı, çox sayda evə, iş yerlərinə və maşınlara zərər dəydi.
- İranın Azərbaycandakı səfiri dinc sakinlərə olunan hücumu qınadı. Verilən açıqlamada deyilirdi: "Şəhərlərə və məsum insanlara yönəlmiş bu hücumlar bütün beynəlxalq normaları heçə saymaqdır, hərbi cinayətdir və bütün bunlar dərhal dayandırılmalıdır".

## 18 OKTYABR 2020

- Gəncəyə raket hücumundan sonra Azərbaycan və Ermənistan arasında 18 oktyabr saat 00:00-dan etibarən yenidən müvəqqəti atəşkəs razılaşması əldə olundu. Bununla belə, Ermənistan silahlı qüvvələri Cəbrayıl rayonu ətrafındakı bölgələrə və Araz çayı boyunca azad olunmuş kəndlərə top və minaatanlardan atəş açaraq atəşkəsi növbəti dəfə pozdu.
- Azərbaycanla İran arasında sərhəddə yerləşən, strateji əhəmiyyət daşıyan Xudafərin körpüsü işğaldan azad olundu və körpünün üzərində Azərbaycan bayrağı qaldırıldı.
- Ermənistan mövqelərində sonuncu qüvvə kimi döyüşən erməni xüsusi təyinatlıları səngərlərdən geri çəkilməyə başladı.

## 19 OKTYABR 2020

- Azərbaycan ordusu Cəbrayıl rayonunun bir çox kəndlərini geri aldı. Prezident İlham Əliyev daha 13 kəndin azad edildiyini bildirdi.
- Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan ordusunun oktyabrın 18-də razılaşdırılmış müvəqqəti atəşkəsi pozaraq dinc yaşayış məskənlərinə və hərbi mövqelərə toplardan atəş açdığını söylədi.
- Ermənistanın dinc yaşayış yerlərini bombalaması nəticəsində 13 Azərbaycan vətəndaşı həyatını itirdi. Ermənistanın 5-ci alayı, o cümlədən tabor komandirinin köməkçisi Hayk Stepanyan zərərsizləşdirildi.
- ABŞ, Rusiya və Fransanın istəyi ilə bir araya gələn ATƏT tərəfləri atəşkəsə əməl etməyə çağırdı.






Füzuli rayonunun **Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli və Yuxarı Aybasanlı**, Cəbrayıl rayonunun **Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daşveysəlli, Ağtəpə, və Yarəhmədli**, Xocavənd rayonunun **Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli və Vəng** kəndləri işğaldan azad edildi.



Zəngilanın şəhər mərkəzi ilə Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan və Muğanlı kəndləri də nəzarət altına alındı.

İlham Əliyev Xocavəndin Vəng kəndinin adının Çinarlı olaraq dəyişdirildiyini bəyan etdi.

20.10.2020








### 20 OKTYABR 2020

- Prezident İlham Əliyev ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlar həyata keçirən Azərbaycan ordusunun Ermənistana aid 4 ədəd S-300 raket sistemini məhv etdiyini bildirdi.
- Azərbaycan ordusu Zəngilanın, eləcə də Füzuli, Cəbrayıl və Xocavəndin bəzi kəndlərini azad etdi.
- Füzuli şəhərində 27 ildən sonra ilk dəfə azan oxundu.
- Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın ATƏT-in Minsk qrupunun təsdiqlədiyi təməl prinsiplərlə razılaşacağı təqdirdə döyüşləri dayandırmağa hazır olduğunu bildirdi.
- Ermənistanın Baş naziri Paşinyan anlaşmanın təslimiyyət yox, güzəştə əsaslanmalı olduğunu söylədi.

### 21 OKTYABR 2020

- Azərbaycan ordusu Zəngilanın Mincivan qəsəbəsini və bir çox kəndlərini, Cəbrayıl və Füzulinin bəzi kəndlərini işğaldan azad etdi.
- Türkiyə Prezidentinin köməkçisi Fuat Oktay bildirdi: "Türkiyə ilə Azərbaycan onsuz da hərbi sahədə əməkdaşlıq edir, ehtiyac yaranarsa və Azərbaycandan belə bir müraciət olarsa, Türkiyə bunu açıq şəkildə qəbul edəcək. Bu barədə qəti qərarı Türkiyə Prezidenti də ilk gündən ifadə etmişdir. Azərbaycanın da buna ehtiyacı yoxdur".
- Rusiyanın Xarici İşlər naziri S.Lavrov Moskvada Azərbaycanın Xarici İşlər naziri C.Bayramov və Ermənistanın Xarici İşlər naziri Z.Mnatsakanyanla görüşdü.
- "Amnesty International" beynəlxalq təşkilatı Ermənistan və Azərbaycanı dinc sakinlərin yaşadığı bölgələrə top atəşini və ballastik raketlərdən istifadəni dərhal dayandırmağa çağırdı.
- Təşkilatın ekspertləri sübutları araşdıraraq belə bir açıqlama yaydılar: "Sübutlar göstərir ki, son günlərdə beynəlxalq hüquq normalarını pozaraq ballistik raketlərdən və hədəf həssaslığı olmayan top raketlərindən istifadə olunması dinc əhalinin ölməsinə və yaralanmasına, eyni zamanda genişmiqyaslı zərərə səbəb olur".

### 22 OKTYABR 2020

- Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanla İran sərhədindəki ərazilərin Ermənistanın işğalından tamamilə qurtarıldığını bildirdi.
- Zəngilanın bir çox kəndləri və Ağbənd qəsəbəsi, Cəbrayıl və Füzulinin bəzi kəndləri geri alındı.
- Azərbaycan əsgərləri Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlının bir çox kəndlərini düşmən tapdağından azad etdi.
- Azərbaycanın İranla sərhədinin işğal atında olan 132 kilometrlik sahəsi 27 il sonra təkrar Azərbaycanın nəzarətinə keçdi.








## 23 OKTYABR 2020

- Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidov Qubadlı cəbhəsində şəhid oldu.
- Strateji nöqtələrdəki 20 kəndin və bir qəsəbənin işğaldan azad olunmasıyla Ermənistan qüvvələrinin cənub cəbhə xətti tamamilə dağıdıldı.
- Türkiyə Prezidenti R.T.Ərdoğan sülh danışıqlarında Türkiyənin də iştirakı ilə bağlı açıqlamasında deyir: "Minsk qrupu–ATƏT əməkdaşlığında Türkiyənin də ATƏT-ə üzv ölkə kimi yeri var və bu vaxtacan Minsk üçlüyü, təəssüf ki, heç bir nəticəyə nail olmayıb. Azərbaycan haqlı tələbini ortaya qoyur və bildirir ki: "Ermənistan Rusiyanı təklif edirsə, biz də Türkiyəni təklif edirik". Ona görə də sərhədlərin təhlükəsizliyi məsələsində Türkiyə də Rusiya ilə bərabər iştirak etməlidir..." – söylədi.

## 24 OKTYABR 2020

- Prezident İlham Əliyev Azərbaycanın təkcə Türkiyədən deyil, Rusiya, Ukrayna, İran, Belarus və İsraildən də silah satın aldığını bildirdi. Ermənistanın Rusiyadan pulsuz silah aldığını söyləyən dövlət başçısı: "İndi yeganə vacib məsələ Ermənistanın döyüşü dayandırmasıdır, diplomatlar bundan sonra dövrəyə girəcək", – dedi.
- Ermənistanın Xarici İşlər naziri Mnatsakanyan "CNN" telekanalına verdiyi müsahibədə jurnalist Kristian Amanpurun suallarına cavab verə bilmədi. Söhbət əsnasında Ermənistan hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından həmişəlik çəkilməsi haqqında BMT-nin 4 qətnaməsinin niyə yerinə yetirilməməsi ilə bağlı Amanpurun verdiyi sualın cavabında erməni nazir ölkəsinin təcavüzkar və işğalçı mövqeyini əsaslandıra bilmədi.
- Qarabağda Azərbaycan əsgərləri tərəfindən saxlanılan işğalçı erməni əsgərinin etirafı videoyazıda əksini tapdı. Erməni əsgər PKK terrorçularının döyüşmək üçün əraziyə gətirildiyini, ermənicə bilməyən bu muzdluların hər birinə 600 Amerika dolları ödənildiyini etiraf etdi.

## 25 OKTYABR 2020

- Azərbaycan və Ermənistan ABŞ-da baş tutan görüşdən sonra atəşkəs barədə təkrar razılaşma imzaladılar. Oktyabrın 26-da, yerli vaxtla 08:00-da humanitar atəşkəs elan edildi.
- Ermənistan üçüncü dəfə elan edilən atəşkəsi də pozdu. Erməni əsgərləri Laçında olan Azərbaycan əsgərlərinə və Tərtərin dinc sakinlərinə atəş açdılar. Bəzi mülki binalara atılan misket bombası nəticəsində bir çox dinc sakin həyatını itirdi.
- Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarına da atəş açıldığı bildirildi.

## 26 OKTYABR 2020

- Azərbaycan ordusu Qubadlı rayonunun bəzi kəndlərini, Zəngilan və Cəbrayıl rayonlarının bir çox kəndlərini işğaldan azad etdi.
- Türkiyənin "F-16" təyyarələrindən istifadə olunması barədəki iddialara açıqlama gətirən Prezident İlham Əliyev: "Manevr üçün gətirildilər, hələlik istifadə olunmurlar. Əgər Azərbaycana xaricdən müdaxilə olarsa, türk "F-16"-larını səmada görəcəksiniz", – dedi.

## 27 OKTYABR 2020

- Azərbaycan tərəfi Bərdə şəhəri yaxınlığında dinc əhalinin yaşadığı bir kəndi Ermənistanın misket bombası ilə vurduğunu açıqladı. Biri uşaq olmaqla dörd dinc sakinin həyatını itirdiyi, 13 nəfərin isə yaralandığı bildirildi.
- ABŞ-ın Xarici İşlər naziri Pompeo Ermənistan və Azərbaycan liderlərini düşmənçiliyə son qoymağa və Dağlıq Qarabağ probleminin diplomatik həllini axtarmağa çağırdı. ABŞ-ın Xarici İşlər Nazirliyindən verilən açıqlamada Pompeonun Ermənistanın Baş naziri Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevlə ayrı-ayrılıqda telefonla söhbət etdiyi bildirildi.
- Rusiya Prezidenti Putin və Türkiyə Prezidenti Ərdoğan arasında telefon danışığı baş tutdu. Danışıqlardan sonra Kremldən verilən açıqlamada Putinin "Dağlıq Qarabağdakı atışmadan narahatlığını dilə gətirdiyi" bildirildi.
- Ağ Evdə jurnalistlərin suallarını cavablandıran ABŞ Prezidenti Tramp atəşkəs imzalanmasına baxmayaraq döyüşlərin davam etməsi ilə bağlı: "Bunu görmək məyusedicidir. İki ölkə çox uzun zaman belə problem baş verəndə vəziyyət bu cür olur. Vəziyyət düzələcəkdir", – dedi.

## 28 OKTYABR 2020

- Azərbaycan ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının bəzi kəndlərini azad etdi.
- Azərbaycanın rəsmi xəbər agentliyi "AzərTAc" Dağlıq Qarabağdakı 13 kəndin yenidən Azərbaycanın nəzarətinə keçdiyini bildirdi.
- Prezident İlham Əliyev sosial mediadan paylaşdığı statusda bildirdi: "Müzəffər Azərbaycan ordusu Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndlərini, Füzuli rayonunun Mandlı kəndini, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular və Qaraağac kəndini, Qubadlı rayonunun Qiyaslı, Ədilcə və Qılıcan kəndlərini işğaldan azad etdi".
- Azərbaycanın rəsmi mənbələrinə görə, Bərdə şəhərinə endirilən raket zərbəsi zamanı 27 nəfər öldü, 70-dən artıq şəxs yaralandı.



## 29 OKTYABR 2020

- Rusiya Prezidenti Putin Dağlıq Qarabağda təcili atəşkəs elan edilməsinin və Sülh danışıqlarında Türkiyə də daxil olmaqla bir çox ölkələrin tövsiyələrinin dəyərləndirilməsinin vacibliyini qeyd etdi.
- Azərbaycan ordusu Qubadlı istiqamətindəki mövqelərinə hava hücumuna cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus iki "Su-25" qırıcı təyyarəsini vurdu.

ERMƏNİ ORDUSUNUN MÜLKİ ƏHALİ ARASINDA ÇOXSAYLI ÖLÜMLƏRLƏ NƏTİCƏLƏNƏN HÜCUMLARI DAĞLIQ QARABAĞDA BÖYÜK FACİƏLƏRƏ SƏBƏB OLDU













AZƏRBAYCAN ORDUSU TƏCAVÜZKAR ERMƏNİSTANIN LAYİQLİ CAVABINI VERDİ

## 30 OKTYABR 2020

- Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bəzi kəndləri işğaldan azad edildi.
- Prezident İlham Əliyev sosial media hesabından etdiyi paylaşımda bildirdi: "Müzəffər Azərbaycan ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli və Xubyarlı, Zəngilan rayonunun Aladin və Vejnəli, Qubadlı rayonunun Qavdadık, Məmər, Mollalı kəndlərini işğaldan azad etdi".

## 31 OKTYABR 2020

- Rusiyanın Xarici İşlər Nazirliyi Ermənistanın Baş naziri Paşinyanın Rusiyadan təkrar yardım istəməsinə cavab olaraq döyüşlərin Ermənistan torpağında getmədiyini xatırlatdı.
- Azərbaycan ordusu Dağlıq Qarabağda sentyabrın 27-də başlanan hərbi əməliyyatlar nəticəsində 4 şəhər mərkəzi, 3 qəsəbə və 200-ə qədər kənd və bəzi əhəmiyyətli yüksəklikləri işğaldan azad etdiyini bildirdi.

## 1 NOYABR 2020

- Azərbaycan Müdafiə Nazirliyi döyüşlər başlayandan bəri ilk dəfə qırıcı təyyarədən istifadə etdiklərini açıqladı. Hava hücumları "Su-25"-lər vasitəsilə həyata keçirildi.

## 2 NOYABR 2020

- Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının kəndləri işğaldan azad edildi.
- Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesabından etdiyi paylaşımda bildirdi: "Müzəffər Azərbaycan ordusu Cəbrayıl rayonunun Çapand, Hacı İsaqlı, Qoşabulaq kəndlərini, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndlərini, Qubadlı rayonunun İşıqlı, Muradxanlı və Milanlı kəndlərini işğaldan azad etdi".

## 3 NOYABR 2020

- Azərbaycan Müdafiə Nazirliyinin verdiyi açıqlamada döyüşlərin əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam etdiyi bildirildi.
- Son 24 saatda cəbhənin fərqli istiqamətlərində Ermənistan ordusuna məxsus 4 "Qrad" raket sisteminin, 1 KUB zenit təyyarə sisteminin, 9 fərqli növ topun, sursat dolu 2 yük maşınının məhv edildiyi, çoxlu sayda hərbçilərin zərərsizləşdirildiyi qeyd edildi.

## 4 NOYABR 2020

- Cəbrayıl rayonunun Mirək və Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı və Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər və Qaracallı kəndləri işğaldan azad olundu.





## 5 NOYABR 2020

- Azərbaycan mənbələrindən verilən açıqlamada 27 oktyabr–5 noyabr tarixləri arasında 92 mülki vətəndaşın həlak olduğu, 404 nəfərin də yaralandığı bildirildi.
- Ermənistanın açdığı atəş nəticəsində 2971 ev, 100 binanın və 502 ictimai obyektin yararsız vəziyyətə düşdüyü açıqlandı.
- İlham Əliyev Azərbaycan ordusunun daha 7 kəndi erməni işğalından azad edildiyini bildirdi.
- Azərbaycan dinc sakinləri hədəfə aldığı hücumlara görə Ermənistanı Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) verdi.

## 6 NOYABR 2020

- Azərbaycan Müdafiə Nazirliyinin verdiyi açıqlamada Tərtərin işğal altındakı Göyarx kəndində yerləşən Ermənistan ordusuna məxsus mərmiatanın atəş nöqtələrinin susdurulduğu bildirildi.
- Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev ermənilərin işğal altında saxladıqları Qubadlının Məmər kəndindəki məsciddən donuz tövləsi kimi istifadə etdiklərini bildirdi.

## 7 NOYABR 2020

- Dağlıq Qarabağdakı əsas strateji nöqtələr işğaldan azad olundu. Azərbaycan ordusu son günlərdəki əməliyyatları ilə böyük uğurlar əldə etdi.
- Füzuli rayonunun kəndləri, Cəbrayıl rayonunun bir neçə kəndi, Qubadlı rayonunun kəndləri, Zəngilan rayonunun kəndləri və Xocavənd rayonunun bəzi kəndləri geri alındı.



MƏĞLUBİYYƏTƏ UĞRAYAN ERMƏNİ ORDUSUNA AİD YARARSIZ VƏZİYYƏTƏ SALINMIŞ TANK



İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN MİNALARDAN TƏMİZLƏNMƏSİ

## 8 NOYABR 2020

- Təməli Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş, Dağlıq Qarabağın işğaldan azad edilməsində xüsusi əhəmiyyət daşıyan, təkcə Qarabağın deyil, bütün Azərbaycanın mədəniyyət mərkəzi olan, türk mədəniyyət tarixində önəmli yer tutan Şuşa şəhəri azad edildi.
- Prezident İlham Əliyev: “Şuşanın Azərbaycan tarixində xüsusi yeri var. Şuşa sadəcə Azərbaycanın deyil, bütün Qafqazın incisidir. 28 ildən sonra Şuşada azan səsi eşidiləcək”, – dedi.
- Füzuli, Xocalı, Xocavənd, Cəbrayıl, Qubadlı, Zəngilan və Laçının 70-dən artıq kəndi və Zəngilanın Bartaz qəsəbəsi işğaldan azad edildi.
- 8 strateji yüksəklik də Azərbaycanın nəzarətinə keçdi.

## 10 NOYABR 2020

- Ermənistanın təslim aktını imzalamağa məcbur olmasıyla saat 00:00-dan etibarən müharibə dayandırıldı.
- Prezident İlham Əliyev Azərbaycanın şanlı zəfər qazandığını və torpaqların işğaldan azad olunduğunu bildirdi. İlham Əliyev müqavilənin həyata keçirilməsinə nəzarət etmək üçün qurulacaq monitorinq mərkəzində Türkiyənin Rusiya ilə birgə yer alacağını qeyd etdi.









# Prezident İlham Əliyev M.K.Atatürkə hörmət əlaməti olaraq "Zəfər Günü" bayramının tarixini iki gün əvvələ çəkdi

Azərbaycanda Prezident sərəncamıyla Qarabağ torpaqlarının işğaldan azad olunması münasibətilə elan edilən Zəfər bayramının vaxtı (10 noyabr) iki gün əvvələ – noyabrın 8-nə çəkildi.

Bu tarixin Türkiyədə ulu öndər Mustafa Kamal Atatürkün Anım Günü olduğunu nəzərə alaraq Azərbaycanda "Zəfər Günü"nün noyabrın 8-də qeyd ediləcəyini bildirdi və Atatürkün Azərbaycan xalqı üçün də öndər olduğu vurğulandı.



# ERMƏNİSTAN HƏRBİ BİRLƏŞMƏLƏRİNİN DİNC ƏHALİYƏ HÜCUMLARI

ERMƏNİSTAN HƏRBİ BİRLƏŞMƏLƏRİNİN DİNC ƏHALİYƏ HÜCUMLARI

DAĞLIQ QARABAĞ MÜHARİBƏSİNİN DİNC ƏHALİYƏ TƏSİRİ

# ERMƏNİSTAN HƏRBİ ÜNSÜRLƏRİNİN DİNC ƏHALİYƏ HÜCUMLARI

27 sentyabr 2020-ci ildə Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında – Dağlıq Qarabağda başlayan müharibə zamanı dinc sakinləri və mülki yaşayış yerlərini də hədəf seçdi. Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi hücumlarda 12-si uşaq (biri 1 yaşında körpə), 27-si qadın olmaqla 94 dinc sakin həlak oldu və 414 nəfər mülki şəxs yaralandı. Ermənistan ordusu Azərbaycandakı mülki əhaliyə ciddi zərər verən bəzi silahlardan və hərbi vasitələrdən istifadə etdi. Rəsmi İrəvan 28 il əvvəl yaşananlara bənzər bir şəkildə hərbi cinayətlər törətməyə və beynəlxalq hüququ tapdalamağa davam etdi.

2020-ci il sentyabrın 27-də, səhər Ermənistan atəşkəsi pozaraq cəbhə xəttindəki Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini ağır silahlardan atəşə tutdu. Erməni silahlı qüvvələri cəbhə xəttindən xeyli aralıda yerləşən Gəncə, Mingəçevir, Xızı, Şəmkir və Abşeron kimi şəhərləri də hədəfə aldı[2]. Oktyabrın 17-də Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə və Mingəçevir kimi cəbhə xəttindən xeyli uzaqda yerləşən ərazilərə də raket ataraq 15 dinc sakininin ölümünə, uşaqlar daxil 55 nəfərin yaralanmasına səbəb oldu.[3] Bununla yanaşı, azərbaycanlı dinc sakinlərə yönəlmiş hücumlarda Ermənistan ordusu "79M Tochka-U" taktik ballastik raketlərdən[4] istifadə etdi.[5]

1 Hande Hazneci, "Azerbaycan-Ermenistan Savaşında Ermenistan Silahlı Kuvvetleri Tarafından Gerçekleştirilen İnsan Hakları İhlallerine İlişkin Rapor", *Kamu Denetçiliği Kurumu Yayınları*, № 37, noyabr 2020, s. 24.

2 "BM'den Dağlık Karabağ'da savaş suçu uyarısı", *DW*, 3 noyabr 2020.

3 "Ermenistan ordusu Azerbaycan'ın Gence ve Mingeçevir kentlerine füze saldırısı düzenledi: 13 sivil hayatını kaybetti", *Anadolu Ajansı*, 17 oktyabr 2020.

4 Rusya üretimi olan taktik 79M Tochka-U füzesi kimyasal ve nükleer başlıklar taşıma özelliğine sahip olup, bu silahların sivillere karşı kullanılması savaş suçu sayılmaktadır. (Uğur Yıldırım, "İşte Ermenistan'ın savaş suçu işlediğinin belgesi", *Sabah*, 14 oktyabr 2020.)

5 Yücel Acer, "Ermenistan'ın Savaş Suçları-Uluslararası Hukuk ve Ermenistan'ın Karabağ'a Dair Askerî Faaliyetleri", *SETA-Analiz*, oktyabr 2020, sayı 337, s. 12.







ERMƏNİSTAN ORDUSUNUN AZƏRBAYCANIN TƏRTƏR ŞƏHƏRİNDƏ DƏFN MƏRASİMİNİ ATƏŞƏ TUTMASI NƏTİCƏSİNDƏ HƏLAK OLANLAR, İKİNCİ BİR HÜCUM EHTİMALI NƏZƏRƏ ALINARAQ AXŞAMÇAĞI TORPAĞA TAPŞIRILDI. (15 OKTYABR 2020)

Beynəlxalq hüquq və insan hüquqları dinc sakinlərin və mülki yaşayış yerlərinin hədəfə alınmasını tamamilə qadağan edir. Müharibənin cəbhə xəttindən kənarda dinc yaşayış yerlərinə yayılması Azərbaycanda ciddi insan fəlakətlərinə səbəb oldu. Ermənistan Azərbaycanın mülki yaşayış yerlərini vurmaq üçün bilərəkdən beynəlxalq müqavilələrlə qadağan olunmuş silahlardan istifadə etdi.

Ermənistan ordusu dinc yaşayış məskənlərinə zərbələr endirərkən onun hədəfində ambulanslar, tibb məntəqələri, məktəblər; elektrik, qaz, su təsisatları və digər həyati əhəmiyyətli obyektlər də vardı.[1] Bu hücumlarla bağlı BMT Baş katibinin sözçüsü Farhan Haq: "Dinc sakinlərin yaşadığı ərazilərin hədəf alınmasını və hər cür hücumu şiddətlə qınayırıq"[2] məzmunlu açıqlama verdi.

Bununla yanaşı, Ermənistan silahlı qüvvələrinin jurnalistləri döyüşçülərdən seçmək üçün lazımi tədbirlər görmədiyi və əsgərlərin jurnalistlərə məxsus geyimdə hərbi əməliyyatlarda iştirak etdikləri bildirildi.

Ermənistan ordusunun həddi-büluğa çatmayan uşaqlardan Azərbaycana qarşı döyüşlərdə əsgər kimi istifadə etməsi ilə bağlı[3] fakt aşkar edildi.

1 Bax: əvvəlki, s. 13.

2 "Highlights of the Noon Briefing by Farhan Haq, Spokesperson For Secretary-General António Guterres", *BM resmî sitesi*, 2 noyabr 2020.

3 Yücel Acer, "Ermenistan'ın Savaş Suçları-Uluslararası Hukuk ve Ermenistan'ın Karabağ'a Dair Askerî Faaliyetleri", s. 12-13.







ERMƏNİSTAN ORDUSU UZAQ MƏNZİLLİ RAKETLƏRLƏ CƏBHƏ XƏTTİNDƏN UZAQLARDA MƏSKUNLAŞMIŞ MÜLKİ ƏHALİNİ HƏDƏF ALDI

# DAĞLIQ QARABAĞ MÜHARİBƏSİNİN DİNC ƏHALİYƏ TƏSİRİ

Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Dağlıq Qarabağda döyüşlərdən ən çox zərər görənlər yurd-yuvasını itirmiş dinc sakinlər oldu. Müharibənin başlanmasından sonra Füzuli, Gəncə, Bərdə, Ağdam, Tərtər, Goranboy, Ağcabədi və Sumqayıtda 58.813 nəfər[1] ev-eşiyindən məhrum oldu.

Müharibə başa çatdıqdan sonra yurd-yuvasından didərgin düşmüş şəxslərin böyük əksəriyyətinin öz evlərinə qayıdacağı gözlənilir. 220.500[2] nəfərin məskunlaşdırılması nəzərdə tutulur.

| Bölgə | Köçkünlərin sayı | Köçkün ailələrin sayı |
|---|---|---|
| Füzuli | 6.027 | 1.205 |
| Gəncə | 1.554 | 311 |
| Bərdə | 15.452 | 3.090 |
| Ağdam | 6.949 | 1.390 |
| Tərtər | 11.200 | 2.240 |
| Goranboy | 4.000 | 800 |
| Ağcabədi | 12.018 | 2.404 |
| Sumqayıt | 1.113 | 223 |
| **Cəmi** | **58.313** | **11.663** |

MƏNBƏ: TÜRK KIZILAYI

1 Köçkünlərlə bağlı məlumatlar Azərbaycan Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinə istinadən verilmişdir.

2 "Azerbaijan: Nagorno-Karbakh Conflict", *IOM Situation Report*, 30 oktyabr 2020 s. 1





ERMƏNİSTAN AZƏRBAYCAN CƏBHƏ XƏTTİNDƏ ERMƏNİSTAN ORDUSUNUN AĞIR SİLAHLARLA HÜCUMU NƏTİCƏSİNDƏ ÇOXSAYLI EVLƏR DAĞIDILDI

Köçkünlərin hüquqlarının bərpası Azərbaycan Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə aparılan görüşlər nəticəsində əldə edilmişdir.

İnsanların ev-eşiklərindən olması bir sıra sosial-iqtisadi problemlərə yol açır. Azərbaycanda döyüşlərdən zərər görmüş bölgələrdə xüsusən bombardmanlar və raket zərbələri ailələrə ciddi təsir göstərib və müdafiə olunmaq ehtiyacı yaradıb. Son bombardmanlardan və raket zərbələrindən 100-ə yaxın Azərbaycan türkünün öldürüldüyü qeyd olunmuşdur. 400-dən çox azərbaycanlı yaralanıb. Beləliklə, təxminən 200 ailənin zərər çəkdiyini[1] söyləmək olar. Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) yaydığı bir məlumatda Dağlıq Qarabağ və sərhədində Azərbaycan türklərinə məxsus 2.442 ev, 92 bina və 428 ictimai binanın zədələndiyi və ya dağıldığı[2] bildirildi.

Ölkədəki insani ehtiyaclar əsas xidmətlərdən təhlükəsizliyə qədər müxtəlif sahələri əhatə edir. Xüsusilə də işğaldan azad olunan bölgələrə dinc əhalinin qayıtmasından öncə həmin ərazilər minalardan təmizlənməli, döyüşlərdən zərər çəkən dinc əhaliyə qida yardımı (və ya nağd pul yardımı), tibbi xidmət və s. göstərilməlidir. Müharibədən sarsıntı keçirmiş uşaqlara və qadınlara psixoloji dəstək verilməsi də ən vacib tədbirlər sırasındadır.

1 Mənbə: Türk Kızılayı.

2 "Azerbaijan: Nagorno-Karbakh Conflict", *IOM Situation Report*, 30 oktyabr, 2020 s. 1.











ERMƏNİSTAN–AZƏRBAYCAN CƏBHƏ XƏTTİNDƏ ERMƏNİSTAN ORDUSUNUN AĞIR SİLAHLARLA HÜCUMU NƏTİCƏSİNDƏ ÇOXSAYLI İNSAN HƏLAK OLDU




Ermənistanın mülki yaşayış məntəqələrinə

# hücumları

*Ermənistanın Gəncə, Tərtər, Beyləqan və Horadiz şəhərlərində mülki yaşayış məntəqələrinə hücumu zamanı*

**94 mülki vətəndaş**
həlak oldu

**414 mülki vətəndaş**
yaralandı

**428 biznes mərkəzi**
dağıdıldı

**2442 ev və 92 bina**
zərər gördü və ya dağıldı

*2 noyabr 2020*



# QARABAĞ ZƏFƏRİ VƏ BEYNƏLXALQ İŞTİRAKÇILAR

ÜMUMİ DƏYƏRLƏNDİRMƏ VƏ BEYNƏLXALQ İCTİMAİYYƏTİN MÖVQEYİ



# ÜMUMİ DƏYƏRLƏNDİRMƏ

Qarabağ zəfəri öz iradəsini nümayiş etdirən Azərbaycan xalqının Ermənistan tərəfindən qəsb edilmiş torpaqlarını otuzillik işğaldan azad etməsi hekayətidir.

Prezident İlham Əliyevin ağıllı strategiyası və Azərbaycan ordusunun uğurlu əməliyyatları ilə Azərbaycan qələbə qazandı. Münaqişənin diplomatik yolla həllini otuz il gözləyən Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq torpaqlarının geri qaytarılması üçün mübarizə aparmalı oldu və II Qarabağ müharibəsini qələbə ilə başa vurdu.

Bu qələbə Azərbaycanı diplomatik və siyasi cəhətdən gücləndirdi, həm də Türkiyə üçün yeni strateji qazanclar və imkanlar yaratdı.

Ermənistanın hücumuna cavab olaraq öz vətəndaşlarını qorumaq və otuzillik işğala son qoymaq üçün Azərbaycan 27 sentyabrda başladığı hərbi əməliyyatla 298 yaşayış məntəqəsini azad etdi. Müharibənin sonuna yaxın "Azərbaycanın mədəni paytaxtı və Qarabağın ürəyi" kimi tanınan Şuşa şəhərinin işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyəti qəbul etməli oldu. Şuşanın bölgə mərkəzindən cəmi 15 kilometr məsafədə olması və Qarabağın dağlıq hissəsi ilə Ermənistanı birləşdirən əsas yolun üzərində yerləşməsi mühüm strateji əhəmiyyətə malikdir. Kənardan kifayət qədər dəstək ala bilməyən Ermənistanın Baş naziri Paşinyan məğlubiyyəti qəbul etdi və müharibə Azərbaycanın qələbəsi ilə başa çatdı. 44 günlük müharibədə diplomatik müstəvidə fəal rol alan Türkiyə və Rusiya kimi ölkələrdən fərqli olaraq, Fransa istisna olmaqla, Avropa ölkələri, müxtəlif amillər səbəbiylə, əsasən, passiv bir siyasət nümayiş etdirdi.





Müharibə 10 noyabrda Ermənistanın məğlubiyyəti ilə başa çatdı. Şübhəsiz ki, Qafqazda bu yeni vəziyyətin yaranmasında Türkiyə böyük rol oynadı. Bu müharibə yalnız Azərbaycanın otuz il əvvəl işğal olunmuş ərazilərinin geri alınması ilə deyil, bütün bölgədə, regional və qlobal miqyasda hiss olunacaq geosiyasi və iqtisadi nəticələri ilə də əlamətdardır.

Qafqazdakı bu yeni vəziyyət Türkiyənin Türk dünyası ilə birbaşa quru yol əlaqəsinin yaranması ilə nəticələnəcək və böyük iqtisadi və geosiyasi faydaları olacaq.[1] Türkiyə ilə Azərbaycan arasında İğdırdan başlayaraq Bakıya çatan quru yolu 927 km-dir.[2] Yeni avtomobil yolu ilə bu məsafə təxminən 640 km-ə enəcək. Beləliklə, bu yol daha qısa olub daha az xərcə başa gələcək.[3] Bununla yanaşı, ticarətin və hər cür gömrük prosedurlarının azalacağı ilə də yeni imkanlar yaranacaq. Bu marşrutla Türkiyənin Azərbaycana, Türk dünyasına və Orta Asiyaya birbaşa çıxışı təmin ediləcək.[4] İstanbuldan Azərbaycana, oradan da Orta Asiyaya və Çinə yeni bir strateji xətt qurmaq mümkün olacaq. Beş ölkəni yaxından maraqlandıran Azərbaycan–Naxçıvan dəhlizinin qurulması Azərbaycanla Türkiyəni quru yolla birləşdirəcək.[5] Bu dəhliz başda Azərbaycan olmaqla bölgədəki digər ölkələrin Avropaya az xərclə mal daşımasına imkan yaradacaq, sərhəddə yerləşən Ağrı, Ərdəhan, İğdır və Qars şəhərlərinə də iqtisadi fayda verəcəkdir.[6] Şimal–Cənub nəqliyyat dəhlizi və planlaşdırılan Qars–İğdır–Naxçı-

---

1 "Azərbaycan Prezidenti İlham Əliyev: Yeni nəqliyyat dəhlizi regiona yeni imkanlar gətirəcək". Anadolu Agentliyi, 7 yanvar 2021-ci il.

2 "Naxçıvanla Azərbaycanın digər ərazilərini birləşdirəcək avtomobil yolu açılmalıdır". "Yeni Şafak", 19 oktyabr 2020-ci il.

3 "Qarabağın zəfəri Türkiyə xarici siyasətinin 2020-ci ildəki ən böyük nailiyyəti oldu". Anadolu Agentliyi, 30 dekabr 2020-ci il

4 "Qars–İğdır–Naxçıvan xətti Türk dünyasını birləşdirəcək". "TRT News", 14 noyabr 2020.

5 "Qarabağ müharibəsi və Türkiyə üçün yeni iqtisadi imkanlar". İRNA, 13 yanvar 2021.

6 "Ermenistan kabul etti: Azerbaycan ile Türkiye birleşecek, dört il ihya olacak", *Yeni Şafak*, 4 dekabr 2020.





van dəmir yolu beynəlxalq yüklərin Avropaya daşınmasında da əhəmiyyətli rol oynayacaq. Bundan əlavə, Naxçıvandan Türkiyəyə uzanan 343 km yol turist axınını da artıracaq[1].

Yaranacaq dəhliz Rusiyanın da Türkiyəyə çıxışını asanlaşdıracaq. Rusiya ilə Türkiyə arasında illik ticarət həcmi 25 milyard dolları keçsə də[2], görüləcək işlərin tutumunu nəzərə alsaq, yolun qısaldılması Türkiyə və Rusiyanın xeyrinə olacaq. Bu yeni dəhliz yükdaşımalara, ticarətə də öz təsirini göstərəcək.

Azərbaycan ordusunun müharibədə qalib gəlməsi nəticəsində, şübhəsiz ki, Qafqazda yeni status-kvo yaranmışdır. Qarabağdakı qələbə Azərbaycanda həmrəyliyi gücləndirmiş və Bakı rəhbərliyinin xarici siyasətdə özünə inamını artırmışdır. Xarici güclərə qarşı çətin sınaqdan keçən Türkiyə–Azərbaycan birliyi iki ölkə arasındakı münasibətləri yeni bir müstəviyə daşımışdır. Azad edilmiş torpaqların yenidən qurulması Ankara ilə Bakı arasında iqtisadi əlaqələri daha da gücləndirəcəkdir.

Azərbaycanın Qarabağda düşmənə 44 gündə qalib gəlməsi ilə bölgədə yeni bir güc mərkəzi meydana çıxmışdır. Bu qələbə bölgədə türk dövlətlərinin əməkdaşlığına imkanlar yaradır. Mövcud vəziyyət Qərbi, Rusiyanı, Çini, Türkiyəni, İranı özündə birləşdirən və Qafqazın hüdudlarını aşan yeni bir geosiyasi güc mərkəzi qurmağa imkan verir. Bir tərəfdən yeni enerji xətləri, digər tərəfdən Çinin kəmər və yol layihəsi qüvvələr nisbətini tarazlayacaqdır.

1 "Dağlık Karabağ'da yeni dönem: Bölgede hayat yeniden canlanacak", *Yeni Şafak*, 1 dekabr 2020.

2 "Türkiye ekonomisi açısından Rusya ile ticari ilişkiler ne kadar önemli?" *BBC Türkçe*, 10 fevral 2020.





İmzalanmış üçtərəfli bəyanatla başa çatan müharibədən sonra məğlubiyyətin əsas səbəbkarı kimi Paşinyan Ermənistanda ciddi tənqidlərə məruz qaldı. Ermənistan paytaxtındakı Azadlıq meydanında minlərlə qəzəbli etirazçı "Nikol xaindir!" və "Nikol, get!" şüarlarını səsləndirdi[1]. Üstəlik, Paşinyanın vəzifəyə hansı yolla gəlməsi, Qarabağ böhranı və pandemiya dövründə yaşanan iqtisadi problemlər Ermənistanın vəziyyətini daha da ağırlaşdırdı.

XIX əsrdən bu yana Cənubi Qafqazda qlobal aktyorların, xüsusən də Rusiyanın hegemonluğu bölgədə bir çox həll edilməmiş problemlərin mövcudluğunu şərtləndirirdi[2]. Şübhəsiz ki, bu problemlərin günümüzə qədər qalmasında erməni diasporunun dünyada apardığı təbliğatın rolu böyükdür. Diaspor 44 günlük müddət ərzində çox sərt və radikal addımlar atdı. Qarabağ müharibəsi haqqında iki mahnı hazırlayaraq Ermənistana dəstək verən dünyaca məşhur erməni-amerikalı musiqi qrupu "System Down a Down"-un açıqlamasında: "Mahnılarımızda Qarabağ və Ermənistan haqqında

1 "Ermenistan'da Siyasi Kaos Derinleşiyor", *Anadolu Ajansı-Analiz*, 26 noyabr 2020.

2 Toğrul Aliyev, *Dağlık Karabağ Sorunu ve Uluslararası Örgütler*, Yayımlanmamış Yüksek Lisans Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Iyun 2006.




QARABAĞ ZƏFƏRİNDƏN SONRA BAKIDA KEÇİRİLƏN QƏLƏBƏ PARADI

danışdıq. Dəstəyinizi gözləyirik[1]. Yardım Qarabağda və Ermənistanda ehtiyacı olanlara və əsgərlərə sərf olunacaq" ifadələri yer almışdır[2]. "Torpağı qoru" mahnısında Ermənistan qurban kimi təqdim edilir, Azərbaycan və Türkiyə ittiham edilir. "Genocidal Humanoidz" mahnısında isə türklərə qarşı açıq şəkildə irqçilik siyasəti aparılır. Bu mahnılarda millətlərin duyğuları ilə oynayaraq Türkiyə və Azərbaycana qarşı nifrət hissləri aşılanır.

Erməni diasporunun Ermənistan üzərində təsiri davam etdikcə İrəvan rəhbərliyi münaqişənin siyasi həllini tapmaqda çətinlik çəkəcəkdir. Bununla birlikdə, ölkədə davam edən qeyri-sabitlik Ermənistanın xarici siyasətdə mövqeyini zəiflətmişdir. Diasporun Ermənistandakı real vəziyyətə uyğun olmayan tələbləri İrəvan hökumətini Qarabağ müharibəsində təcavüzkar mövqe tutmağa sövq etdi və məğlubiyyətini sürətləndirdi[3].

Ermənistan rəhbərliyinin barışmaz münasibətinə baxmayaraq 10 dekabr 2020-ci ildə Bakıda keçirilən təntənəli "Qələbə paradı" mərasimində Azərbaycan Prezidentinin "Türkiyə–Rusiya–İran–Azərbaycan–Gürcüstan və istəsə, Ermənistanın da daxil olduğu bir platforma qura bilərik" deməsi Azərbaycanın müharibədən sonra da konstruktiv mövqe tutacağından xəbər verir[4]. Türkiyə prezidenti Ərdoğanın da dəstəklədiyi bu təşəbbüs Qafqazda yeni bir dövrə qapı aça bilər. Həmin layihənin reallaşması, şübhəsiz ki, regional sülhə və əməkdaşlığa töhfə verəcək.

---

1 Şevval Beste Gökçelik, "2020 Dağlık Karabağ Savaşının Ermenistan ve Diasporadaki Yansımaları", *AVİM*, 25 noyabr 2020.

2 Bax: əvvəlki

3 Bax: əvvəlki

4 "Altılı platform kalıcı barışın teminatı olabilir", *Anadolu Ajansı*, 18 dekabr 2020.











44 günlük müharibədə fəal rol oynayan Türkiyə və Rusiyadan fərqli olaraq (Fransa istisna olmaqla, Aİ ölkələri və ABŞ, ümumiyyətlə, müharibə ərzində passiv siyasət yürütmüşlər. Bir çox ölkə oradakı hadisələrə biganə qalmış və prosesi izləməklə kifayətlənmişdir. Təbii ki, bu laqeydliyin bir çox səbəbi ola bilər. Halbuki 30 ilə yaxın davam edən və bütün bölgənin sabitliyinə təsir edərək qarşıdurmaya çevrilən ərazi probleminin həllində beynəlxalq qurumlardan daha fəal münasibət gözləmək olardı.

Coğrafi baxımdan bölgədən uzaq olan və bu münaqişənin tərəfləri arasında yer almayan Avropa ölkələri Türkiyə və Rusiya qədər təsirli olmayacaqlarını düşünərək Qarabağ məsələsində aktiv mövqe tutmaqdan çəkindilər. Fransa bu münaqişədə Aİ ölkələri arasında Azərbaycana qarşı təcavüzkar mövqe tutsa da, uğur qazana bilmədi. Ermənistanın münaqişə bölgəsindən yüz kilometrlərlə uzaqda yerləşən Azərbaycan şəhərlərini hədəf alaraq dinc yaşayış yerlərini bombalaması Azərbaycan və Türkiyədə xalqın qəzəbinə səbəb olmuşdur. Türkiyə–Azərbaycan Dostluq, İşbirliyi və Həmrəylik Vəqfi tərəfindən Fransanın Türkiyədəki səfirliyi qarşısında əlliyə yaxın QHT nümayəndəsi ilə birlikdə Ankarada keçirilən etiraz aksiyasında çıxış edən TADİV prezidenti prof. dr. Aygün Attar Cənubi Qafqaz xalqlarının erməni terrorundan əziyyət çəkdiyi bir vaxtda bəzi xarici ölkə rəsmilərinin təcavüzkar və təcavüzə uğrayanın kimliyinin fərqinə varmadan türk düşmənçiliyini ortaya qoyduğundan narahatlığını ifadə etdi[1].

1 Yunus Mazı-Hacı Mehmet Boyraz, "Avrupa'nın Dağlık Karabağ tutumu", *Anadolu Ajansı-Analiz*, 4 dekabr 2020

2 Bax: əvvəlki





Erməni lobbisinin təsiri altında olan Avropa Parlamentinin bəzi üzvlərinin Azərbaycana qarşı verdiyi açıqlamalarda onların münaqişəyə ikili standartla yanaşdıqları açıq-aydın görünür. İnsan haqlarını tez-tez vurğulayan Avropa ölkələri Ermənistanın mülki əhalini hədəf almasına və atəşkəsi pozmasına göz yummaqla öz təməl prinsiplərinə də xilaf çıxmışlar. Azərbaycan Prezidenti İlham Əliyev: "Niyə səsinizi çıxarmırsınız? Demokratiyanız, insan haqlarınız budurmu? Niyə susursan, Avropa Parlamenti? Özünüzü dünyanın demokratik mərkəzi olaraq görürsünüz. Səsini qaldır, açıqlama ver, qına... Bizi ballistik raketlə vurdular –susdunuz. Misket bombaları və fosfor bombaları ilə vurdular – susdunuz. Özlərini Avropanın lideri kimi görən böyük ölkələr, siz niyə susursunuz?" – deyə Avropanı sərt şəkildə tənqid etdi.[2]

Avropa ölkələrinin 44 gün ərzində "passiv və səssiz" qalmalarının, bəlkə də, ən başlıca səbəbi Qarabağı Azərbaycan ərazisi kimi qəbul etmələridir. BMT 1993-cü ildən Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımışdır. Bəzi Aİ ölkələri danışıq səviyyəsində Azərbaycan əleyhinə mövqe tutsalar da, BMT-nin müvafiq qətnamələri çərçivəsində Azərbaycanın haqqını dana bilmədilər. Ermənistana dəstəyini açıq şəkildə ifadə edən azsaylı liderlərdən biri olan Fransa Prezidenti Makron Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etmək məcburiyyətində qaldı və müharibədən sonra "suveren dövlət tələb etmədiyi halda Qarabağa müdaxilə etmək hüquqlarının olmadığını"[3] bildirdi. Avropa ölkələrinin əksəriyyəti Azərbaycanın Ermənistan üzərində mütləq hərbi üstünlüyünü nəzərə alaraq fəal mövqe tutmaqdan çəkindi və uzunmüddətli maraqlarını riskə atmaq istəmədi.[4]

Aİ, NATO və ATƏT münaqişə prosesi zamanı bölgəyə heç bir müdaxilənin tərəfdarı olmamışdır. Avropa Şurasının Prezidenti Çarlz Mişel və Avropa Şurası Ermənistan və Azərbaycanı Dağlıq Qarabağ bölgəsindəki münaqişəyə dərhal son qoymağa çağırmışdır. 27 sentyabr 2021-ci ildə Mişel Twitter-də dərin narahatlıqlarını dilə gətirmişdir: "Gərginliyin daha da artmasının qarşısını almaq üçün hərbi əməliyyatlar mütləq dayandırılmalıdır. Çıxış yolu heç bir şərt olmadan dərhal danışıqlara qayıtmaqdır".[5]

Aİ-nin qanunverici orqanı olan Avropa Parlamentində bir çox millət vəkilləri erməni diaspor təşkilatlarının da təzyiqi ilə Aİ-yə Dağlıq Qarabağa müdaxilə etmək üçün qərarlar verməyə çalışsalar da uğur qazana bilmədilər. Bəzi Aİ üzvlərinin təzyiqlərinə baxmayaraq Aİ-nin Yüksək nümayəndəsi Jozep Borrell Avropa İttifaqının bu münaqişənin tərəfi olmayacağını və münaqişənin həlli ilə ATƏT-in Minsk qrupunun məşğul olduğunu bildirərək[6] AB-nin rəsmi mövqeyini dəyişməmişdir. ABŞ və Rusiyadan başqa Fransanın da Minsk qrupunun üzvləri arasında olduğunu nəzərə alsaq, Aİ-nin dolayısı ilə də olsa bu məsələnin həlli yönündə məsuliyyəti Fransanın üzərinə qoyduğu anlaşılır.

1 AP'den Ankara'ya sert mesajlar", *DW*, 7 oktyabr 2020.

2 "Prezidentdən beynəlxalq qurumlara sərt mesaj: "Niyə susursan, Avropa Şurası?", Modern.az, 15 noyabr 2020-ci il.

3 Hacı Mehmet Boyraz, "Avrupa'nın Karabağ Tutumu", *Anadolu Ajansı-Analiz*.

4 Bax: əvvəlki

5 "Dağlık Karabağ: Ermenistan Türkiye'yi çatışmalarda Azerbaycan'a askerî destek vermekle suçladı", *BBC Türkçe*, 27 sentyabr 2020.

6 "AB: Dağlık Karabağ sorunu AGİT Minsk Grubu'nun çabalarıyla çözülebilir", *NTV*, 7 oktyabr 2020.




TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARABAĞ QƏLƏBƏSİNDƏN SONRA BAKIDA KEÇİRİLƏN QƏLƏBƏ PARADINI İZLƏDİ

Aİ-nin Qarabağda baş verənlərlə bağlı passiv mövqe tutmasını, son zamanlar Qafqazda yürütdüyü uğursuz siyasət də şərtləndirmişdir. Brüssel yaxın keçmişdə Abxaziya, Cənubi Osetiya və Krımla bağlı proseslərdə Rusiya ilə qarşı-qarşıya gəlsə də, hər dəfə də uğursuzluğa düçar olmuşdu. Bu səbəbdən Qarabağ böhranı zamanı Rusiyanın həm Ermənistan, həm də Azərbaycanla sıx əlaqələrini nəzərə alaraq Aİ oxşar sonla qarşılaşmamaq üçün prosesə müdaxilə etməməyə üstünlük vermişdir.

NATO-nun da Aİ və ATƏT kimi 44 gün ərzində toqquşmaları uzaqdan izləməklə kifayətləndiyi müşahidə edildi[1]. Alyansın bu prosesdə Qarabağa, həqiqətən, müdaxilə etmək üçün sanballı bir əsas görmədiyi və Qafqazda Moskva ilə üz-üzə gəlməkdən qaçdığı güman edilə bilər. NATO-nun bu ehtiyatlı münasibəti Rusiyaya Qafqazdakı təsir dairəsini genişləndirmək imkanı versə də, Türkiyənin varlığı bölgədəki güc nisbətinə tarazlıq gətirmişdir.

1 Hacı Mehmet Boyraz, "Avrupa'nın Karabağ Tutumu", *Anadolu Ajansı-Analiz.*





# BEYNƏLXALQ CƏMİYYƏTİN MÖVQEYİ

## Birləşmiş Millətlər Təşkilatı (BMT)

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 823, 853, 874 və 884 saylı qətnamələri ilə Ermənistanı işğal etdiyi Dağlıq Qarabağ torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxmağa çağırsa da, bu günədək təcavüzkarı həmin qətnamələri yerinə yetirməyə məcbur edə bilməmişdir. BMT Təhlükəsizlik Şurası Ermənistana heç bir təzyiq və ya sanksiya tətbiq etmədiyinə görə Azərbaycanın torpaqları təxminən otuz il işğal altında qaldı. BMT-nin müvafiq qətnamələri Dağlıq Qarabağ torpaqlarının azad olunması məsələsində Azərbaycanın legitimliyini beynəlxalq hüquq baxımından təmin edir. Əslində, BMT-nin üzvü olan bütün dövlətlər Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Dağlıq Qarabağdakı qondarma erməni rejimini hamisi Ermənistan da daxil olmaqla heç bir ölkə tanımır.

Ermənistanın sentyabr ayındakı hücumlarından sonra işğal edilmiş torpaqlarını geri almaq üçün hərbi əməliyyata başlayan Azərbaycan ATƏT-in müvafiq qərarları çərçivəsində beynəlxalq hüquqa əsaslanan hüquqlarından istifadə etmişdir.

44 günlük müharibə prosesində BMT problemin həllinə həqiqi töhfə vermək əvəzinə öz məsuliyyətini ATƏT-in Minsk qrupuna həvalə etməyə üstünlük verdi. Ancaq tərəflərə atəşkəs çağırışı ilə müraciət ünvanlamaqla kifayətlənən BMT işğala son qoyulması ilə əlaqədar addımlar atmaqdan imtina etdi. Belə ki, 2020-ci il sentyabrın 30-da ABŞ, Rusiya və Fransanın çağırışı ilə toplaşan BMT TŞ-nin atəşkəs çağırışı toqquşmaların mənzərəsini dəyişmədi. BMT-nin Baş katibi toqquşmaların ilk günündən tərəfləri əsaslı dialoqa dəvət etdi, münaqişənin sülh yolu ilə davamlı həllini tapmaları üçün həmsədrlərin daha çox səy göstərməli olduqlarını bildirdi[1].

BMT-nin Baş katibi ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin nümayəndə heyətlərinin başçıları ilə birgə noyabrın 10-da imzalanan atəşkəsə tərəflərin əməl etmələrini məmnuniyyətlə qarşıladıqlarını bildirən bəyanat verdi. Bəyannamədə o, bütün tərəfləri, beynəlxalq insan hüquqları ilə bağlı öhdəliklərini yerinə yetirməyə çağırdı. Nəticədə Dağlıq Qarabağ məsələsində BMT-nin passiv münasibəti Azərbaycanı beynəlxalq hüquqdan irəli gələn insan haqlarının müdafiəsi məsələsində təşəbbüs göstərməyə məcbur etdi.

1 "Guterres urges continued dialogue between Armenia and Azerbaijan", *BM resmi sitesi*, 31 oktyabr 2020.

## ATƏT-in Minsk qrupu

Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı ilə başlayan böhranı həll etmək məqsədilə ATƏT tərəfindən 1992-ci ildə yaradılan, 1994-cü il dekabrın 6-dan ABŞ, Fransa və Rusiyanın həmsədr olduğu Minsk qrupu təxminən otuz il davam edən bir müddətdə həll yolu tapılmayaraq müzakirə cəhdlərindən və atəşkəs çağırışlarından uzağa gedə bilmədi. Xüsusilə bölgədəki maraqlarına görə status-kvonu qoruyan Minsk həmsədrlərinin münasibəti Dağlıq Qarabağ məsələsinin iyirmi beş ildən artıq davam edən bir böhran kimi qalmasına səbəb oldu.

Azərbaycanla Ermənistan arasında sentyabrın 27-də başlayan və noyabrın 10-da başa çatan altı həftəlik toqquşma müddətində Minsk qrupu öz passiv xəttini davam etdirdi. Dərhal atəşkəsə, danışıqlara qayıtmağa və üçüncü tərəfin müdaxiləsinin qarşısını almağa çağıran Minsk qrupu yüzlərlə mülki itkinin olduğu 44 günlük münaqişə zamanı problemin həlli üçün sürətli və konkret addımlar ata bilmədi. Müharibə zamanı ATƏT-in Minsk qrupunun qəbul etdiyi qərarlarda təxminən otuz ildir tətbiq olunan təxirəsalma münasibətinin davam etdiyi, münaqişənin pislənildiyi və mülki əhali arasında itkilərin qarşısını almaq üçün çağırış edildiyi müşahidə olundu[1]. Bu platformanın ədalətli,

1 Press Statement by the Co-Chairs of the OSCE Minsk Group, *AGİT resmi sitesi*, 30 oktyabr 2020.



qərəzsiz və etibarlı vasitəçi kimi çıxış edəcəyi gözlənilsə də, Ermənistanın mövqeyini dəstəkləyən mövqe nümayiş etdirdi[1]. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilmiş torpaqlar olduğu ilə tam razılaşmayan Minsk qrupu işğalçı Ermənistana təzyiq göstərmək əvəzinə İrəvan rəhbərliyinin ziddiyyətli hərəkətlərinə göz yumdu.

## NATO

Missiyasına və əhatə dairəsinə uyğun olaraq NATO 44 gün davam edən müharibədə münaqişə tərəfi olmadı və fəallıq göstərmədi. Bu məsələdə Azərbaycan və Ermənistanın NATO üzvü olmamalarının da rolu vardır. NATO neytral mövqe tutaraq münaqişənin dayandırılması ilə bağlı çağırışlar etməyə üstünlük verdi. Digər tərəfdən Rusiya məsələyə qarışdığına görə NATO-nun daha təsirli olacağını gözləmək mümkün idi. Ancaq münaqişə zonasına Rusiyanın açıq-aşkar hərbi qüvvə yeritməməsi NATO-nun da baş verən hadisələri arxa planda müşahidə edən siyasət yürütməsinə səbəb oldu.

Bu formatda 2020-ci il oktyabrın 5-də Ankaraya səfəri zamanı NATO-nun Dağlıq Qarabağ böhranı ilə əlaqədar "heç bir tərəfdə olmadığını", Türkiyənin NATO ölkəsi kimi bölgədəki nüfuzundan gərginliyin zəiflədilməsi üçün istifadə etməklə bağlı arzularını bildirdi. NATO-nun Baş katibi Yens Stoltenberq hər iki tərəfi atəşkəsin şərtlərini yerinə yetirməyə çağırdı. Mülki əhalinin hədəfə alınmasının qəbuledilməz olduğunu bildirən Stoltenberq münaqişənin sülh yolu ilə həll edilməsi üçün addımlar atılması lazım gəldiyini, Minsk qrupunun nəzarəti altında aparılan danışıqların böyük əhəmiyyət daşıdığını və hadisələrə təmkinlə yanaşmağı üstün tutduqlarını söylədi, oktyabrın 21-də Brüsseldə Ermənistan prezidenti Armen Sarkisyanla keçirdiyi görüşündə NATO-nun Qarabağ münaqişəsinə qarışa bilməyəcəyini açıq şəkildə bildirdi. O, NATO-nun Minsk qrupu həmsədrlərinin səylərini dəstəkləməklə kifayətlənəcəyini söyləyərək sözlərinə mülki əhalini hədəfə almağın yolverilməzliyini də əlavə etdi. Bundan başqa, Stoltenberq Türkiyənin NATO üçün dəyərli müttəfiq olduğunu dilə gətirdi və Türkiyəyə qarşı irəli sürülən iddialara qarşı aydın mövqe nümayiş etdirdi[2].

## Avropa İttifaqı (Aİ)

Aİ-nin bir qurum kimi Qarabağdakı hadisələr müqabilində passiv qalmağa üstünlük verdiyi müşahidə edildi. Bölgədəki münaqişələrə qarışmaq istəməyən Aİ bir tərəfdən Azərbaycanın haqlı olduğu Qarabağın statusu ilə bağlı məsələdə beynəlxalq hüququn müəyyən etdiyi çərçivəyə sadiq qaldı, digər tərəfdən də Ermənistana təzyiq göstərmədi. Aİ-nin 44 günlük müddət ərzində aktiv mövqe tutmaqdan çəkindiyi müşahidə edildi, çünki Qarabağ məsələsi Aİ-nı bilavasitə maraqlandırmırdı və bu sahədə mövcudluğu müəyyənləşdirici amil rolunu oynaya bilərdi.

Aİ-nin qanunverici gücü olan Avropa Parlamentində (AP) bir çox millət vəkilləri isə erməni diaspor təşkilatlarının təsiri altında İttifaqın Dağlıq Qarabağa müdaxiləsi ilə əlaqədar qərar qəbul etməsinə çalışdılar. Bununla belə, AP bəzi üzvlərinin bütün səylərinə və təzyiqlərinə baxmayaraq Aİ-nin ali

1 "Azerbaycan'dan 'Fransa'yı Minsk Grubu Eş Başkanlığından Çıkaralım' Çağrısı", *Yeni Şafak*, 26 noyabr 2020.

2 "Online press conference", *NATO resmi sitesi*, 22 oktyabr 2020.



təmsilçisi Jozep Borrell İttifaqın bu münaqişədə tərəf olmayacağını bildirdi və münaqişənin həllini ATƏT-in Minsk qrupuna həvalə etdiyini bildirdi[1]. Digər tərəfdən insan haqları mövzusunda çox həssas olan Aİ-nin Ermənistanın mülki əhalini hədəf alan hərbi cinayət xarakterli hücumlarına qarşı passiv mövqe tutması ilə yanaşı, həm də tərəfsiz olmaması tənqidlərə səbəb oldu.

## Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT)

SSRİ-nin dağılmasından sonra keçmiş sovet ölkələrinin ümumi təhlükəsizliklə bağlı narahatlıqları ilə əlaqədar 1992-ci il mayın 15-də Daşkənddə qurulan KTMT daha sonra Rusiyanın bu bölgədəki nüfuzunu qorumaq üçün istifadə etdiyi mexanizmə[2] çevrildi. Təşkilatın mövcud üzvləri Rusiya, Belarus, Tacikistan, Qazaxıstan, Qırğızıstan və Ermənistandır.

Ermənistanın KTMT-yə üzv olması üçün ən əhəmiyyətli motivasiyası Dağlıq Qarabağın işğalı üzündən mümkün Azərbaycan hücumuna qarşı təşkilatın kollektiv müdafiə prinsipindən[3] faydalanmaqdır. Yeri gəlmişkən, İrəvan rəhbərliyi KTMT üzvlüyündən və Rusiyanın bu təşkilatdakı nüfuzundan Azərbaycana qarşı çəkindirici vasitə kimi istifadə etdi. Lakin 44 günlük Qarabağ hərəkatı zamanı Ermənistan rəhbərliyi KTMT-dən gözlədiyi dəstəyi ala bilmədi. Həm KTMT daxilində olan nisbətlər[4], həm də Ermənistanı Qərbə çox yaxınlaşdığına görə cəzalandırmaq istəyən Rusiyanın bitərəf qalması İrəvan hökumətinin ümidlərini məhv etdi. 44 günlük müharibə dövründə arabir KTMT-nin Ermənistanı qorumaq üçün müdaxilə edə biləcəyi barədə iddialar[5] irəli sürülsə də, müvafiq bəyanatlardakı ifadələr təşkilatın rəsmi mövqeyinin, əslində, aydın olduğunu göstərirdi[6]. Nəticədə bununla bağlı Kremldən gələn başqa bir açıqlama[7] mənzərəni aydınlaşdırdı və KTMT-nin Dağlıq Qarabağ məsələsinə müdaxilə etməyəcəyi dəqiqləşdi.

1 Hacı Mehmet Boyraz, "Avrupa'nın Dağlık Karabağ Tutumu", *Anadolu Ajansı-Analiz.*

2 Malina Kaszuba, "The Collective Security Treaty Organization (CSTO) in the Foreign Policy of the Russian Federation", *The Copernicus Journal of Political Studies*, No. 1, 2019, s. 142-143.

3 Beibit Baimuratov, *Orta Asya'da Bir Güvenlik Örgütü Olarak Kolektif Güvenlik Anlaşması Örgütü*, Yayımlanmamış Yüksek Lisans Tezi, İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler, İstanbul, 2014, s. 81.

4 Bazı KGAÖ üyesi devletlerin başkanları örgütün Karabağ meselesine müdahil olmaması gerektiğini savunmaktadır. bk. Beibit Baimuratov, *Orta Asya'da Bir Güvenlik Örgütü Olarak Kolektif Güvenlik Anlaşması Örgütü*, s. 82.

5 "Ermenistan tehdit edilirse Kolektif Güvenlik Anlaşması Örgütü Dağlık Karabağ'a müdahale edebilir", *Euronews*, 8 oktyabr 2020.

6 Müvafiq xəbər KTMT baş katibinin bəyanatına əsaslanır. Bu xəbərə görə, "Ermənistanın suverenliyinə təhlükə yaranarsa, təşkilat müdaxilə edə bilər". Əslində, bütün beynəlxalq qurumlar Dağlıq Qarabağ məsələsinin Ermənistanın "suverenlik" məsələsi olmadığını qəbul etdiyi üçün KTMT-nin müdaxiləsinə heç bir əsas yox idi.

7 Dmitri Chirciu, "Kremlin: KGAÖ kapsamdaki yükümlülükler Karabağ için geçerli değil", *Anadolu Ajansı*, 7 oktyabr 2020.




## Türk Şurası (Türk Məclisi)

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin üzvü olduğu Türk Şurası (Türk Məclisi) Qarabağ torpaqlarının işğaldan azad edildiyi 44 günlük mübarizə zamanı Azərbaycana tam və qeyd-şərtsiz dəstək verərək bu prosesi gündəminin əsas məsələlərindən birinə çevirdi.

2020-ci il sentyabrın 28-də Türk Şurası Azərbaycanın ərazi bütövlüyünün qorunmasının zəruriliyini vurğulayaraq belə bir bəyanat verdi: "Türk Şurası beynəlxalq hüququn norma və prinsiplərinə sədaqətini bir daha diqqətə çatdırır və Ermənistan–Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında dərhal həll edilməsinin vacibliyini bir daha bəyan edir. Bu çərçivədə Türk Şurası BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin yerinə yetirilməsinə, Ermənistanı öz silahlı qüvvələrini Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarmağa çağırdığını xatırladır" [1].

1 "Türk Konseyi Genel Sekreterinin Beyanatı", *Türk Keneşi resmi sitesi*, 28 sentyabr 2020.





Baş katib Bağdad Amreyev qarşıdurmaların şiddətləndiyi günlərdə, 2020-ci il oktyabrın 20-də Gəncə şəhərinə səfər etdi, Ermənistanın hücumlarını şiddətlə qınadı və işğalçı qüvvələri Azərbaycan torpaqlarını tərk etməyə çağırdı.

Noyabrın 10-da imzalanan atəşkəs sazişindən sonra Türk Şurası Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll edilməli olduğunu vurğuladı və suverenliyin təmin edilməsindəki tarixi uğuruna görə Azərbaycan rəhbərliyini təbrik etdi[1].

Qarabağ zəfərinin Türk Şurası daxilindəki güclü əlaqələrə yeni bir təkan verəcəyi və Türk dünyasında inteqrasiya proseslərinə, birlik və həmrəyliyin güclənməsinə töhfə verəcəyi gözlənilir.

## İslam Əməkdaşlıq Təşkilatı (İƏT)

İKT Baş Katibliyi qarşıdurmaların şiddətləndiyi və Ermənistanın mülki yaşayış məntəqələrini hədəf aldığı günlərdə, 2020-ci il oktyabrın 18-də bəyanat yaydı və Ermənistan qüvvələrinin Azərbaycan ərazisindəki müxtəlif nöqtələrə insan tələfatına səbəb olan hücumlarını şiddətlə qınadı. Ermənistan silahlı qüvvələrini işğal olunmuş Azərbaycan torpaqlarından tamamilə çəkilməyə çağıran bəyanatda iki ölkə arasındakı münaqişənin beynəlxalq səviyyədə tanınmış sərhədlərə, ərazi bütövlüyünə və nüfuzuna hörmət edilməklə siyasi yollarla həll edilməli olduğu bildirildi[2].

İƏT-in Azərbaycan tərəfini dəstəkləyən bəyannamə istisna olmaqla həmişəki passiv münasibətini qoruyaraq bu prosesdə heç bir təşəbbüs göstərmədiyi müşahidə edildi.

## Rusiya Federasiyası

Cənubi Qafqazla dərin coğrafi-tarixi və sıx siyasi-iqtisadi əlaqələri olan Rusiya Federasiyası əksər regional məsələlərdə başlıca rol oynayır. Qarabağ məsələsində Rusiya Azərbaycan və Ermənistanla sıx əlaqələrə malikdir. Eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi beynəlxalq aləmdə prosesin nüfuzlu iştirakçılardan biridir. Qarabağ məsələsinin həlli Rusiyanın bölgədəki maraqları ilə üst-üstə düşsə də, Ermənistanın lehinə mövqe nümayiş etdirdiyi müşahidə olundu[3]. Rusiya mətbuatında xeyli nüfuza malik olan erməni jurnalistlər Türkiyənin Azərbaycana dəstəyini təhdid kimi qiymətləndirdilər. Türkiyənin Şərqi Aralıq dənizi, Liviya və Suriyadakı təsir dairəsinə Qafqazın da daxil olmasını əsas götürən bəzi dairələr bölgədə güc mərkəzinin Rusiyadan Türkiyəyə keçdiyinə dair fikrlər səsləndirməyə başladılar.

1 "Türk Konseyi Genel Sekreteri Amreyev'den Azerbaycan'a tebrik", *Anadolu Ajansı*, 10 noyabr 2020.

2 "OIC Condemns Repeated Provocations and Aggresion by Armenian Military Forces Against Azerbaijan", İİT *resmi sitesi*, 28 sentyabr 2020.

3 Nesrin Sarıahmetoğlu, "Karabağ Sorununun Çözüm Sürecinde Türkiye ve Rusya", *Marmara Türkiyat Araştırmaları Dergisi*, c. III, sayı 2, payız 2016, s. 100-106.



Rusiyanın 102-ci hərbi bazası

SSRİ-nin keçmiş üzvləri olan Azərbaycan və Ermənistan Qərblə əlaqələrini inkişaf etdirərkən təhlükəsizlik və iqtisadiyyat kimi strateji sahələrdə Moskva ilə əlaqələrini qoruyub saxladılar. Rusiya ilə Ermənistan arasındakı ittifaq dərin və ənənəvi xarakter daşıyır. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistan hərbi və iqtisadi əlaqələri ilə Rusiyanın yaxın müttəfiqidir.

Sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlayan və noyabrın 10-da imzalanmış atəşkəs müqaviləsi ilə başa çatan altı həftəlik prosesdə Rusiya tərəfləri əvvəlində aktiv və aydın mövqe tutmaq əvəzinə sağlam düşüncəyə dəvət edərək balanslı mövqe nümayiş etdirmişdir. Prezident Putin oktyabrın 7-də verdiyi bəyanatda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olan Rusiya Federasiyasının hər zaman Ermənistan qarşısında öhdəliklərini yerinə yetirəcəyini, lakin münaqişələrin Ermənistan ərazisində baş vermədiyini bildirərək gözlənilməz çıxış etdi. Rusiya bu bəyanatı ilə dolayı yolla Dağlıq Qarabağda və ətrafında işğal olunmuş torpaqların Azərbaycana məxsus olduğunu qəbul etdi. Ermənistanın Baş naziri Paşinyan oktyabrın 31-də Putinə göndərdiyi məktubda 1997-ci ildə Ermənistanla Rusiya arasında imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi"nə istinad edərək "Rusiyanın Ermənistanın təhlükəsizliyini təmin etməklə göstərə biləcəyi yardımın həcminin və növünün müəyyənləşdirilməsi üçün təcili məsləhətləşmələr aparılmasını tələb etdi. Rusiya həmin məktuba cavab olaraq münaqişənin Ermənistan ərazisində baş vermədiyini təkrarladı.[1]

Müvafiq razılaşma çərçivəsində Rusiyanın münaqişəyə aşıq-aşkar müdaxilə etməməsində Paşinyanın həddindən artıq Qərbpərəst siyasəti, Paşinyan Ermənistanında Rusiyaya qarşı etirazların artması, Ermənistanda rusdilli məktəblərin bağlanması və rus hərbçilərinin Ermənistandan çıxarılması tələbləri kimi amillərin də təsiri olmuşdur. Ona görə də bu vəziyyətdən son dərəcə narahat olan Rusiya Azərbaycan–Ermənistan münaqişəsində seyrçi rolunda qalmağa üstünlük verdi. Bundan başqa, Azərbaycanla üz-üzə gəlmək istəməyən Rusiya vasitəçi missiyasını davam etdirməyə və hər iki ölkəyə münasibətdə tarazlığı qorumağı qarşısına məqsəd qoymuşdu.

İlk növbədə, Rusiya tərəfləri bir araya gətirərək atəşkəsə nail olmaq üçün vasitəçi kimi çıxış etməyə çalışdı. Tərəflərin Moskvada baş tutan ilk iki görüşündə atəşkəsə nail olmaq üçün göstərdikləri cəhdlər nəticə vermədi. Rusiya atəşkəsə yalnız Ermənistanın Dağlıq Qarabağdakı hərbi məğlubiyyəti dəqiqləşdikdən və Şuşada Azərbaycan bayrağı ucaldıldıqdan sonra nail ola bildi[1]. Bu zaman Rusiya tərəflər arasında vasitəçilik səylərini artırdı və 10 Noyabr bəyannaməsinin imzalanmasında ən əhəmiyyətli rolunu oynadı. Nəticə etibarı ilə Rusiya sülhməramlıları Qarabağ bölgəsində yerləşdirildi. Laçın dəhlizi Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında qaldı.

1 "Köşeye sıkışan Paşinyan'a bir soğuk duş daha: Rusya'dan Ermenistan'ın yardım talebine ret", *Hürriyet*, 31 oktyabr 2020.

1 Sedat Ergin, "Karabağ Mutabakatı'nda Azerbaycan, Rusya ve Türkiye kazançlı tarafta, *Hürriyet*, 11 noyabr 2020.


DAĞLIQ QARABAĞDA HƏRBİ ƏMƏLİYYATLAR DAVAM EDƏRKƏN MOSKVADA XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏVİYYƏSİNDƏ ATƏŞKƏS MÜZAKİRƏLƏRİ, 10 OKTYABR 2020-ci İL

## Amerika Birləşmiş Ştatları (ABŞ)

ABŞ tarixən Qarabağ probleminin həllində öz üzərinə fəal rol götürməmiş və Minsk qrupunun həmsədri kimi verilən qərarların ritorik tərəfdarı olmaqla kifayətlənmişdir. Qlobal siyasətdə üzərinə götürdüyü vəzifənin əksinə olaraq, ABŞ-ın Qarabağ məsələsi ilə bağlı yürütdüyü siyasətin, ABŞ-dakı daxili siyasi qarışıqlığın təsirinə və erməni lobbisinin təzyiqinə məruz qaldığı müşahidə edildi. Seçki prosesində erməni lobbisinin fəallığını nəzərə alan ABŞ-ın əsas məqsədi Ermənistanın xeyrinə status-kvonu saxlayan atəşkəsi təmin etmək idi.

Vacib enerji mənbələrinə malik olan Azərbaycanın ərazi bütövlüyü və sabitliyi ABŞ üçün əhəmiyyətli olsa da, ölkənin daxili siyasi dinamikası Vaşinqton administrasiyasının Qarabağ məsələsində fəal rol oynamasına mane oldu.[1] Vaşinqton "İşğal edilmiş bölgələr" kimi müəyyənləşdirdiyi Dağlıq Qarabağın davam edən statusunu dəyişdirmək üçün Ermənistana qarşı heç bir tədbir görməsə də, Azərbaycana qarşı bəzi sanksiyalar tətbiq etdi[2].

ABŞ bir çox regional böhranlarda olduğu kimi, 2020-ci ildə Qarabağ məsələsində də təsirli nəticələr əldə edə bilmədi. Bu passivliyin səbəbi kimi Trampın xarici siyasətində "əvvəlcə Amerika" prinsipini önə çəkdiyi göstərilsə də, ABŞ-ın xaricdəki hərbi və siyasi gücünün zəifləməsi[3] amili də burada müəyyən rol oynadı.

Rusiyanın iki uğursuz atəşkəs cəhdindən sonra ABŞ-ın Azərbaycan və Ermənistan xarici işlər nazirlərini Vaşinqtonda bir araya gətirmək istəyi də nəticə vermədi.

## Fransa

Minsk qrupunun həmsədrlərindən olan Fransa Qarabağ məsələsində vasitəçilik missiyasının tələb etdiyi konstruktiv rolu yerinə yetirməkdənsə, beynəlxalq hüquqa və parlament qərarlarına zidd bəyanatları ilə problemin həllinin mümkünsüzlüyünü təşviq edən münasibət nümayiş etdirdi. Fransa BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Aİ-nin əsas prinsiplərinə zidd olan siyasət yeridərək Ermənistana açıq dəstək verən ölkələrə başçılıq etdi.

Fransada erməni lobbisinin effektiv gücü və Fransanın öz üzərinə "Şərq xristianlarının hamisi" rolunu götürməsi Qarabağ məsələsində Ermənistana açıq dəstəyin[4] arxasındakı əsas səbəblər kimi ortaya çıxır.

Azərbaycanla Ermənistan arasındakı 44 günlük müharibədə Ermənistana qeyd-şərtsiz dəstək verən və Türkiyə barəsində qərəzli bəyanatları ilə diqqət çəkən Fransa döyüş meydanında və danışıqlar masasında təsirli ola bilmədi.

---

1 Kamer Noyabr, "American Policy toward the Nagorno-Karabakh Conflict and Implications for its Resolution", *Journal of Muslim Minority Affairs*, 32-2, iyun 2012, s. 231.

2 Zafer Yıldırım, "U.S. Foreign Policy Towards Azerbaijan: From Alliance to Strategic Partnership", *Alternatives Turkish Journal of International Relations*, c. 11, sayı 4, 2012, s. 6.

3 Ryan Tierney, "Late to the Game: Nagorno-Karabakh and the Implications of U.S. Apathy", *Harvard Political Review*, 3 noyabr 2020.

4 Araz Aslanlı, "Fransa Karabağ'da çözüm için değil, çözümü baltalamak için çalışıyor", *Anadolu Ajansı-Analiz*, 3 dekabr 2020.



Azərbaycanın Qarabağdakı qələbəsindən sonra Fransada parlament və hökumət fərqli mövqelər tutduqca ziddiyyətli vəziyyət yarandı. Noyabrın 25-də Fransa parlamentinin yuxarı palatası olan senatın iclasında qondarma Dağlıq Qarabağ Respublikasını tanımaq və ermənilərə yardım göstərmək üçün hökumətə çağırış edildi. (ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransa bu addımı ilə Dağlıq Qarabağ məsələsində bitərəfliyini itirdiyi üçün tənqid edildi. Fransanın Xarici İşlər naziri Jan-İv Lo Drian bildirdi ki, Qarabağın müstəqilliyinin tanınması Minsk qrupunun həmsədrliyindən əl çəkmək deməkdir.)

Digər tərəfdən prezident Makron və Xarici İşlər Nazirliyi beynəlxalq hüquqa görə Qarabağın və ətraf bölgələrinin Azərbaycan ərazisi olduğunu, senatın qərarının hökumət üçün məcburi olmadığını və qondarma Dağlıq Qarabağ Respublikasını tanımadıqlarını bildirdilər. Nəticədə Makronun "Azərbaycandan tələb gəlməyincə o bölgəyə müdaxilə etmək mümkün deyil"[1] ifadəsi Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etmək məcburiyyətində qalması kimi şərh edildi.

## İran

"Qarabağ islam ölkəsidir" ifadəsi İranın Azərbaycan torpaqlarının işğalına münasibətini əks etdirir. İran həm imzaladığı ikitərəfli müqavilələrdə, həm də beynəlxalq təşkilatların qərarlarına qoşularaq işğalın gerçəkliyini rəsmən təsdiqlədi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinin vacibliyini vurğuladı.

Müharibə başlayandan bəri siyasi elitada və ictimai rəydə Tehranın hadisələrə necə reaksiya verəcəyi ilə bağlı fikir ayrılığı olsa da, İran dövləti neytral mövqe nümayiş etdirməyə çalışdı. İranın bir qrup yüksək çinli məmuru İranın Azərbaycanı dəstəkləməli olduğunu bildirdi. Digər tərəfdən Bakının Qarabağı geri almasının İranın geosiyasi maraqlarına uyğun gəlməyəcəyini iddia etdi.

Sentyabrın 30-dan etibarən İrandan Azərbaycan torpaqlarının işğaldan azad edilməsini və ərazi bütövlüyünün təmin olunmasını dəstəkləyən bəyanatlar verilməyə başlandı. Həmin bəyanatlarda hərbi əməliyyatların dayandırılmasının və dialoqun bərpasının vacibliyi vurğulandı.[2]

Hərbi əməliyyatlar zamanı İranın ali dini lideri, Prezident Administrasiyası[3], Xarici İşlər Nazirliyi[4], hökumət sözçüsü[5], İslam Şurası Məclisi, dini liderin əyalətlərdəki nümayəndələri, din xadimləri bu mövzuda Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış etdilər.[6] Bu ifadələr İran mediasında və sosial şəbəkələrdə geniş vüsət aldı. Sonradan İran öz hava sahəsini Ermənistanın hərbi yük təyyarələrinin üzünə bağladı[7].

---

1 "Macron şaşırttı: Karabağ Azerbaycan toprağıdır", *Hürriyet*, 23 noyabr 2020.

2 "Iran calls on Azerbaijan, Armenia to end skirmishes, engage in dialogue", İRNA (İran İslam Cumhuriyeti Haber Ajansı), 27 sentyabr 2020.

3 "Iran reassures Azerbaijan, slams 'rumours' of arms to Armenia", *Aljazeera*, 30 sentyabr 2020.

4 "Azerbaijan's territorial integrity should be respected, Iran's Foreign Ministry says", *Daily Sabah*, 5 oktyabr 2020.

5 "Iran Calls Armenia to Withdraw from Karabakh", *Radyo Ferda*, 7 oktyabr 2020.

6 "Iran backs Azerbaijan's right to liberate Karabakh", *Anadolu Ajansı*, 3 noyabr 2020.

7 İran səfiri: "Ermənistanla həm quru, həm hava yollarımız qapalıdır", *IQNA*, 27 oktyabr 2020.

İranın bu münasibəti ölkədə yaşayan ermənilərdə və onlara yaxın bəzi dairələrdə ciddi narahatlıq yaratdı, bu münasibətin İranda etnik gərginliyi alovlandıra biləcəyi iddialarının baş qaldırmasına səbəb oldu.

İranın müharibə dövründə əsas narahatlıqlarından biri hərbi əməliyyatlar zamanı onun ərazisinə düşən top mərmiləri ilə bağlı idi[1]. Ermənistan Silahlı Qüvvələri İranla həmsərhəd olan Azərbaycan torpaqlarından geri çəkilərkən qəsdən İran ərazisinə raketlər atıb təxribatlar törətdilər. Bu təxribatlar Azərbaycan Ordusunun İranla dövlət sərhədini tamamilə nəzarətə götürməsi ilə sona çatdı.

Oktyabrın 22-də Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edildiyini, İran sərhədinin tamamilə nəzarətə alındığını elan edərək Azərbaycan və İran xalqlarını təbrik etdi. İlham Əliyev noyabrın 16-da Xudafərin körpüsünü ziyarət edərkən Azərbaycan–İran sərhədinin dostluq sərhədi olduğunu da vurğuladı.

İran ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə diqqət çəkərək Azərbaycanla Ermənistan arasındakı problemin regional formatda həll edilməli olduğunu bildirirdi. Bu məqsədlə İran Xarici İşlər nazirinin müavini Abbas Əraqçi oktyabrın 29-31-də Azərbaycan, Rusiya, Ermənistan və Türkiyəyə səfər etsə də, İranın vasitəçilik təklifi Ermənistan tərəfindən qəbul olunmadı.[2]

Azərbaycanla İran arasında siyasi və iqtisadi əlaqələrin genişlənməsi nəzərə alındıqda torpaqların işğaldan azad edilməsinin İranın da maraqlarına xidmət etdiyi aydınlaşır. Azərbaycanın İranla sərhədinin 132 kilometrlik hissəsində işğalın aradan qaldırılması və ərazinin yenidən Azərbaycanın nəzarəti altına keçməsi ilə iki ölkə arasında əməkdaşlıq potensialının artacağı gözlənilir. İkitərəfli əməkdaşlıq çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsi ilə bölgənin bütün ölkələrinə fayda gətirəcək yeni nəqliyyat və ticarət dəhlizləri yaratmaq mümkün olacaq.

İran hazırda Azərbaycanla iqtisadi əlaqələri yaxşılaşdırmaq üçün diplomatik fəaliyyətini davam etdirir. Yeri gəlmişkən, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Qarabağda həyata keçirilən yenidənqurma və bərpa işlərində İran şirkətlərinin iştirakı üçün Azərbaycan Respublikasının müvafiq qurumlarının rəhbərləri ilə bir sıra görüşlər keçirmişdir[3].

## İsrail

44 günlük müharibə zamanı Azərbaycana öz dəstəyi ilə ən çox diqqət çəkən ölkələrdən biri də İsrail idi. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuş İsrail müdafiə sənayesi və enerji sahəsində Azərbaycanla strateji əlaqələrə malikdir. Bu gün İsrail enerjiyə olan tələbatının təxminən 50%-ni Azərbaycandan aldığı yanacaqla ödəyir.

Azərbaycan-İsrail münasibətləri Heydər Əliyevin prezident olduğu illərdə formalaşmış, İlham Əliyevin prezidentliyi dövründə daha da zənginləşərək strateji mahiyyət qazanmışdır. İsrailin Qafqaza giriş qapısı

1 "Spokesman's Reaction to Rockets Hitting Iran's Border Areas", *İran Dışişleri Bakanlığı Resmi Sitesi*, 16 oktyabr 2020.

2 "Iran's peace initiative on Nagorno-Karabakh gains steam", *Tehran Times*, 4 noyabr 2020.

3 "İran'ın Karabağ'ın yeniden inşası için avantajları", *İRNA*, 11 yanvar 2021.



saydığı Azərbaycana strateji müttəfiq kimi önəm verməsi və Azərbaycan rəhbərliyinin ABŞ-dakı erməni lobbisinin fəaliyyətinə qarşı yəhudi lobbisinin dəstəyindən yararlanması iki ölkə arasındakı qarşılıqlı əlaqələrinin əhəmiyyətindən xəbər.

2012-ci ildə İsrail və Azərbaycan arasında PUA, raket əleyhinə sistemlər və zenit silahları üzrə 1,5 milyard dollarlıq müqaviləsi imzalandı.

İsrailin Baş naziri Benyamin Netanyahu 2016-cı ildə Azərbaycana səfər edərək bir sıra müqavilələri təsdiqlədi. Səfər çərçivəsində iki ölkə arasında təhlükəsizlik və hərbi əməkdaşlığın gücləndirilməsi, Azərbaycandakı yəhudi icmasının vəziyyəti və təhlükəsizlik müqavilələri, on milyardlarla dollarlıq ticarət əməkdaşlığı və ikiqat vergitutmanın qarşısının alınmasına dair müqavilələr imzalandı. Netanyahunun səfərindən sonra İlham Əliyev ölkəsinin İsraildən 5 milyard dollarlıq təhlükəsizlik avadanlığı və silah alınması üçün uzunmüddətli müqavilə imzaladığını açıqladı.[1]

İki ölkə arasında əməkdaşlıq enerji sahəsində də inkişaf etmiş, İsrail Azərbaycandan neft almağa başlamış, İsrailin işğal etdiyi Aşdod sahillərində birgə qaz və neft kəşfiyyatı işləri aparılmışdır. İsrailin Azərbaycandan aldığı illik neftin həcmi İsrail istehlakının təxminən 50 faizini təşkil edir.[2]

İkitərəfli münasibətlərdəki bu cəhətlər İsrailə Qarabağ məsələsində Azərbaycanın tərəfini tutmağa imkan verdi. 44 günlük Qarabağ müharibəsində İsrail Azərbaycana faktik olaraq da dəstək verdi. "Yedioth Ahronoth" qəzetinin verdiyi xəbərə görə, Azərbaycana məxsus bir neçə yük təyyarəsi Fələstinin Negev bölgəsindəki Ovda hərbi hava bazasına endikdən sonra ölkəyə humanitar və tibbi yardım ləvazimatları gətirilmişdir.[3]

"The Jerusalem Post" qəzetinə verdiyi müsahibədə Ermənistanın Baş naziri Paşinyan İsrailin Azərbaycana dəstəyindən söz açaraq "İsrail şeytanla əməkdaşlıq edir" dedi. Bununla da İsrailin "soyqırımı niyyətində olan Azərbaycanı silahlandırdığını" iddia etmiş oldu.[4] Nəticədə Qarabağ müharibəsinin əvvəllərində (oktyabrın 1-də) Ermənistan İsrailin Azərbaycana silah göndərdiyini bəhanə edərək Təl-Əvivdəki səfirini geri çağırdı.

Qarabağ müharibəsinin davam etdiyi günlərdə (oktyabrın 6-da) İsrailin keçmiş müdafiə naziri Libermanın Qarabağın tarixən Azərbaycana məxsus olduğunu bəyan etməsi Azərbaycan–İsrail ikitərəfli əlaqələrinin miqyasını göstərir. Bir sözlə, İsrailin Azərbaycana dəstəyi, üst-üstə düşən maraqlar iki ölkənin strateji əlaqələrinin rasional nəticəsi sayılır.

1 "Güney Kafkasya'da İran ve İsrail rekabeti", *Al Jazeera Türk*, 25 yanvar 2017.

2 Esma Özdaşlı, "İsrail'in Yeni Çevre Stratejisinde Güney Kafkasya", *Bilig*, sayı 82, 2017, s. 175-200.

3 "Israel ships humanitarian aid to Azerbaijan amid Nagorno-Karabakh conflict", *Yedioth Ahronoth*, 25 oktyabr 2020.

4 "Armenian PM to Post: Israel joins forces with the devil", *The Jerusalem Post*, 3 noyabr 2020.

## Pakistan

Azərbaycan və Pakistan ənənəvi olaraq Qarabağ və Kəşmir məsələsində bir-birini dəstəkləmək siyasəti yürüdürlər. İkinci Qarabağ müharibəsində Pakistan açıq-aydın, dəqiq və erkən dəstəyi ilə ön plana çıxdı. Pakistan Azərbaycanın ərazi bütövlüyünü dərhal dəstəklədi və Ermənistanı qınadı. Pakistanın həm ictimai səviyyədə, həm də sosial media sahəsində Azərbaycana böyük rəğbət və dəstək göstərdiyi nəzərdən qaçmadı. Hətta Azərbaycan və Türkiyə bayraqlarından sonra Azərbaycanda ən çox yayılmış bayraq Pakistan bayrağı idi. Digər tərəfdən, Hindistanın da kiber dünyada erməniləri qoruduğu müşahidə olundu.[1]

Müharibənin ilk günlərindən etibarən, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin müharibə bölgəsinə xeyli miqdarda silah, muzdlu əsgər və terrorçu göndərildiyi ilə bağlı Pakistana qarşı irəli sürdüyü əsassız və tamamilə böhtan xarakterli iddialar Pakistan tərəfindən qətiyyətlə rədd edildi, ortaya heç bir dəlil qoya bilməyən Ermənistan hökumətinin açıqlamalarının əsassız olduğu müəyyənləşdirildi. Bu iddia ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın diplomatik cəhətdən Bakını dəstəklədiyini, ancaq hərbi dəstəkdən söz getmədiyini söylədi.

Pakistan Qarabağ problemini, ümumiyyətlə, Hindistanla razılığa gələ bilmədikləri Kəşmir probleminə bənzədir. Azərbaycanla Ermənistan arasındakı Qarabağ münaqişəsi və Hindistanla Pakistan arasında uzun illərdir davam edən Kəşmir məsələsi iki ölkənin ortaq maraqları qorumaq baxımından sıx əlaqələr qurmasına səbəb oldu. Əslində, Azərbaycan rəhbərliyi dəfələrlə, hər fürsət düşəndə Kəşmir məsələsində Pakistana tərəfdar olduğunu bildirib. Pakistan–Türkiyə–Azərbaycan əlaqələri Qarabağ hadisələrindən sonra daha da möhkəmlənərək unikal üçtərəfli formata çevrildi.

İkinci Qarabağ müharibəsi zamanı Pakistanın Azərbaycanla bağlı siyasətini ortaya qoyan açıqlamalar verildi. Pakistan "qardaş Azərbaycan xalqının torpaqlarının azad edilməsi ilə əlaqədar" təbrik bəyanatı yaydı. Mətbuata açıqlamasında Pakistanın "sabitlik və firavanlıq" dövrünə ümid bəslədiyi və Azərbaycanın qələbəsinin "məcburi köçkünlərin öz ata-baba torpaqlarına qayıtması üçün yol açacağı" bildirilirdi.[2] Pakistan BMT və digər beynəlxalq platformalarda Azərbaycanın Qarabağla bağlı mövqeyini daim dəstəkləyən mövqe nümayiş etdirdi. Oktyabrın 28-də Pakistan Milli Məclisi Dağlıq Qarabağla bağlı bəyanat yayaraq "Pakistanın siyasi və diplomatik cəhətdən Azərbaycanın yanında olduğunu, Ermənistanın Dağlıq Qarabağdakı qanunsuz, əxlaqsız və qəddar hücumlarını pislədiyini" bildirdi.[3]

1 Islamuddin Sajid, "Pakistan Armed Forces Throw Weight Behind Azerbaijan", *Anadolu Ajansı*, 10 Oktyabr 2020.

2 "Pakistan'dan Azerbaycan'a Dağlık Karabağ tebriği", *Anadolu Ajansı*, 10 Noyabr 2020.

3 "Resolution to condemn Armenian Aggression in Nagorno-Karabakh region of the Republic of Azerbaijan", *Pakistan Millî Meclisi resmî sitesi*, 28 Oktyabr 2020.



## Əfqanıstan

Əfqanıstan Xarici İşlər Nazirliyi rəsmi olaraq bəyan etdi ki, Əfqanıstan İslam Respublikası Ermənistan və Azərbaycan arasında münaqişənin şiddətlənməsindən narahatdır. Bəyanatda bildirilirdi ki, Dağlıq Qarabağ beynəlxalq aləmdə Azərbaycanın ərazisi kimi tanınır və Əfqanıstan Dağlıq Qarabağın işğaldan azad edilməsini arzulayır. Bununla belə, bəyanatda münaqişənin sülh yolu ilə həll olunmasının vacibliyi də vurğulanırdı. Bu dəstəyə etirazını bildirən Ermənistan dərhal KTMT-yə müraciət ünvanlayaraq, bu təşkilatda Əfqanıstanın müşahidəçi statusunun ləğv edilməsini tələb etdi.

Əfqanıstan Milli Məclisində millət vəkili Sancar Kargarın təklifi ilə 5 oktyabr 2020-ci il tarixində müvafiq qərar qəbul edildi və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə istinadən Ermənistanın işğalçılıq siyasəti qətiyyətlə pisləndi və Azərbaycana dəstək ifadə olundu.



# 10 NOYABR BƏYANNAMƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ

Şuşa şəhəri işğaldan azad edildikdən sonra müharibənin Azərbaycanın qələbəsi ilə yekunlaşacağına şübhə yeri qalmadı. Məhz bu məqamda Rusiya məsələyə qarışdı, münaqişəni dayandırmaq və tərəfləri danışığa sövq etmək üçün səylərini artırdı. Nəticədə Azərbaycan və Ermənistan rəhbərləri Moskvanın vasitəçiliyi ilə görüşdü və razılaşma əldə edildi. Azərbaycan, Ermənistan və Rusiya rəhbərləri tərəfindən imzalanan bəyanat 2020-ci il noyabrın 10-u saat 00:00-da qüvvəyə minmişdir. Bəyanata aşağıdakı maddələr daxildir:

*Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:*

*1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.*

*2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.*

*3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.*

*4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.*

*5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.*

*6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.*

*7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.*

*8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.*

*9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.*



AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏLƏBƏ NİTQİ, 10 NOYABR 2020-ci il











İLLƏRLƏ İŞĞAL ALTINDA OLAN QARABAĞIN AZAD EDİLMƏSİ BÖYÜK BİR SEVİNCLƏ QEYD EDİLDİ

Azərbaycan və Ermənistan arasındakı razılaşma, ümumiyyətə, beynəlxalq ictimaiyyət tərəfindən müsbət hal kimi qarşılandı. Bir çox dövlətlər və beynəlxalq təşkilatlar münaqişənin dayandırılmasından və hər iki tərəfin ziddiyyətin həlli yolunda əldə edilmiş irəliləyişdən məmnun olduqlarını ifadə etdilər.

İşğal olunmuş torpaqlarını geri alan Azərbaycan müharibədə qalib, Ermənistan isə uduzan tərəf oldu. Razılaşmaya görə Azərbaycan həm Dağlıq Qarabağda irəlilədiyi sahələrdə nəzarəti təmin etmiş, həm də Ermənistanı işğal etdiyi rayonlardan çıxmağa məcbur etmişdir. Danışıqlar zamanı Ermənistanın Dağlıq Qarabağa status verilməsi ilə bağlı israr etməsi nəticə vermədi, bununla yanaşı, sazişə Dağlıq Qarabağın statusu haqqında heç bir bənd salınmadı. İlham Əliyev bəyannaməni imzaladıqdan sonra “Bu bəyanatda Dağlıq Qarabağın statusu ilə bağlı bir kəlmə belə yoxdur. Paşinyan, noldu? Status cəhənnəmə getdi, olmayacaq” sözləri ilə Ermənistanın bu məsələdə məğlubiyyətə uğradığını dilə gətirmişdir.

Bəyanat səsləndirildikdən sonra Azərbaycan xalqı meydanlarda və küçələrdə zəfər bayramını qeyd edərkən Ermənistanda məğlubiyyətə görə məsuliyyət daşıyan Paşinyan və hökumətinə qarşı etiraz nümayişləri keçirildi. Ədalətli mübarizəsinə Türkiyənin verdiyi səmərəli dəstək Azərbaycanın qələbəsində mühüm rol oynadı. Əslində, Türkiyə bu prosesdə qalib gələn iştirakçılar arasında idi.

Razılaşmanın əldə olunmasında oynadığı rola görə Rusiya öz prizmasından bu prosesi uğurla idarə etdi və həm Azərbaycan, həm də Ermənistanla münasibətlərini qoruyub saxlaya bildi.

2020-ci ildə baş verən hadisələrədək Qərb ölkələri həll üçün konkret təşəbbüslərdən çəkinirdilər, çünki mövcud status-kvo Ermənistan üçün əlverişli idi. Ancaq həmin ölkələr son bir neçə ayda döyüş meydanındakı vəziyyətin dəyişməsi ilə yaranan yeni konyunkturda öz mövqelərini gözdən keçirməli oldular. Atəşkəsin təmin edilməsi cəhətdən gecikdiklərini başa düşən Qərb ölkələrinin prosesə daxil olma cəhdləri nəticəsiz qaldı.

Azərbaycanın işğal edilmiş ərazilərinin böyük hissəsinin qaytarılması, Moskvada əldə olunan razılaşma ilə rəsmən təsbit edildi. Bəzi bölgələr də sonrakı prosesdə Azərbaycana qaytarılacaq. Razılaşmaya əsasən, Azərbaycan bütün torpaqları üzərində suverenliyini təmin edəcəyi halda biri Laçında, Qarabağla Ermənistan arasında, digəri isə Azərbaycanın qərbi ilə Naxçıvan arasında olmaqla iki nəqliyyat dəhlizi qurulacaq.

Rusiyanın təklifi ilə əldə edilən razılaşma nəticəsində Ermənistan daha dağıdıcı məğlubiyyətdən xilas oldu. Bəyannamə Azərbaycan tərəfinin tələblərinin yerinə yetirilməsi nəticəsində imzalandı.

44 günlük Dağlıq Qarabağ müharibəsinin ən əhəmiyyətli nəticələrindən biri Türkiyənin Qafqazda sülhün və ədalətin təmin edilməsi prosesində göstərdiyi qətiyyətdir. Başqa sözlə, bu müharibə vasitəsilə Türkiyə bölgənin “oyun qurucusu” rolunu üzərinə götürən, təsirini hiss etdirən aparıcı dövlət olduğunu göstərdi. Yuxarı Qarabağdakı bu uğur təkcə Azərbaycanın deyil, həm də qardaş ölkə ilə birgə bu mübarizəyə girən Türkiyənin əhəmiyyətli qələbəsidir. Həmin prosesdə “bir millət, iki dövlət” prinsipinin sadəcə şüar olmadığı və əsl güc birliyinə çevrildiyi sübuta yetirildi. Dağlıq Qarabağ zəfəri iki ölkənin siyasi tarixinə “həmrəyliyin qələbəsi” kimi də düşəcəkdir.





Azərbaycan otuz ilə yaxın Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ bölgəsini azad edərək ərazi bütövlüyünü bərpa etdi. Nəticədə Yuxarı Qarabağda status-kvo aradan qalxdı. Müharibə dövründə və sonrasında imzalanan anlaşma prosesində Türkiyə bir çox cəhətdən rasional, beynəlxalq hüquqa əsaslanan və fəal xarici siyasət nümayiş etdirdi. Bu yeni şəraitdə Türkiyə ilə Azərbaycanın daha da güclənəcəyi və türk dünyasının yeni iqtisadi imkanlar əldə edərək prosesdən faydalanacağı gözlənilir. Dünyanın ən əhəmiyyətli strateji bölgələrindən biri olan Qafqazda Türkiyənin geopolitik baxımdan çox vacib dövlət olduğu bu müddətdə bir daha ortaya çıxdı.

Türkiyənin Dağlıq Qarabağ müharibəsindən qazancla çıxması bölgədə uzun müddətdən bəri apardığı siyasətin nəticəsidir. Türk müdafiə sənayesinin, xüsusilə yerli vasitələrlə istehsal edilən pilotsuz hava aparatlarının (İHA) imkanları, qabiliyyətləri və fəaliyyəti dünya hərb ədəbiyyatına düşdü. Nəticədə Qarabağ məsələsində danışıqlar masası arxasında legitim əyləşmək qədər döyüş meydanında təsirli olmağın vacibliyi bir daha nümayiş etdirildi. Beynəlxalq hüquqa məhəl qoymayan və yalnız danışıqlar müstəvisində mövqe tutan dövlətlərin məğlubiyyətə uğradıqlarının şahidi olduq.





İLLƏRLƏ İŞĞAL ALTINDA OLAN QARABAĞIN AZAD EDİLMƏSİ XƏBƏRİ BÖYÜK SEVINCLƏ QARŞILANDI









**Azərbaycan ordusu sentyabrın 27-də, Ermənistanın Azərbaycana hücum etməsindən sonra əks-hücum əməliyyatlarına başladı. Erməni işğalı altında olan torpaqlarımızın azad olunması əməliyyatı 44 gün davam etdi.**




**27 SENTYABR - 9 NOYABR ARALIĞINDA**
5 RAYON
4 QƏSƏBƏ
**CƏMİ 295 YAŞAYIŞ MƏNTƏQƏSİ**
**İŞĞALDAN AZAD EDİLDİ**

**DAĞLIQ QARABAĞDA ƏLDƏ EDİLƏN RAZILAŞMA**

Azerbaycan ve Ermenistan arasında elde edilen razılaşmaya göre 10 noyabr saat 00:00-dan etibaren ateşkes elan edildi.

Razılaşmaya göre Ermenistan 15 noyabr tarixine qeder işğal altında olan Kelbecer, 20 noyabra qeder Ağdam, 1 dekabra qeder Laçın rayonlarını Azerbaycana qaytarmağı öhdesine götürdü.

**ERMƏNİSTAN DƏFƏLƏRLƏ ATƏŞKƏSİ POZDU**

Azerbaycan ve Ermenistan arasında 10, 18 ve 26 oktyabr tarixlerinde ateşkes elan edildi. Ermenistan her defe ateşkesi pozdu.

MOSKVADA İMZALANMIŞ "QARABAĞ SAZİŞİ" ÇƏRÇİVƏSİNDƏ SON VƏZİYYƏTİN ƏKS OLUNDUĞU XƏRİTƏ
10 OKTYABR 2020-ci İL



## İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ERMƏNİSTANIN RƏSMİ İTKİLƏRİ

18 NOYABR 2020





# AZƏRBAYCAN–TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞI VƏ HƏMRƏYLİYİNİN ZƏFƏRİ

Əsrlər boyu möhkəm dostluq və qardaşlıq ənənələrinə söykənən Türkiyə–Azərbaycan əlaqələri diplomatik münasibətlərin qurulduğu 1992-ci il yanvar ayının 14-dən etibarən siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə, eləcə də enerji sahəsində getdikcə daha da genişlənərək II Qarabağ müharibəsi dövründə yeni bir mərhələyə qədəm qoymuş oldu. “Bir millət, iki dövlət” anlayışı ilə həyata keçirilən Türkiyə–Azərbaycan əlaqələri, özünün strateji hədəfləri, əhatə genişliyi, intensivliyi və dərinliyi baxımından iki ölkə arasında həqiqi müttəfiqlik münasibətlərinin uğurunu təmin etməkdədir.

Yüksək səviyyədə qarşılıqlı səfərlər bu əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. İki ölkənin dövlət başçılarının vəzifəyə başladıqdan və ya kritik hadisələrdən sonra ilk olaraq bir-birini ziyarət etmələri artıq bir ənənə halını almışdır. Türkiyə və Azərbaycan prezidentləri arasında davam edən ənənəvi şəxsi dostluq münasibətləri Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin hakimiyyəti dövründə daha da artaraq ikitərəfli əlaqələrin möhkəmlənməsində mühüm amilə çevrilmişdir.

Ekspertlər II Qarabağ müharibəsində Azərbaycanın qələbəsini 2020-ci ildə Türkiyənin xarici siyasətinin ən böyük uğuru kimi dəyərləndirirlər. Prezident Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin təmkinli davranışı nəticəsində “Avrasiya qapısı – Zəngəzur dəhlizi”nin açılmasını Aygün Attar hər iki ölkənin xarici siyasətinin uğuru olduğunu qeyd etmişdir. Həmçinin Zəngəzur dəhlizinin açılmasının Cənubi Qafqazda geosiyasi vəziyyət və Türkiyənin təhlükəsizliyi baxımından son dərəcə önəmli olduğunu ifadə edən Attar Türkiyənin Qarabağ mövzusunda göstərdiyi diplomatik səylərinin də Türkiyə və Azərbaycanın diplomatik sahədə qələbə qazanmasına layiqli töhfə verdiyini bildirmişdir.[1]

1 noyabr 1992-ci ildə imzalanan “Ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş” Türkiyə ilə Azərbaycan arasında iqtisadi və ticari əlaqələrin hüquqi əsasını təşkil edir. İqtisadi münasibətlərin qarşılıqlı fayda, etimad və əməkdaşlıq əsasında inkişafını nəzərdə tutan bu müqavilə Türkiyə ilə Azərbaycan arasında ən müxtəlif iqtisadi və ticari əlaqələrin uzunmüddətli və dayanıqlı olmasını təmin edir. İki ölkə sənaye, maliyyə, bankçılıq, kənd təsərrüfatı, qida, nəqliyyat, turizm, informasiya və kommunikasiya texnologiyaları kimi müxtəlif sahələrdə qarşılıqlı sərmayə qoyuluşu və ticarət əlaqələrini inkişaf etdirir. Türkiyə ilə Azərbaycan arasında ticarət həcminin 2023-cü ildə 15 milyard dollara çatdırılması nəzərdə tutulmuşdur.

1 “Karabağ zaferi 2020 Türk dış politikasının en büyük kazanımı oldu”, *Anadolu Ajansı*, 30 dekabr 2020.





AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV İLƏ RƏCƏB TAYYİB ƏRDOĞANIN 2003-cü İLDƏKİ İSTANBUL GÖRÜŞÜNDƏN

İqtisadi əlaqələrin ən əhəmiyyətli payını enerji sahəsinə qoyulan qarşılıqlı sərmayələr təşkil edir. Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi qlobal və regional səviyyədə enerji təhlükəsizliyinin təmin edilməsində və Şərqlə Qərb arasında enerji dəhlizinin qurulmasında strateji rol oynayır. Enerji ehtiyatlarının həcminə görə dünyada ikinci yerdə olan Xəzəryanı ölkələrin neftinin və təbii qazının Azərbaycan üzərindən Türkiyəyə, sonra da üçüncü ölkələrə nəql olunması hər iki ölkə – Türkiyə və Azərbaycan üçün geosiyasi əhəmiyyətə malikdir. Türkiyə ilə Azərbaycan arasında Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum Cənubi-Qafqaz təbii qaz boru kəməri, Bakı–Tbilisi-Qars dəmir yolu və TANAP layihəsi enerji sahəsində uğurlu, çoxtərəfli əməkdaşlığın göstəricisidir.[1]

16 avqust 2010-cu ildə imzalanan “Türkiyə–Azərbaycan strateji əməkdaşlıq sazişi” və 15 sentyabr 2010-cu ildə qurulan “Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası” Türkiyə–Azərbaycan münasibətlərinin strateji tərəfini daha da dərinləşdirdi.[2] Bu müqavilə ilə yaradılan quruluş hər iki dövlətin xarici əlaqələrində ən yüksək səviyyəli əməkdaşlıq modelidir. Strateji əməkdaşlıq sazişi hərbi, təhlükəsizlik, texniki, siyasi, iqtisadi və humanitar əməkdaşlığın yol xəritəsi kimi əhəmiyyətlidir.[3] Müqavilənin hərbi təhlükəsizlik məsələləri ilə bağlı bütün maddələri sonradan iki ölkə arasındakı əməkdaşlıqda öz əksini tapdı, o cümlədən hərbi sənaye və müdafiə sənayesində əməkdaşlıq genişləndirildi, birgə hərbi təlimlərin sayı artırıldı.[4]

1 Araz Aslanlı, “Türkiye-Azerbaycan Ekonomik İlişkileri”, *Yönetim ve Ekonomi Dergisi*, 2018, cilt 25, sayı 1, s. 22.

2 Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti Arasında 13 Noyabr 2013 Tarihinde Düzenlenen Yüksek Düzeyli Stratejik İşbirliği Konseyi Üçüncü Toplantısı Sonuçlarına İlişkin Ortak Açıklama, *Dışişleri Bakanlığı resmi sitesi*, 13 noyabr 2013.

3 “Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askerî kapasitesini geliştirmesinde nasıl rol oynadı?”, *BBC Türkçe*, 2 oktyabr 2020.

4 “10. yılında Azerbaycan-Türkiye Stratejik Ortaklık Anlaşması ve Ortak Askerî Tatbikatlar”, *Anadolu Ajansı*, 10 avqust 2020.










Bu kontekstdə Türkiyə ilə Azərbaycan təkcə sözdə deyil, həm də hüquqi və faktiki baxımdan həqiqi müttəfiq oldular[1].

2000-ci ildən başlayaraq hər il birgə hərbi təlimlər keçirilir. Türkiyə, Azərbaycan və Gürcüstan arasında neft boru kəmərinin qorunmasını nəzərdə tutan, sülhə dəstək əməliyyatı çərçivəsində "Eternity" adı altında üçtərəfli hərbi təlim keçirildi[2]. 2012-ci ilin noyabr ayında Ankara yaxınlığında Türkiyə, Azərbaycan və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Qafqaz qartalı – 2012" adlı hərbi təlimlər keçirildi[3].

2013-cü ilin iyul ayında Bakı və Naxçıvanda Türkiyə–Azərbaycan Silahlı Qüvvələrinin Operativ Qrupunun birgə hərbi təlimləri keçirildi. Sonrakı illərdə "TURAZ şahini" (2014, 2016, 2018) və "TURAZ qartalı" (2013, 2015, 2017, 2019) adları altında Türkiyə–Azərbaycan birgə hava hücumundan müdafiə təlimləri çərçivəsində həyata keçirilib[4].

---

1 Yenə orada

2 Yenə orada

3 "Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askeri kapasitesini geliştirmesinde nasıl rol oynadı?", *BBC Türkçe*.

4 "Türkiye ve Azerbaycan ortak askeri tatbikat yapacak", *TRT Haber*, 4 Yanvar 2013.









2018-ci il iyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi və 15 sentyabrda Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə bağlı keçirilən mərasimlərə türk əsgərləri Azərbaycan əsgərləri ilə birlikdə qatıldı.[1]

29 iyul – 10 avqust 2020-ci il tarixləri arasında Azərbaycanda həyata keçirilmiş quru qoşunları və hava qüvvələrinin genişmiqyaslı təlimləri Ermənistana və onun havadarlarına simvolik bir mesaj olaraq dəyərləndirildi[2]. "Strateji bölgələrin xilas edilməsi" üzrə təlimlərdə xüsusi təyinatlı dəstələrin iştirakı da bu mesajın bir hissəsi olaraq qəbul edildi.

## Zəfərə aparan həmrəylik

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi uğrunda apardığı 44 günlük müharibənin qələbə ilə başa çatması və Ermənistanın məğlubiyyətini qəbul edərək, 10 noyabr bəyannaməsini imzalamaq məcburiyyətində qalması məsələnin həllində qəti və ardıcıl mövqedə olmağın vacibliyini bir daha sübut etdi. Ərazisinin işğal altında olması və beynəlxalq hüquqa görə haqlı tərəf hesab olunması Azərbaycanın danışıqlar masasında barışmaz mövqedə durmasını təmin edirdi. Lakin qlobal güclər Azərbaycanın ədalətli mübarizəsinə əngəllər yaradırdı. Digər tərəfdən Azərbaycan dövlət başçısı İlham Əliyevin qətiyyəti və Prezident Ərdoğanın böyük səyləri nəticəsində Türkiyənin bu mübarizəyə verdiyi siyasi və mənəvi dəstək dünya güclərinin ortaya atdığı Dağlıq Qarabağın status-kvo məsələsinin ləğv edilməsi ilə nəticələndi. Vəziyyətin dəyişdirilməsinə səbəb olan güclü iradə və sarsılmaz birlik, 44 günlük müharibədə istifadə olunan ən yeni hərbi vasitələr və düzgün strategiya Qarabağın işğaldan azad olunmasını və Azərbaycanın inamlı zəfər qazanmasını təmin etdi.

44 günlük müharibədə qazanılan uğur Türkiyə–Azərbaycan strateji əməkdaşlığının ən bariz nümunəsidir. Xüsusilə son on ildə iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətləri strateji müstəviyə keçdikdən sonra bu əlaqələr misli görünməmiş həmrəylik nümunələri ilə əlamətdar olmuşdur.

Türkiyənin 1993-cü ildən başlayaraq şəxsi heyətin təlimi, silahlı qüvvələrin texniki təchizatı, ən müasir uçuş sistemləri ilə təminatı sahəsində yardım göstərdiyi Azərbaycan ordusu Qarabağda həyata keçirilən döyüş əməliyyatlarında hərbi taktika, strategiya və planlaşdırma baxımından möhtəşəm uğurlara imza atdı. Türkiyə istehsalı olan PUA və SİHA-lardan, eləcə də Azərbaycanın özünün pilotsuz uçan aparatları, kamikadze sistemləri və digər hərbi texnikasından geniş istifadə ilə həyata keçirilən əməliyyatlar Ermənistan ordusunu müharibə dövründə çətin vəziyyətə salmışdır. Bu şərtlər altında çıxılmaz vəziyyətdə qalan Ermənistan Qarabağa təyyarə uçuşları icra etməkdə çətinlik çəkmiş və döyüş bölgəsinin hava sahəsinə nüfuz edə bilməmişdir. Hava şəraiti və ərazinin coğrafi xüsusiyyətləri də nəzərə alınmaqla təyin olunan əks-əməliyyatın başlanma vaxtı Azərbaycan ordusunun üstünlüyünü[3] təmin etdi.

1 "Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askeri kapasitesini geliştirmesinde nasıl rol oynadı?", *BBC Türkçe*.

2 "Ermenistan'a gözdağı! Türk askeri Azerbaycan'da", *Sabah*, 28 iyul 2020.

3 İhsan Başbozkurt, "Azerbaycan'da Başarıyı Getiren 'İki Devlet Tek Millet' Milli Stratejisi", *SDE*, 17 noyabr 2020.

Azərbaycan ordusunun hərbi-texnoloji imkanları, eləcə də ordunun mükəmməl kəşfiyyat sisteminə malik olması Dağlıq Qarabağdakı əməliyyatların uğur qazanmasında mühüm rol oynamışdır.[1]

Azərbaycan ordusunun yüksək komanda, habelə planlaşdırma və icra heyətlərinin döyüş bölgəsinə bələd olması qələbənin qazanılmasında müstəsna rol oynamışdır.[2] Azərbaycan ordusunda işğal altındakı bölgələrdən olan əsgərlərin və yerli sakinlərin olması[3], erməni qüvvələrinin strateji mövqelərini asanlıqla müəyyən etməyə imkan vermişdir.

Dağlıq Qarabağ zəfərində Türkiyə "oyun qurucusu" rolunu hiss etdirməklə bir daha bölgədə əsas qüvvələrdən olduğunu göstərdi. Dağlıq Qarabağdakı qələbə həm Azərbaycanın, həm də bu mübarizəni dəstəkləyən qardaş ölkə Türkiyənin əhəmiyyətli uğurudur. Bu böhranın ən əhəmiyyətli, regional hərəkətverici qüvvələrindən olan Rusiya belə Cənubi Qafqazda Türkiyənin iştirakı olmadan sabitliyin mümkünsüzlüyünü artıq qəbul etdi. Bu səbəbdən Türkiyənin də əhəmiyyətli rol oynadığı Qarabağ müharibəsinin nəticələri Cənubi Qafqazda regional gücə tarazlıq gətirdi.

Qarabağ zəfərində başda Prezident İlham Əliyev olmaqla Azərbaycanın dövlət idarəçiliyi, ordusu və xalqı, Qarabağ hərəkatı kimi ortaq bir məqsəd ətrafında birləşərək güclü həmrəylik nümunəsi göstərdi. Bundan başqa, Türkiyənin bu hərəkatın əvvəlindən etibarən Azərbaycana açıq dəstəyi qazanc əldə edilməsinə töhfə verməklə yanaşı, həm də Azərbaycan xalqını güclü bir mənəvi dəstəklə təmin etdi. Müharibə zamanı bu dəstəyin Azərbaycana qarşı çıxan qüvvələrə çəkindirici təsir göstərdiyini də söyləmək olar.

44 günlük müharibədən sonrakı qələbə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin, həqiqətən də, "bir millət, iki dövlət" şüarına sadiq qalındığını sübut etdi. İki ölkə arasındakı güclü həmrəylik və dərin əlaqələr bu müharibənin birgə qələbə kimi qeyd edilməsinə imkan yaratdı. Ankara və Bakı rəhbərliyi rasional həmlələri ilə mövcud güclü əlaqələrə strateji bir forma verdi və ilk ciddi sınaqda danılmaz uğur qazandı.

1 Yenə orada

2 Can Kasapoğlu, Sinan Ülgen ve Sine Özkaraşahin, "Azerbaycan-Ermenistan Çatışmaları Yeni Bir Aşamaya Geçti: Bölgesel Savaş Riski ve Türk-Rus İlişkilerinin Geleceği", *EDAM*, 27 Sentyabr 2020.

3 Can Kasapoğlu, Sinan Ülgen ve Sine Özkaraşahin, *EDAM Analiz.*








# QARABAĞ ZƏFƏRİNİN BEYNƏLXALQ İCTİMAİYYƏTDƏ ƏKS-SƏDASI

Beynəlxalq mətbuatda dərc olumuş təhlil və şərhlərdə Qarabağ zəfəri ilə bağlı bu dəyərləndirmələr aparılmışdır:

*The New York Times*, Anton Troianovski imzasıyla təqdim olunan təhlildə Qafqazda regional güclərin yenidən təşkil olunduğu, Türkiyə və Rusiyanın burada böyük rol oynadığı vurğulanır.

*The Telegraph* qəzetində dərc olunmuş məqalədə Ceyms Kilner bu müharibədə qazanan tərəfin Türkiyə olduğunu vurğulayır: "Türkiyənin güclü siyasi dəstəyi, yüksək texnologiyalı PUA-larından istifadə edən Azərbaycan Dağlıq Qarabağda erməni mövqeləri məhv etdi". Bundan başqa, burada Türkiyənin Suriya və Livandan sonra Qafqazda da öz təsirini gücləndirdiyi qeyd olunur.

*Bloomberg*-də Leonid Berşidski adlı müəllif Azərbaycan Prezidenti İlham Əliyevin bu müharibədə böyük uğur əldə etdiyini və bu qələbənin uzun müddət Putin üçün də problem yaradacağını ifadə edib.

Həmin nəşrdə Qreqori Vayt bu müharibədə açıq-aşkar məğlub tərəfin Ermənistan olduğunu, Azərbaycan və Türkiyənin müharibədə zəfər əldə etdiyini bildirir.

*The Economist* dərgisi 30 illik münaqişənin Azərbaycan lehinə nəticələndiyini qeyd edir: "Atəşkəs razılaşmasına uyğun olaraq Türkiyə Ermənistan torpaqlarından Azərbaycana, Xəzər dənizinə birbaşa dəhliz əldə edəcək, beləcə, Orta Asiyaya və Çinin "Bir kəmər – bir yol" layihəsinə qoşulacaq. Atəşkəs razılaşması Azərbaycandan Naxçıvana gedən yolun açılmasını da təmin edir. Yola Rusiya nəzarət etsə də, Türkiyə və Çin malları da bu yolla daşınacaq" deyir.

*Die Welt* qəzetində Alfred Hackenberger imzasıyla yayımlanmış məqalədə Dağlıq Qarabağ müharibəsində Ermənistanın hər şeyini itirdiyi ifadə edilir, Rusiya və Türkiyənin qalib ölkələr olduğu vurğulanır.

*Radio France Internationale*-də (RFI) Anne Andlauer də Türkiyənin Qarabağ müharibəsindən sonra imzalanan razılaşmada qalib tərəf olduğunu qeyd edir. Burada "Türkiyə münaqişədən daha güclü çıxdı" ifadəsiylə Azərbaycan və Türkiyə arasında əlaqələrin daha da qüvvətləndiyinə, bunun iqtisadi nəticələrinin də olacağına işarə edilir.

Almaniyanın *Deutsche Welle* qəzetində Roman Qonçarenko öz məqaləsində Qarabağda uğur qazananların Putin və Ərdoğan olduğunu dilə gətirərək "Ermənistan və beynəlxalq aləmdə tanınmayan Dağlıq Qarabağ Respublikası itirən tərəf oldu. Bu da azmış kimi, diplomatiya sahəsində də uduzdu. Təxminən otuz il idi ki, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) bu məsələylə bağlı heç bir nəticə əldə etməmişdi. Bundan başqa, ATƏT-in Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə yaratdığı Minsk qrupu tamamilə səmərəsiz fəaliyyət göstərirdi. Azərbaycan və Ermənistan tərəfindən qəbul edilməyən saysız-hesabsız sülh təklifi vardı. Artıq Minsk qrupuna hələ də ehtiyac olub-olmadığı sualı ortaya çıxır. Bu qrupun Dağlıq Qarabağda söyləyəcək sözü qalmayıb. Məqalədə "Yəqin ki, Türkiyənin də qatılacağı yeni formatların yaradılması mümkündür" kimi ifadələrlə Minsk qrupu sərt şəkildə tənqid olunur.

Almaniyanın *Bild* qəzetində Paul Ronzheimer "Qərb üçün böyük uğursuzluq" adlı məqaləsində Qərbi sərt şəkildə tənqid edərək, uğursuz Minsk qrupunun tərkibində qalmağın Almaniya üçün utancverici olduğuna diqqət çəkir.

*The Telegraph*-da Mark Almond Qarabağ müharibəsindən sonra Cənubi Qafqazdakı yaranmış yeni vəziyyətin Qərb üçün xəbərdarlıq mahiyyətində olduğu vurğulanır: "Cənubi Qafqaz Rusiya və Türkiyənin təsir dairələrinin bir araya gəldiyi yer ola bilər, amma son vaxtlara qədər Amerika və müttəfiqləri orada yalnız enerji dəhlizini Şərqdəki neft və qaz dövlətlərindən qorumaq üçün deyil, həm də siyasi marağı dəstəkləmək üçün çox fəal idilər. İndi jest siyasətindən daha çox, güc siyasətinə keçməklə Putin və Ərdoğan oyunun ustaları olduqlarını bir daha göstərdilər".

İtaliyanın *ANSA* xəbər agentliyi Azərbaycan və Türkiyənin bu müharibədə önəmli bir zəfər qazandığını vurğulayır. Xəbərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuat katibi İbrahim Kalının *Twitter*-də "Qarabağ artıq azaddır. Türkiyə həm döyüş meydanında, həm də müzakirə masasında Azərbaycanın yanında olacaqdır", – yazısına diqqət çəkilir.

Bosniya və Herseqovinyanın *"Faktor"* qəzeti Ərdoğanın siyasəti sayəsində Türkiyənin regional və qlobal məsələlərdə nüfuzlu ölkəyə çevrildiyini vurğulayır.

*The Guardian*-dan Endryu Rot və Maykl Safi Qarabağ müharibəsindən sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyətin yarandığını qeyd edərək, Türkiyənin nizamlanmada əhəmiyyətli rol oynadığını, Minsk qrupunun tamamilə iflasa uğradığını vurğulayır.

*The Times*-ın manşetində "Dağlıq Qarabağ münaqişəsindəki mövcud nəticə bölgə siyasətində əhəmiyyətli rol oynamaq niyyətində olan Türkiyənin Azərbaycanın lehinə müdaxiləsindən sonra qaçılmaz oldu. Atəşkəs razılaşması Türkiyə, Rusiya və İranın həmsərhəd olduğu Cənubi Qafqaz regionunda hadisələrin sonrakı gedişini müəyyənləşdirdi. Moskvanın Ermənistana geniş miqyasda kömək edə bilməməsi Türkiyənin önümüzdəki illərdə bölgədə həlledici rol oynama ehtimalına da təsir edir", – şəklində dəyərləndirmə aparıb.

*The New York Times* qəzetində Tomas de Vaal "bölgədə böyük güc siyasətinin qayıtdığını" söyləyir və Türkiyənin də bu bölgədə böyük siyasi güclər arasında olduğunu vurğulayır.

*The Washington Post* qəzetində Robin Dixon Azərbaycanın müharibədə qalib gəlməsində PUA-ların böyük rol oynadığını və burada Türkiyənin dəstəyinin vacib rola malik olduğunu vurğulayır.

*The New York Times* qəzetində dərc olunmuş "Təhlükəli müharibənin sürətli sonu" başlıqlı məqalədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana fəal dəstəyi sayəsində münaqişənin tez bir zamanda Azərbaycanın xeyrinə həll olunduğu bildirilir.

Fransanın *Le Monde* qəzetinin xəbərində "Moskvanın himayəsi altında" imzalanan atəşkəs sazişinin Azərbaycanın qələbəsini təsbit etdiyi bildirilir və Ermənistanın Dağlıq Qarabağda hərbi nəzarəti itirdiyi vurğulanır. Xəbərdə Şuşanın işğaldan azad edilməsinin münaqişədə əhəmiyyətli bir dönüş nöqtəsi olduğu vurğulanmış və 44 günlük müharibə zamanı Ermənistanın aparılan döyüşlər haqqında öz xalqına yalan söylədiyi bildirilir; Cənubi Qafqazda Prezident Rəcəb Tayyib Ərdoğanın öz təsir gücünü artırdığı qeyd edilir.

*Le Figaro* qəzetinin xəbərində Dağlıq Qarabağ mövzusunda Putinin Ərdoğan başda olmaqla bir çox ölkə rəhbərlərinə telefon zəngləri etdiyi xatırladılır, həmçinin Moskvadakı Lomonosov Universitetindən Aleksey Fenenkonun şərhinə də yer verilir. Fenenko bildirir ki, "Minsk qrupunun bundan sonra necə fəaliyyət göstərəcəyi bilinmir". Xəbərdə "Oyunun sonunda həmişə final fitini verən Rusiya olur" ifadəsi də yer alıb.

İsveçrənin aparıcı qəzetlərindən sayılan, fransız dilində nəşr olunan *"Le Temps"* Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşma haqqında məlumatı "Gələcək dünyanı formalaşdıran Türkiyə və Rusiya" başlığı ilə təqdim edir. Luis Leman imzasıyla dərc olunmuş məqalədə "Qafqazda atəşkəsdən ən çox yararlananlar Ankara və Moskvadır" kimi qiymətləndirmə aparılır. ABŞ və Avropanın regionda nüfuzunu itirməsindən bəhs edən məqalədə "ABŞ Prezidenti Donald Tramp və onun varisi Co Bayden Ağ Ev uğrunda mübarizə apararkən Dağlıq Qarabağda silahların susduğu" qeyd edilir. Məqalədə həmçi-

nin Trampın Ermənistanla Azərbaycan arasında ölümcül qarşıdurmaya səbəb olan eskalasiyanın qarşısını almaq üçün heç bir şey etmədiyi ifadə edilir. Məqalədə bəyan edilir: "Türkiyə və Rusiya qələbə qazandı. Sabahın diplomatik mənzərəsi Qərbə qarşı formalaşmağa davam edir".

Ukraynadakı *"Sevodnya"* internet saytının xəbərində Dağlıq Qarabağda Ermənistanın işğalına son qoyan razılaşmayla Azərbaycanın işğal altında olan ərazilərinin böyük hissəsini azad etdiyi bildirilir və bu zəfərdə Türkiyənin müdafiə sənayesi məhsullarının rolu vurğulanır. Xəbərdə həmçinin Türkiyənin regional lider mövqeyinin daha da gücləndiyi qeyd olunur.

*"Corriere della Sera"*-da çıxış edən Françesko Battistini Qarabağ müharibəsindən sonra əldə edilən razılaşmanın Rusiya lideri Putin tərəfindən dəstəkləndiyini bildirir, Türkiyə Prezidenti Ərdoğanın isə qalib gəldiyini vurğulayır.

İtaliyanın *"La Stampa"* qəzetində Lüçetta Skarafiya imzasıyla dərc olunmuş yazıda qərblilərin Qarabağ müharibəsində məğlub olduğu, islam ölkələrinin xristian ermənilər və qərblilər üzərində zəfər əldə etdiyi bildirilir.

Danimarkanın *"Berlingske"* qəzetində Emil Rottböll imzasıyla dərc olunmuş məqalədə "Dağlıq Qarabağda müharibə bitdi, hələlik... Türkiyə və Azərbaycan Putinin öz vasitələrilə Rusiyanı ağır məğlubiyyətə uğratmağı və əzəli düşmən Ermənistanı diz çökdürməyi bacardı" şəklində dəyərləndirmə aparılır.

*"Financial Times"* qəzetində Laura Pitel və Henri Foy "Türkiyə Rusiyanın təsir dairəsində olan Qafqazda nüfuzunu gücləndirir", – şəklində dəyərləndirmə apararaq Türkiyənin bu müharibədəki rolu və əldə etdiyi potensial imkanlar haqqında müzakirə aparır.



